Manya Səxavətqızı

TOĞRUL
MƏMMƏDOV



# QEYRƏT TƏCƏSSÜMÜ





"Qəhrəmanları olan Vətənin bir qarış torpağı da işğal altında ola bilməz"!



MANYA SƏXAVƏTQIZI

# QEYRƏT TƏCƏSSÜMÜ

"TƏHSİL"
BAKI–2022



MANYA SƏXAVƏTQIZI

# QEYRƏT TƏCƏSSÜMÜ

*Bu kitabı oxuduğunuz zaman qəlbinizdə bir qəhrəman doğulacaq. O qəhrəmanı nə qəlbinizdə, nə ruhunuzda, nə də əməlinizdə öldürməyin. Sətirlər o qəhrəmanın vətən sevgisi ilə nurlanıb. O sevginin şəfəqlərinin hər qəlbə nur saçması diləyi ilə...*

*Vətən sevgisitək sonsuz sevgilərlə Manya Səxavətqızı...*

QAF

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 122090

BAKI–2022

63.3(5Aze)622,8
S 42

Müəllif və redaktor:
**Manya Səxavətqızı**

**"QEYRƏT TƏCƏSSÜMÜ"** kitabı
**"VƏTƏN FƏDAİLƏRİ"** layihəsi çərçivəsində
ərsəyə gətirilmişdir.

**S 35 Səxavətqızı Manya.** Qeyrət təcəssümü.
Bakı, "Təhsil", 2022, 232 səh.

Kitab tarixi öz səhifələrində yaşadır. Kitab dünənlərdən bu günlərə, bu günlərdən sabahlara birləşən ən gözəl bağdır. Tarix yazan qəhrəmanlar elə kitabların sayəsində tarixdə qalırlar. Şəhid Məmmədov Toğrul Səyyad oğlunun 28 illik ömründən və o qısa ömürdə yazdığı qəhrəmanlıqdan bəhs olunan, 232 səhifədən ibarət "QEYRƏT TƏCƏSSÜMÜ" adlı kitab gələcək nəsillərə bir örnək olacaq kitabdır. Vətən qeyrətini hər şeydən üstün tutan bu qəhrəmandan bəhs olunan kitabı yazmaq da, oxumaq da şərəfdir. Çünki hər sətirdən vətən sevgisi duyulur, şəhid qoxusu gəlir.

$S\frac{4702060204}{053}2022$

© Manya Səxavətqızı, 2022
© "Təhsil", 2022



# ANA VƏTƏNİN ŞƏHİD OĞLU

Vətən, torpaq, bayraq və şəhid. Sonuncu özündən öncə sadalananların uğrunda candan keçərək müqəddəsləşəndir. Əbəs deyilmir ki, "Şəhid xalqın damarındakı qana hopur". Xalqın yolunda can fəda edən xalq ürəyinin əbədiyaşarıdır.

Şəhid dünyadan köçdüyü gün doğulandır. Həm əbədiyyətdə, həm də qəlblərdə. Günü-gündən adı böyüyərək bütün xalqın ürəyini fəth edər şəhidin. İllər onu unutdurmaz, əksinə, zamanla şəhid sevgisi böyüyər. Elə şəhidlərin vətən sevgisi kimi.

Yaradılışdan hər kəsin qibtə etdiyi bir məqamdır şəhadət. Şəhadətə çatanlar isə şəhidlərdir. Ali məqama sahib olan şəhidlər. Hər kəsin arzusunda olduğu, lakin hər kəsin çata bilmədiyi bu məqama çatanların sevdalısı çoxdur. Vətəni sevən hər kəsin ən qürurlu və kədərli duyğusu Şəhiddir. Şəhidin adı gəldikdə insanın özündən biixtiyar bir gözü ağlayar, bir gözündən isə qürur yansıyar. Nakam ömrə göz yaşı tökərsən, o məqamı xatırlayıb sevinc və qürur yaşayarsan.

Kim şəhid olmaq istəməz ki? Kim Allahın seçilmişləri cərgəsində yer almaq istəməz ki? Kim sorğusuz-sualsız cənnətə getmək istəməz ki? Ancaq hər kəsə nəsib olmayan o xoşbəxtlik yalnız şəhidlərə qismət olar. Vətənləşən şəhidlərə.

İki hecadan ibarət Şəhid sözünü izah etməkdə sözlər acizdir. Hansı sözlə izah etmək olar nidası qan ilə torpağa qoyulan ömrü? Şəhid qanı düşən torpaqdan iftixar, şərəf, qeyrət qol-budaq atıb bütün vətəni ağuşuna alar. Şəhid qoxan vətəndə alınan nəfəs intiqam duyğusu ilə alınar. Necə ki, qəhrəmanlar bu günə qədər şəhidlərimizin qisasını qiyamətə saxlamayıblar, bu gündən sonra da o qəhrəmanların davamçıları qisas andını pozmayacaqlar.

Bu vətənin dünənindən bu günlərə soyqırımılar iz salıb. İzi qan ilə qalanların iz saldıqları torpaqları işğaldan azad etmək üçün yaşayanların çoxu daha ürəklərdə yaşayır. Şəhid kimi. Toğrul kimi.

Elə gözəl sevdi ki vətəni, sevgisinə heyran oldum. Bilirdi ki, vətənin qucağını dolduran şəhid oğulların analarının qucağı boş qalıb. Hər şəhid anasına oğul olmaq istəsə də, ən çox vətənin oğlu olmaq arzusunda idi. Axı bilirdi ki, anaların da "Ana" dedikləri ana vətəndir. Ana Vətənin şəhid oğlu Toğrul Məmmədov.





# CƏNNƏTDƏ BİTƏN HƏSRƏT

Adı vətən ilə qoşa çəkilən analar vətənə tən oğullar dünyaya gətirirlər. Ana bətnində vətən sevgisi ilə qidalanan oğullar dünyaya şəhid kimi göz açırlar. Bir gün torpağın bətninə köçəcəklərini ömürlərinin hər anında xəyal edən oğullar xəyalların və cənnətin şəhid sakinlərinə çevrilirlər.

Cənnətin belə anaların ayaqları altında olduğunu düşündüyümüzdə anaların məqamının ucalığı bəlli olur. Bir də o analardan şəhid oğullar dünyaya gətirib Şəhid anası adı ilə mükafatlanan anaların məqamlarını düşünək. Ən uca məqamlardan biri. Bəlkə də, şəhidlərin ucaldığı məqama ən yaxın məqam. Oğlundan öncə əbədiyyətə köçən analar, yəqin ki, oğlunun şəhadət zirvəsinə çatan yollarının ilk şəhidlərindən biri olurlar.

Bəzi şəhidlər isə bu dünyada kəm qalan ailələrini cənnətdə tamamlayırlar. Onların cənnətdə heç bir əlləri boş qalmır. Yaşayarkən boş qalan əllərini əbədiyyətdə həm ataları, həm də anaları tutur. Allahın şəhadətlə mükafatlandırdığı şəhid fani dünyada yaşadığı ağrı-acılara əbədiyyətdə məlhəm tapır. Bu dünyada isə onların həsrətini çəkən qəlblərin dərdinin məlhəmi olmur. Çünki Şəhid adlı yara heç vaxt qaysaq tutmur.









## ÜMİD İŞIĞI

Övlad – ümidin başlanğıcı, arzuların əksi düşən ayna, xoşbəxtliyin özüdür. Qoxusu cənnət, gülüşü səadət, sədası məhəbbətdir. Övladın isti nəfəsi ilə isinən ocağın kandarından kədər içəri bir addım da ata bilmir. Bütün çətinliyi övladın varlığı unutdurur. Daha gözəl sabahların ümid işığı düşən ürəklər övladın varlığına tutunur.

"Övlad" deyəndə Səyyad Məmmədovun ürəyinin sarı simi titrəyirdi. O qədər arzulayırdı ki, ocağını övlad nəfəsi isitsin. Üzünə gülməyən həyatda tək sevincinin övlad olacağını bilirdi. Nəhayət ki, Allah o sevinci Məmmədovlar ailəsinə bəxş etdi.

Bir ana üçün övladdan dəyərli məfhum yalnız vətən ola bilər. O vətən ki, övladı yalnız vətənə layiq böyütməyə çalışar. Məmmədovlar ailəsinin vətənə layiq övladı 13 iyul 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Şıxmahmud kəndində dünyaya göz açmışdır. Qızmar yay günü bu körpənin gəlişi ürəklərin övlad adlı həsrət buzunu əritmişdi. Toğrul 13 iyulda anadan olsa da, onun doğum tarixi sənədlərdə 26 iyul tarixinə qeyd olunmuşdu. Lakin Toğrul ömrünün bəlli bir dönəmindən sonra ad gününü bu iki tarixlərdə deyil 26 iyun – Silahlı Qüvvələr Günü qeyd etmişdi. Bu addımı Toğrulun vətən sevgisindən irəli gəlmişdi.

Dünyaya göz açandan sanki qəhrəmanlığı çöhrəsinə yansımışdı bu igidin. Atası ona başqa ad vermək istəsə də, ata nənəsinin arzusu ilə adına Toğrul deyilmişdi. Elə yaşadığı həyatda da adının haqqını vermiş, qoçaqlığı ilə seçilmişdi. Heç şübhəsiz ki, Toğrulun zəhmətkeş olmağının ilk səbəblərindən biri ailəsinin halal zəhmətlə qazanılan bir tikə çörəyi hər zənginliyə bərabər bilməsi idi. Müəllim atanın, həkim



ananın tərbiyəsini görən övlad elə Toğrul kimi vətənin keşiyini çəkən bir vətəndaş olmalı idi. Axı "Uşaq ailənin güzgüsüdür." Bu güzgüdən vətənə vətən sevgisinin əksi düşdü.

Səyyad Məmmədovun ən böyük arzusu ilk övladını bir hərbçi kimi görmək idi. Kim bilir atası Toğrulun beşiyinin başında durub hansı xəyalları qururdu? Yəqin ki, o xəyalların ən gözəli Toğrulun vətənə doğan ümid işığı olması idi.

Toğrul ilə övlad adlı sevinci yaşayan ailənin bir il sonra ikinci övladı Şəbnəm, 1992-ci ildə isə sonbeşik övladı Üzeyir dünyaya göz açdı. Toğrul böyük qardaş kimi hər zaman bacı və qardaşının qayğısını çəkdi. O sanki gələcəkdə bacı-qardaşına bir qardaş olmaqla yanaşı, həm də ata-ana olmaq məcburiyyətində qalacağını hiss edirdi.

Bir zamanlar arzuları böyümək olan üç uşaq bilməzdilər ki, ötən illər onları böyük itkilərə yaxınlaşdırır. Onlar heç təsəvvür etmirdilər ki, həyatın ən böyük sınağı olan əbədi ayrılıq onları bir deyil, iki deyil, üç dəfə sınağa çəkəcək. Bu ocaqdan ana nəfəsi, ardınca ata nəfəsi, sonra isə sığındıqları qardaş nəfəsi əbədi kəsiləcək.



## "QƏHRƏMANLIQ" ƏSƏRİNİN OXUCUSU VƏ YAZIÇISI...



*Məktəb hər insanın min arzuyla, min ümidlə qədəm qoyduğu yerdi. Hər kəs məktəbə getdiyi ilk gün uşaq xəyallarında böyük arzuları səhnələşdirər. Kimi o səhnədə müəllim, kimi həkim, kimi də əsgər kimi rol alar. Kimi də özünü şəhid görər. O xəyallardan boylanan vətənin açılan qucağına bayrağa bürünərək qaçan şəhid kimi özünü xəyal edən oğullar bu xalqı azadlıq arzusuna çatdırdılar. Bir zamanlar məktəbdə oxuyan uşaqlar böyük-böyük qəhrəmanlar oldular. Daha biz böyüklər də o qəhrəmanların qan ilə yazdıqları "Qəhrəmanlıq" adlı tarixi əsəri oxuyub öyrənmişik. Öyrəndiyimiz bütün dərsləri unutsaq da, qan ilə yazılan "Qəhrəmanlıq" əsərini məzara qədər unutmarıq. Çünki aldığımız hər nəfəsi o əsəri yazan şəhidlərə borcluyuq.*

*Bir zaman şəhid Toğrul Məmmədova "Ana, Vətən" sözlərini öyrədən müəlliməsinin dilindən "Qəhrəmanlıq" əsəri yazan qəhrəmanın məktəbli çağını xəbər aldım.*

**Toğrulun ibtidai sinif müəllimi Nazilə Kərimova:**

– Mən Toğrulu körpəliyindən tanıyırdım. Atası ilə həyat yoldaşımın dostluq bağı bizim ailəvi gediş-gəlişimiz üçün körpü olmuşdu. Hər dəfə Toğrulu görəndə onun dərrakəsinə,

əxlaqına valeh olurdum. Bir müəllim kimi onun daxili dünyasını sezirdim.

Hər bir müəllimin arzusudur ki, dərs dediyi sinifdə Toğrul kimi şagird olsun. Çünki Toğrul kimi uşaqlar ailədə ata-anasının, məktəbdə də müəllimlərinin başını uca edərlər. Elə ona görə də Toğrula dərs demək mənim üçün xoş təəssürat bağışlayırdı.

Toğrulun məktəb həyatı 1994-cü il 1 sentyabrda başladı. Sinfin ən fəal şagirdlərindən biri idi. Həm yaraşığı, həm də dərrakəsi ilə seçilməyi bacarırdı. Tək mənim deyil bütün müəllim və şagirdlərin rəğbətini qazanmışdı.

Vətəni elə gözəl sevirdi ki... Qəlbindəki Qarabağ yanğısı gözlərindən oxunurdu. Vətən mövzularında olan dərslərə xüsusi yanaşardı. O mövzudakı həssaslığı gözlərinə və sözlərinə yansıyırdı. Bütün fənləri sevsə də, ən çox anadili dərsini sevirdi. Riyaziyyat fənini də çox yaxşı bilirdi. Atasının riyaziyyat müəllimi olması onun məsuliyyətini bir qədər də artırırdı.

Haqsızlığa dözmürdü. Hər zaman haqqın tərəfində olurdu. Hətta özü cəza alsa belə, haqqı nahaqqa qurban vermirdi.

Etibarlı oğul, etibarlı şagird, etibarlı vətəndaş idi. O əməli ilə etibarlı olduğunu sübut etdi. İbtidai məktəbə son vida deyilən gün Toğrulun gözlərindəki hüznlü baxışı ürəyimin ən kövrək duyğularını dilə gətirdi. Dörd il bərabər keçən günlərin sona çatmağını qəbul etmək asan deyildi. İbtidai məktəbə vida desə də, Toğrul heç zaman məni unutmadı. Məktəbdə oxuyanda hər zaman məni ziyarət edərdi. Ötən illər Toğrulu və onun vətən sevgisini böyütdü. Bir gün Toğrul vətən səngərinə uzanan yolun başlanğıcı sayılan C.Naxçıvanski adına Hərbi Liseyə (indiki Heydər Əliyev adına Hərbi Liseyə) daxil olduğunu dedi. Toğrulun həmin addımı məni çox duyğulandırdı və qürurlandırdı. Toğrul kimi oğul elə hərbçi peşəsini seçməli idi.



Dərs dediyim zamanda etibarı ilə seçilən oğul hər zaman etibarlı oldu. Yollar araya məsafə salsa da, nə zaman Naxçıvana gəlsə məni ziyarət etməyi unutmadı. Toğrul şagird kimi mənə, dost övladı kimi Əhməd müəllimə sədaqətli oldu. Toğrul bizi heç zaman unutmadı. Biz də onu heç zaman unutmayacağıq.

**Səyyad Məmmədovun dostu Əhməd müəllim:**

– Toğrulun adını duyduğum zaman özümdən biixtiyar keçmiş xatirələr gözlərimin önündə canlanır. Səyyad müəllimlə mənim dostluğum çox sınaqlardan çıxmışdı. Biz həm dar gün, həm də xoş gün dostları idik. Səyyad müəllimin Toğrula olan güvəni elə övlad sevgisi qədər idi. Toğrul da hər zaman atasının güvənini doğruldurdu. Hər atanın oğlu Toğrul kimi olmur.

Toğrul bir evin yox, bir elin oğlu idi. Onun şəhid olduğunu eşitdiyimdə göz yaşlarıma hakim ola bilmədim. *(Əhməd müəllim yenə də göz yaşlarına əngəl ola bilmədi.)* Mən göz yaşlarımı insanların görməyini istəmirəm. Ancaq Toğrulun adı gələndə nəinki gözlərim, mənim qəlbim ağlayır. "Ürək yanmasa, gözdən yaş çıxmaz" deyib atalarımız. Qəlbimin ən sağalmaz yarasıtək qanayır Toğrul dərdi. Bircə əbədiyaşarlığından güc alıram. Şərəfətli oğul xalqın qəlbində yaşayır.



# OXUNUR ÖMÜR KİTABIN

*Bir vaxt "Vətən" sözün dilə gətirib,*
*Azadlıq sözüylə hey bəzəyərdin.*
*Özün bir balaca məktəbli idin,*
*Vətəndən böyükdü həsrətin, dərdin.*

*Heç kimin qəlbində şübhə yox idi,*
*Səninlə böyüyən saf məhəbbətə.*
*Allah seçilmiştək yaratdı səni,*
*Sonra da apardı, Toğrul, cənnətə.*

*Min ömür sürəndən birinə düşər,*
*Dünyaya vidası şəhidtək olsun.*
*Atdığın addımı sən elə atdın,*
*Xalqın adın ilə iftixar duysun.*

*Daha "Qəhrəmanlıq" dastanı kimi,*
*Körpələr oxuyur ömür kitabın.*
*Bu xalq tarix boyu yaşadacaqdır,*
*Vətənə can verən qəhrəman oğlun.*

*27.09.2022*



# ŞƏBNƏMİN ƏBƏDİ HƏSRƏTİ

*Qardaş – bacının tərəddüdsüz güvəndiyi insandır. Qardaş – bacının bütün sevincləri bağrına basmaq üçün açılan qollarıdır. Nə qədər qardaşın əllərini bacı çiyinlərində hiss edərsə, özünü güclü hiss edər. O əl çiyindən götürüldüyü zaman sanki bacının gücü tükənər.*

**Toğrul Məmmədovun bacısı Şəbnəm xanım:**

– Həyatı dərk etdiyim zamandan ata-anamdan sonra Toğrulun varlığı ilə güclənmişdim. Çiynimdə ilk Toğrulun əlini hiss etmişdim. O zamanlar dərdim yeriyərkən yıxılmamaq, yıxılarkən ayağa durmaq idi. Hər dəfə yıxıldığımda mənə uzanan ilk əl Toğrulun əli olardı. O əldən tutduğumda sanardım ki, bu dünyada Toğrul məni hər zaman qoruyacaq. Məndən kiçik qardaşım Üzeyir də böyüdükcə özümü dünyanın xoşbəxti sanırdım. Məni sevən atam, anam və iki qardaşım var idi. Demək ki, o zamanlar mən, sözün əsl mənasında, dünyanın xoşbəxti olmuşam. Bu gün bunun fərqinə daha çox varıram.

Bəzən o qədər kimsəsizləşirəm ki, sanki bu dünyada tənha qalmışam kimi hiss edirəm. İnsan sevdiklərini daş məzarda gördüyündə həyata başqa cür baxır. Ölüm o gözlərdə adiləşir və anıləşir.

Keçmiş keçmişdə qalsa da, izi xatirələrdən silinmir. Bu gün acılı-şirinli xatirələri xatırladıqca həmin o şıltaq qızcığaz olmaq istəyirəm. Toğrul ilə aramızda 1 yaş fərq var idi. Eyni məktəbin şagirdləri idik. Başqa uşaqlardan fərqli olaraq bizim məktəbdə məsuliyyətimiz daha çox idi. Çünki atamız məktəbdə bizim riyaziyyat müəllimimiz idi. Məktəbdə siniflər arasında keçirilən yarışlarda rəqib komandada olsaq da, Toğrulun sahiblənmək duyğusunu hiss edirdim. İstəmirdi



mən yanlış cavablar verim. Mənim qalibiyyətim onun məğlubiyyəti demək olsa da, o mənim məğlub olub üzülməyimi istəmirdi. Gözlərimdə bir gilə yaş görməyə qıymazdı. Ancaq həyat gözlərimi ağlar qoydu. Ard-arda itirdiklərim məni həyatda məğlub etdi.

Toğrul Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olandan sonra, demək olar ki, ürəyim həsrət dənizinə yelkən açdı. Həftədə bir dəfə gördüyüm qardaşım özünün və atamın arzularının yollarında addımlayırdı. Ancaq o arzunun yollarını əbədi gedişlər kəsdi. Həyatda min bir əziyyətə qatlanan anam çarəsiz xəstəliyə düçar oldu. Biz anamın xəstəliyinin ciddiyyətini Toğruldan gizlətdik. Günbəgün saralıb-solan anam iki ayda sanki yüz il qocaldı. Mən deyərəm ki, anam Toğrula doymadı. Ömrünün son günlərində yalnız "Toğrul" deyirdi. O vaxtlar texnologiya bu qədər inkişaf etməmişdi. Anamın



üzünə həsrət qaldığı qardaşım sanki anamın arzusunu hiss etdi. Elə həmin vaxt evə öz şəkillərini göndərdi. Şəkilləri aparıb xəstəxanada anama göstərdim. Anam sanki Toğrulun şəklini deyil cismini oxşayırmış kimi şəkilləri doya-doya oxşadı. Anamın o hərəkətlərinin səbəbi ertəsi gün məlum oldu. Sübh səhər atama gələn zənglə atam tələsik xəstəxanaya getdi. Sən demə anam o an can üstə imiş. Bizi atama əmanət edən anam o an həyata gözlərini yumdu.

Atam o gün getdiyində düşünməzdim ki, 39 yaşlı anamın cənazəsini gətirər. Mən o gün böyüdüm. Bilmədim anamın əbədi gedişinin dərdini çəkim, bilmədim Üzeyirin gözlərindəki ümidsizliyin dərdini çəkim, bilmədim anama son vida edə bilməyən Toğrulun dərdini çəkim, yoxsa tənha qalan atamın dərdini çəkim. Bircə onu bilirəm ki, o gün böyüdüm...

İlk dəfə idi ki, anam Toğrulu qarşılamırdı. O an ürəyim o qədər yanırdı ki, heç bir sözlə o yanğını izah edə bilmərəm. Bilmədim Toğrula nə deyim. Ancaq Toğrul həmişə olduğu kimi yenə də güclü görünməyə çalışırdı. Bilirdim ki, qardaşımı bu dərd daxilindən yıxıb. Ancaq bizə bəlli etməməyə çalışırdı. Biz elə körpəlikdən biri-birimizi üzməmək üçün acılarımızı gizlədirdik. Ancaq anasızlığın acısını bir yerə qədər ram etmək olur. Toğrul da bir neçə gün sonra anamın şəklini gördüyündə o acı gözlərindən töküldü. İlk dəfə idi Toğrulu elə görürdüm. Əbəs deyilməyib "Çox gülənin dərdi böyük olur". Toğrul hər acını gülüşünün ardında gizlətməyi bacarsa da, anasızlığı gizlətməyi bacarmadı.

Anasızlıq bizim fəlakətimizin sonu olmadı. Biri olub, biri olmayan evimizdə atamıza sığınmışdıq. Ancaq həyat atamın əllərini də əllərimizdən üzdü.

Anam getdikdən sonra atam üçün həyat öz dəyərini itirmişdi. Heç özünə baxmırdı. Bir gün səhər unversitetə gedən vaxt televiziyada bir hərbi veriliş gedirdi. Atam o an "Toğrulun da uşaqları belə hərbçi olacaq" dedi. Heç bilməzdim ki, bu atamdan duyduğum son arzu olar. Evdən ayrıldığım 1 saat

F. Köçərli adına Respublika Uşaq KİTABXANASI İNV. № 122090

olmazdı ki, Üzeyir zəng edib atamın halının pisləşdiyini dedi. Tez evin yolunu tutdum. O yol uzandıqca uzandı. Həyətə çatdığım anda dörd il öncə gördüyüm tabutla təkrar qarşı-qarşıya gəldim. Üzeyirin gözlərinə baxdığım an yenə güclü görünmək məcburiyyətində olduğumu hiss etdim. Dörd il öncə yaşadığımız duyğuları təkrar yaşadıq. Məsafələr yenə də Toğrula əngəl oldu. Toğrul atamın da son vidasına yetişə bilmədi. Sanki qardaşımın bəxtinə ata-anamı torpaqda oxşamaq yazılıbmış. Vətəni, torpağı canından çox sevən qardaşım valideynlərimin itkisindən sonra vətənə daha çox sevdalandı. O, bilirdi ki, hərbçilərin ömürləri yarımçıq qalır. Atasızlığın acısını bildiyi üçün nə ailə qurmadı, nə də övlad sahibi olmadı ki, atasızlıq adlı acını öz övladına miras buraxmasın.

Valideynlərimizi itirdikdən sonra Üzeyir də, mən də Toğrulun varlığına tutunduq. Özü bizdən uzaqda olsa da, varlığı bizə yetirdi. Hər bir addımımızı Toğrula deyib atırdıq. Toğrul özü gənc olsa da, bir böyük kimi, ata kimi, ana kimi qayğımızı çəkirdi. Mən valideynlərimi itirdiyimdə sanırdım ki, daha həyatda heç bir itki, acı məni yıxmaz. Ancaq yanılmışam. Toğrulun gedişi mənim bütün dərdlərimi unutdurdu. Anasızlıq, atasızlıq dərdimdən daha betər dərdim qardaşsızlıq dərdim oldu. Çünki şəhid dərdi başqa dərdlərə bənzəmir.





## FƏXARƏTİMSƏN

*Həyat acılarla böyütdü bizi,*
*Varlığın yetirdi bizlərə, qardaş.*
*Axı sən bilirdin necə ağırdı,*
*Torpaq üstündəki qara mərmər daş.*

*Ana yoxluğunun, ata dərdinin,*
*Əsiri olmuşduq gənc yaşımızdan.*
*Allahdan tək onu arzulayırdım,*
*Səni kəm etməsin heç başımızdan.*

*Arzular çırpıldı məzar daşına,*
*Şəhid bacısı da düşdü bəxtimə.*
*Çəkdiyim acılar az imiş kimi,*
*Sənsizlik calandı mənim dərdimə.*

*Əlini çiynimdən çəkdiyin gündən,*
*Bir çiynim boş qaldı əbədi, Toğrul.*
*Həsrətin qəlbimin sağalmaz dərdi,*
*Adınsa yaşadır fəxarət, qürur...*

*19.09.2022*

# QARDAŞ ADLI DAYAĞIM

*Həyatda bir qardaşın ilk dostu, ilk sirdaşı, ilk yol göstərəni böyük qardaşı olur. Kiçik qardaşlar böyük qardaşların hərəkətlərini təkrarlayır, böyük qardaşı özlərinə kumir seçirlər. Qardaşının varlığından güc alan qardaşlar hər addımı daha sağlam atırlar.*

**Toğrul Məmmədovun qardaşı Üzeyir Məmmədov:**

– Toğrul məndən dörd yaş böyük idi. Mən onu elə körpə yaşlarımdan məsləhət yerim bilirdim. Atama və anama deyə bilmədiklərimi Toğrulla bölüşürdüm. Kölgəsi üzərimə düşən anda mən özümü sanki arxalı dağ hesab edirdim. Uşaqlıqdan bacım və mənim öz ayaqlarımızın üzərində dura bilməyimiz üçün bizə yol göstərirdi. Sanki olacaqlardan xəbərdar imiş. Sanki ata-ana yoxluğu ilə sınanmağımız bəs etməyəcəkmiş kimi, bir də onsuzluqla sınanacağımızı hiss edirmiş kimi bizi həyatın sınaqlarına hazırlayırdı.

Vətəni həddindən ziyadə sevirdi. "Vətən" deyəndə gözlərinin içi gülürdü. Elə o sevgi onu hərbçi peşəsinə yiyələnməyə sövq etdi. Qardaşım peşəsinin vurğunu idi, yorğunu deyil. Bütün çətinliklərə rəğmən o işini sevirdi. Atam da oğlunu general görmək arzusunu hər zaman dilə gətirərdi. Ancaq təəssüf ki, nə anam, nə də atam Toğrulun məzun olduğunu görə bilmədilər.

Mən bu həyatda "Ölüm" sözündən qorxuram. Ölüm 12 yaşımda uşaqlığımı əllərimdən aldı. Anamın xəstəxanadan tabutda döndüyü gün mən bildim ölümün nə demək olduğunu. O gün evimizdən isti ana nəfəsi əbədi olaraq əksildi. Heç bilmirəm necə dözdüm...

Daha həyat əvvəlki kimi deyildi. Gözlərimizin sevinci evimizin sevinci kimi itmişdi. Mən ən böyük itkini yaşamışam



sanırdım. Ancaq atamın gözlərimin önündə can verdiyi an ən böyük çarəsizliyi yaşadım. Nəfəsinə sığındığım atamın nəfəsi kəsilirdi. Mən isə ona kömək edə bilmirdim. Zaman o qədər sürətlə ötürdü ki, sanki atamı bizdən ayırmağa tələsirdi. Mən atamı qəfil gələn əcəlin əllərindən ala bilmədim. Atam gözlərimə baxa-baxa əbədi olaraq həyata gözlərini yumdu.

O an gözlərim Toğrulu axtardı. Axı mən ata cənazəsini daşıyacaq qədər güclü deyildim. Bəlkə Toğrulun əlləri çiyinlərimdə olarsa mən o gücü özümdə taparam deyə düşündüm. Ancaq uzanan yollar Toğrulun o an çatmasına mane oldu. Bacımla birlikdə çarəsizcə atamın əbədi gedişini izlədik. Necə yaşayacağıq deyə düşünürdük. Axı anasızlıq, atasızlıq çox çətindir. Ancaq özü bu dərdi ürəyinin ən dərinində saxlayan Toğrul bizə yaşamaq üçün güc verdi. Daha həyatda tək dayağımız Toğrul idi. Bilməzdik ki, o dayağımız da kökündən laxlayacaq.

Mən əminliklə deyə bilərəm ki, Toğrul özündən çox bizi düşünürdü. Ata-anamızı itirdikdən sonra Toğrul bizə qardaşdan çox valideyn qayğısı göstərirdi. Bizim üçün çalışırdı. Atdığı addımları bizim üçün atırdı. Allah onu fərqli yaratmışdı. Bəzən Toğrulun dəyanətinə baxıb həm həsəd aparırdım, həm də nümunə götürürdüm.

Toğrulun hər sözü bizim üçün qanun idi. Bilirdik ki, o, nə deyirsə düşünüb sonra dilə gətirir. Ona görə də onun dediyinə zərrə qədər şübhəmiz olmazdı.

Mən hərbi xidmətə gedəndə Toğrul mənə həm qardaş, həm ata, həm də bir hərbçi kimi məsləhət verib, yol göstərdi. İllərlə vətən keşiyini çəkən bir zabitin məsləhəti mənim üçün çox önəmli idi. Hərbi xidmətimi bitirib döndükdən sonra Toğrulun məsləhəti ilə mən də hərbçi peşəsini seçmək qərarına gəldim. Toğrul məni bu peşədə görmək arzusunda idi. Ancaq təssüf ki, qardaşım bir çox arzuları kimi o arzuya da çata bilmədi. Müəyyən səbəblərdən mən hərbçi ola bilmədim. Demək ki, qismətimdə hərbçi Toğrulun hərbçi qardaşı yox, Şəhid Toğrulun qardaşı olmaq yazılıbmış.



## QƏLBİN HƏSRƏT SAVAŞI

*Sən oldun hər zaman, həyatda mənim,*
*Dayağım, dəstəyim, dostum, sirdaşım.*
*Kölgən üzərimi alırdı, Toğrul,*
*Nə zaman sıxışsa kədərdən başım.*

*Varlığın dərdlərin əlacı idi,*
*Daha yoxluğunun əlacı yoxdur.*
*Ata-ana adlı çırağı sönən,*
*Evimiz sənsiz lap buzdur, soyuqdur.*

*Bircə təsəllim var mənim həyatda,*
*Şəhidlər əbədi yaşar olurlar.*
*Vətənin bənizi solmasın deyə,*
*Onlar candan keçib, vaxtsız solurlar.*

*Bütün Azərbaycan adını duycaq,*
*Şəninə "Min əhsən" deyir, qardaşım.*
*Vətənin savaşı bitdi amma ki,*
*Bitməz qəlbimdəki həsrət savaşım.*

*19.09.2022*

# ANAYA TƏN XALA

*Hər insan ömür karvanının müvəqqəti qonağıdır. Bu karvanın hər yolçusu bir gün o karvanı tərk edir. Hər gediş qalanların ürəyində sağalmayan yaraya dönür. Bəzən isə ürək ard-arda gedişlərin vidası ilə təkrar-təkrar yaralanır.*

**Toğrul Məmmədovun böyük xalası Vəsilə xanım :**

– "Xala – ana yarısıdı" deyirlər. Mən isə özümü Toğrulun ana təni bilirdim. Nə o, məni anasından seçirdi, nə də mən onu övladlarımdan seçirdim. Lap körpəlikdən mehrimi Toğrula salmışdım. Ondan duyduğum ***"Vəsilə xala"*** sözləri mənim üçün dünya idi. Bir gün görməyəndə, səsini eşitməyəndə yerə-göyə sığmazdım. İndi özüm də özümdəki dözümə məəttəl qalmışam.

Toğrul körpəlikdən böyük kimi davranışları ilə seçilirdi. Sanki Allah onu fərqli yaratmışdı. Özünün, sözünün yerini bildiyi üçün hər kəsin rəğbətini qazanmışdı. Sümayyə nənəsi Toğrulu bir başqa sevib-əzizləyirdi. Ürəklərdə ilmə-ilmə sevgi toxudu. Biz onu, o isə daha çox vətəni sevdi.

Bacım dünyadan köçəndən sonra üç balasını bacı yadigarı kimi yaralı ürəyimizə sıxdıq. İki qardaş, bir bacı və bacımızın həyat yoldaşını cavan yaşlarda itirmək bizim üçün asan deyildi. Sanki Toğrul, Şəbnəm və Üzeyir bizə yaşamaq üçün güc verdilər.

Toğrul vətən oğlu kimi vətənə layiq olmaq üçün çalışırdı. Onun səngərdə ötən gecələri mənim yuxumu ərşə çəkirdi. Çəkdiyi çətinlikləri heç zaman bəlli etmirdi. Bacı-qardaşını bizə əmanət etmişdi. Hər şeyə rəğmən o vətən andını pozmadı.

Aprel döyüşləri zamanı gecəm gündüzlə yer dəyişmişdi. Vətənə, hərbçilərə tuşlanan hər atəşi ürəyimə dəyirmiş kimi



hiss edirdim. Həmin döyüşlər bitdikdən sonra Toğrul evlərinə gəldi. Toğrulun bir xasiyyəti var idi. Adətən, Naxçıvana gələndə bütün qohumlarla gedib görüşərdi. Bu dəfə dedim, Toğrul, sən gəlmə. Sən qanlı yoldan gəlmisən. Mən sənin ayağına gələcəm. Mən Toğrulu gördüyüm anda bir ana kimi onu bağrıma basdım. Hiss etdim ki, onun ana qayğısına, ana qollarına ehtiyacı var. Ancaq xala elə xaladır...

Toğrul ilə bağlı çox arzularım var idi. Bir gün dərddən sınıb yanıma düşən qollarımı Toğrulun toyunda qaldırıb oynayacağımı arzu edirdim. Hər dəfə evlənmək barəsində nə isə dediyimizdə ***"Bacımı və qardaşımı yerbəyer edim, sonra baxarıq"*** deyirdi. Ancaq onun ömrü arzularımızın gerçək ola biləcəyi qədər uzun olmadı.

Hələ də gözlərim yollardan yığılmır. Bəzən Toğrulun bayrağa bürünmüş tabutunun gəldiyini unudub taksidən düşəcəyini xəyal edirəm. Bilirəm o xəyallar heç vaxt real olmayacaq. Ancaq yenə də Toğrulun olmadığı dünyada xəyalları ilə yaşayıram. Bir zamanlar boynuna sarılan qollarım daha Toğrulun şəkillərinə və məzarına sarılır. Ömrü qısa olanımın şəkilləri həmsöhbətim olub. Hər gecə Toğrulun şəkili ilə vidalaşıb yuxuya gedirəm. O gecələrin sonuna isə ümid işığı düşmür.

**Toğrul Məmmədovun kiçik xalası Səriyyə xanım:**

– Mənim həyatda oğlum yoxdur. Ancaq özümü heç zaman oğulsuz hiss etməmişdim. Çünki Toğrul qəlbimin o boşluğunu varlığı ilə doldururdu. Bacımın balası olsa da, mən də onun varlığı ilə ən azı ana qədər xoşbəxt olurdum. İllərdi ki, ürəyim Toğrulun yoxluğu ilə viran olub. Onun yerinə heç kimi qoymadım, qoymaram...

O qədər sevgi dolu, qayğıkeş insan idi ki, sevgisi hər kəsə yetirdi. İşdən gəldiyimdə ilk işim telefonda Toğrulun mesajlarını oxumaq olurdu. Ondan gələn bir mesaj mənə dünyaları verirdi.

Bacım dünyadan köçəndən sonra Toğrul məni qucaqlayanda boynumu qoxlayıb, öpürdü. Əvvələr bunun səbəbini bilmirdim.





Sonra Şəbnəm Toğrulun məndən anasının qoxusunu aldığını etiraf etdiyini dedi. Mən Toğruldan oğul, o isə məndən ana qayğısı görürdü.

Aprel döyüşləri zamanı ən azı bir əsgər anası qədər həyəcanlı idim. Toğrul o döyüşlərdən sağ çıxsa da, ən yaxın dostunu itirmək ona çox ağır zərbə oldu. Aprel döyüşlərindən sonra mayın 29-da Naxçıvana gəldi. Müharibədən sağ gəldiyi üçün iyunun 4-də Əshabi-Kəhf ziyarətgahında Toğrula qurban kəsdik. Orada çəkilən şəkillərin Toğrul ilə olan son xoşbəxt anımızın ölümsüzləşdiyi şəkillər olduğunu bilmirdim. Bilmirdim ki, bir müddət sonra o şəkillər Toğruldan mənə qalan son xatirələr olacaq.

Toğrul iyunun 12-də işinə geri dönəcəkdi. Öncəki gecə, demək olar ki, heç birimiz yuxu yatmadıq. Elə bil ki, son dəfə Toğrulla görüşdüyümüzün fərqində idik. O gecənin səhəri Toğrul bizimlə vidalaşıb getdi. Heç xəyal etməzdim, Toğrulun dönüşü elə olar. Çünki onun sözü var idi. Anasının, atasının tikib başa çatdıra bilmədikləri evi Toğrul tikdirib isti yuva etməyə çalışdı. Sentyabrda Üzeyiri evləndirmək istəyirdi. Mənə dedi ***"İlk Üzeyirin isti yuvasını qurmağına şərait qurum, qismət olarsa, apreldə də mən ailə quraram."*** Ancaq o arzuların heç birinə çata bilmədi. Toğrulun bacı-qardaşı ilə bağlı olan, bizim də Toğrul ilə bağlı olan bütün arzularımız nakam qaldı.

## QALMIŞIQ YANA-YANA

*Mən səni oğlumtək bağrıma basıb,*
*Dərdimin dərmanı bilirdim hər vaxt.*
*Mən axı haradan bilə bilərdim,*
*Şəhidtək qurarsan ürəklərdə taxt?!*

*Vətənə duyduğun sevgi, məhəbbət,*
*Hər kəsə aşkardır, vətən övladı.*
*Həyatı dərk edən ilk gündən bəri,*
*Qəlbin "Vətən" adlı dərdi qanadı.*

*Qəlbində sən neçə dərdi gizlədib,*
*Bizi varlığınla bərxudar etdin.*
*Vətənin köksündən gənckən dərilib,*
*Torpağın qoynunda əbədi bitdin.*

*Ana ayrılığı, ata həsrəti,*
*Əbədi dünyanda yetişdi sona.*
*Sənsiz ömür sürmək yaman çətindir,*
*Ardınca qalmışıq biz yana-yana.*

*Axı sənin bizə sözün var idi,*
*Kədərli gözləri güldürəcəkdin.*
*Verdiyin ümidi öz əllərinlə,*
*Elə böyümədən öldürəcəkdin?*

*19.09.2022*



## QƏHRƏMANIN DAVAMÇISI

"Qəhrəmanlıq qandan gəlir" deyimi əbəs dilə gələn fikir deyil. İllərin sınağından çıxan bu deyim bu gün də öz sübutunu tapır. Günümüzün qəhrəmanlarının dünənlərində mütləqdir ki, örnək aldığı bir qəhrəman olub. Məmmədovlar nəslində də qəhrəman oğullar çox olub. Vətən sevgisi ilə dövr edən qanları vətən torpağına qarışan oğullardan biri də Səyyad Məmmədovun əmisi oğlu Məmmədov Sürəddin Oruc oğludur.

Toğrul Məmmədovun ömür yolunun izinə düşdüyüm zaman bu qəhrəmanın örnək götürdüyü qəhrəmanlardan birinin də Sürəddin Məmmədov olduğunu öyrəndim.

Məmmədov Sürəddin Oruc oğlu 13 aprel 1973-cü ildə Babək rayonunun Böyükdüz kəndində dünyaya göz açır. Ömrünün hər çağında vətənpərvərliyi ilə adından söz etdirən qəhrəman Sovet Ordusunun tərkibində həqiqi hərbi xidmətdə olduğu zaman Azərbaycanın düşmənlər tərəfindən yağmalanmasına biganə qalmayaraq vətənə dönür. Ermənistanın havadarlarına arxalanaraq Naxçıvan Muxtar Respublikasını hədəf aldığı dönəmlərdə sinəsini vətənə sipər edən Sürəddin Məmmədov Sədərək uğrunda gedən döyüşlərə qatılır. 1992-ci ildə Qaraburun dağı və Mil təpə uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşur. Həmin döyüşlərdə bir neçə düşməni məhv edən qəhrəman iki yaralı əsgərimizi düşmən pəncəsindən xilas edir. Sürəddin Məmmədovun ömür və döyüş yolu 17 iyul 1992-ci ildə Mil təpədə düşmənin açdığı snayper atəşi ilə sona çatır.

İyul ayı Məmmədovlar ailəsi üçün həsrət, ayrılıq ayıdır. Toğrul cəmi 4 yaşı olan zaman şəhid adının mahiyyətini dərk etməyə başlayıb. Kim bilir, bəlkə də, elə o körpə ürəyindən böyüyüb Sürəddin Məmmədovun qisasını alacağını keçirib.






Nə Toğrul, nə də Toğrulun doğmaları 24 il sonra iyul ayında Məmmədovlar ailəsinin vətənə daha bir oğul qurban edəcəyini bilmirdilər.

Toğrul hər dəfə Sürəddinin məzarını ziyarət edəndə gözlərindəki intiqam qığılcımı daha da aydın sezilirdi. Bir gün düşmənin o qığılcımın çevrildiyi alova qərq olacağı heç kimə sirr deyildi. Toğrul nə Sürəddinin, nə də vətənin qisasını qiyamətə saxlamadı.

Belə oğullardan can tapıb vətən. Tarixin hər səhifəsinə nəzər saldıqda qan ilə yazılan neçə-neçə qəhrəmanlıq dastanının izinə rast gəlirik. Bu vətənin vətən qeyrətliləri, vətən sevdalıları vətənə qeyrət ləkəsi vuranları öz qanlarında boğublar. Azərbaycan hər zaman Sürəddin davamçıları Toğrulların sayəsində azad yaşayacaq.



## QƏHRƏMAN ŞƏHİDLƏR

*Mərmilər dəyən cismin*
*Məlhəmi ana torpaq.*
*Torpaq, sənə qovuşdu,*
*Neçə şəhid üzüağ.*

*Bir həyatın vidası,*
*İgidliyə yol açdı.*
*Sürəddin davamçısı*
*Cənnətə nurun saçdı.*

*Laylasında dinlədi,*
*Toğrul qəhrəmanlığı.*
*Min əzabla yaşadı*
*Həyatda cavanlığı.*

*Beşiyində duyduğu,*
*Hər kəlmədən güc aldı.*
*Toğrul da qəhrəmantək,*
*Ağdamda izin saldı.*

*İndi ürəklərdədir,*
*Sürəddin, Toğrul ismi.*
*Bu torpağa qarışıb,*
*Şəhidlərimin cismi.*

*24.09.2022*



## QARDAŞ YADİGARI

"Torpaq o vaxt vətən olur ki, uğrunda qan tökülür."

*Bəzən bir cümlə kifayət edir ki, qarşındakı insanın mənəvi duyğularını anlayasan. Şəhidin bütün ömür yolunu həmin cümlə izah edir. Çünki o şəhid göz açandan "Vətən" kəlməsini sevgi və həsrətlə bərabər duydu. Elə o kəlmələr onu kiçik yaşlarında böyütdü. Daxilində zəbt etdiyi uşaqlığını nə baxışına, nə də davranışına yansıtmadı. Çünki o varlıq içində "Yox" sözünün izahını dərk edirdi. Ancaq Toğrul öz duyğularını çox vaxt dilə gətirmirdi.*

**Toğrul Məmmədovun əmisi Eyvaz Məmmədov:**

– Toğrul qardaşımın gecikən sevinc payı idi. O, dünyaya gəlişi ilə hər birimizin ümid çırağını yandırdı. Toğrul ilə bərabər qardaşımın üzünün güldüyünə şahid olduq. Qardaşım Səyyad müəllimlə Toğrulun arasındakı münasibət ata-bala münasibətindən daha dərin bir münasibət idi. Onlar həm də dost kimi idilər. Nə zaman bir xeyir-şər olsa Səyyad müəllim Toğrulu da özü ilə bərabər aparırdı. Toğrulun oturub-durduğu insanlar böyüklər idi. Bilmirəm, Toğrulun böyük kimi davranmağının səbəbi o idi, yoxsa elə Allah böyük kimi yaratmışdı.

Tay-tuşlarından seçilən Toğrul atdığı hər addımda seçilirdi. Elə hərbçi peşəsini seçməklə də o seçildi. Ancaq biz bilməzdik ki, zaman gələcək Toğrul şəhid kimi də seçiləcək.

Toğrulla bağlı çox xatirələrim var. Ən çox xatirələri Toğrulun kursant illərində biriktirmişdik. Bakıda yaşadığımız üçün o, çox zaman şənbə-bazar günləri bizə gəlirdi. Toğrul bizə gələndə evimizin sevinci artırdı.



Toğrul cəfakeş insan idi. Az yaşı olmağına baxmayaraq çox zəhmət çəkdi. Ata-anasını zamansız itirdi. Bacı-qardaşının qayğısını çəkdi. Bu qədər qayğı yetməzmiş kimi bir də vətənin cəfasını çəkdi. Qüdrəti ilə dildən-dilə düşdü. Bir vaxtlar ailəmizin fəxri idi, zaman gəldi bütün xalqın fəxr etdiyi bir qəhrəman oldu.

*Bu ana qədər göz yaşlarımızı ürəyimizdə ram etməyi bacarsaq da, Eyvaz müəllimin yanağında cığır açan göz yaşı mənim də göz yaşlarıma səbəb oldu. Şəhid ömrünü səhifələmək asan deyil. O ömrün hər səhifəsinə göz yaşları nöqtə qoyur.*



# ƏZMLİ TOĞRUL

*Bilirəm ürəyində
Kədər, qəmin çox oldu.
Neçə-neçə arzular,
Sənin kimi tez soldu.*

*Qorxu nədir bilmədin,
Əzmindən vermədin pay.
Aprel döyüşlərində
Saldın igidtək haray.*

*Kim bilir ürəyində,
Nə apardın özünlə?
Səngərdə yer dəyişdi,
Gecələr gündüzünlə.*

*Qarabağa can atdın
Ağlın kəsən ilk gündən.
Deyirdin, "Qurtaracam
Qarabağı sürgündən."*

*Bircə amal uğrunda
Bütün arzundan keçdin.
Bütün yollar bir yana,
Sən şəhadəti seçdin.*

*24.09.2022*

# "ANASINI SEVƏN VƏTƏNİNİ DƏ SEVİR"

*Yaxşı insanların varlığının bəxş etdiyi sevinc boyda olar yoxluğunun kədəri. Bir tutam ümid axtararsan o ötən günlərin xatirələri arasında. Ancaq nafilə. Xatirəyə dönən ötən günlər dönüşü olmayanın xəyallarda çəkdiyi həsrət əsəridir. Bir zamanlar yaşanılarkən sevinc duyğusu hiss olunan o xəyallar daha intizarla sezilir. O boşluq heç zaman dolmur.*

**Toğrul Məmmədovun əmisinin yoldaşı Arzu xanım:**

– Toğrul haqqında danışmaq mənim üçün həm çətin, həm də qürurvericidir. Hər kəsin qəlbinə adını yazan Toğrulun adı mənim də qəlbimdə həkk olunub.

Azərbaycandan kənarda yaşadığımız üçün Toğrulun dünyaya gəldiyi günün şahidi olmadım. O, altıaylıq olanda mən vətənə gəldim. İlk dəfə Toğrulu qucağıma alanda baxışlarının dərinliyində gizlənən duyğuları sezdim. Altıaylıq körpənin gözlərindəki bu qəribə hüzn məni həm düşündürür, həm də qorxudurdu. Sanki yaşayacağı həyat baxışlarına yansımışdı. Həyatın ağır imtahanları onun gözlərindən oxunurdu.

Toğrul qorxmaz biri idi. Nə gecənin zülməti, nə də səssizliyi onu qorxutmurdu. Körpə olsa da, qorxusuz idi. Məğlubiyyəti heç sevmirdi. Tay-tuşları ilə güləşdikdə əgər məğlub olardısa, qalibiyyət qazanacağı ana qədər mübarizə aparırdı. Ancaq böyüdükcə həyat onu sərt sınaqlarla daha çox imtahan etdi. O itkisinin böyüklüyündən asılı olmayaraq məğlub olmadı. Ən böyük qalibiyyəti isə Aprel döyüşlərində bir qisim torpaqlarımızı azad etməyi oldu. Toğrul bütün həyatını, gəncliyini o azadlığı qazanmaq üçün fəda etdi.



Toğrul ilə ən çox o, AAHM-də oxuduğu illərdə zaman keçirmişik. İstirahət günləri bizə gəldiyində bizim uşaqlara böyük qardaş kimi həyat dərsi keçirdi. Ən çox da Əlitahirə məsləhətlər verirdi. İstəyirdi ki, bütün uşaqlar öz ayaqları üstündə dura bilsinlər. Hər zaman mənə deyirdi:

***– Bibi, Əlitahirin nazı ilə çox oynama. O gələcəyin əsgəridir. Qoy kişi kimi böyüsün. Qorxmaz böyüməlidir ki, sabah düşmənlə üz-üzə gələndə düşmənə layiqli cavab verə bilsin.***

Toğrulun həyatı çox keşməkeşli oldu. Gənc yaşında qaraya büründü. Ana, ata itkisindən sonra ruhən qocaldı. Toğrul atasını itirdikdən sonra oğul dərdinə dözməyən nənəsi Xatın xanımın ölümü ilə təkrar sarsıldı. Ard-arda gedişlər hər kəsin ürəyində bir iz qoydu. Toğrul acısını bəlli etməməyə çalışsa da, həm baxışlarından, həm də geyimlərindən duyğuları bəlli idi. Hər dəfə deyəndə ki, "Gəncsən, bu qara geyimlərdən çıx, rəngli geyimlər geyin". Deyirdi ***"Hansı günümə? Qaranı Allah mənə yaraşdırıb."*** Son dönəmlərdə israrımızla yeni-yeni, açıqrəngli geyimlər geyinməyə başlamışdı. Ancaq gedişi ilə bizi qaraya bürüdü.

Allaha çox bağlı biri idi. Nə qədər acı çəksə də, mərhəmətindən ödünc verməmişdi. Hər zaman böyüklük etməyi bacaran Toğrul səngərdə əsgərlərinə də bir komandir olmaqla yanaşı, həm də bir ata qayğısı göstərirdi. Bayramlarda bizə gələndə boğazından yemək keçmirdi. Deyirdi ***"Mən payımı aparıb əsgərlərimlə bərabər yeyəcəm. Çünki elə əsgərlər var ki, kimsəsizdilər."***

Anasını çox sevirdi. Elə vətən sevgisinin təməli də ana sevgisi idi. Çünki anasını sevənlər vətənini də çox sevirlər. Toğrul nə anasından, nə də atasından doymadı. O, sevdiklərinin sevinmələri, xoşbəxt olmaları üçün hər zaman çalışdı. Sevdiklərinin bir təbəssümü onun üçün dünyaya bərabər idi. Sevdiyi qədər də hər kəs tərəfindən sevilirdi. Ancaq həyat



onun sevdiklərini bir-bir əlindən aldı və sonda Toğrulu da bizdən aldı.

Toğrulun anası Nazilə xanım dünyasını dəyişəndə o, Bakıda kursant idi. Mən Toğrula nənəsinin rəhmətə getdiyini dedim. Bilirdim ki, Toğrul anasının rəhmətə getdiyini bilsə təyyarə Naxçıvana çatana qədər ürəyi dözməyəcək. Həyətə çatanda Toğrul dünyasını dəyişənin nənəsi yox anası olduğunu öyrənən anda çöküb qaldı. Onu elə görmək çox ağır idi. Ancaq Toğrul güclü olmaq məcburiyyətində idi. Çünki ondan kiçik Şəbnəm və Üzeyir var idi. Onlar üçün ayaqda qalmalı idi. Elə də etdi. Nə anasını, nə də atasını itirdikdən sonra acıya təslim olmadı. Ancaq biz Toğrul qədər güclü ola bilmədik. Toğrul şəhid olandan sonra biz acıya təslim olduq.



## SEVİNCƏ HƏSRƏT ÖYKÜ

*Bir ananı çox sevirdin,*
*Bir də ki ana vətəni.*
*Anan ana vətəninin*
*Qoynunda oxşadı səni.*

*Heç dərmədin eşq bağından*
*Yar adında qönçə çiçək.*
*Sənlə bağlanan arzular*
*Qopub düşdü ləçək-ləçək.*

*Ömrünün cavan çağında*
*Ruhun ahıl, qoca idi.*
*Sən bilmədin cavanlığın*
*Xoşbəxt anı necə idi.*

*Ürəyinə kədər yığdın,*
*Kürəyinə həyat yükü.*
*Düşdü sənin bəxt payına*
*Sevincə həsrət bir öykü.*

*Həyatına yazılmışdı*
*Həsrət, vida bir nidatək.*
*Toğrul, necə nakam ömrün*
*Həsrətini çəkdi ürək.*



*Ancaq vətən həsrətinə,*
*Qalmadı qəlbin təpəri.*
*İllər sonra sənin kimi*
*İgidlər daddı zəfəri.*

*Heç çox uzun da çəkmədi*
*Yaşanılan sevincimiz.*
*Sən də torpağın köksünə*
*Şəhid kimi saldın bir iz.*

*25.09.2022*



# QAZİNİN ŞƏHİD HƏSRƏTİ

*Vətəni ən gözəl izah edəcək şəxslər qazilərdir. Qazi kimdir? Vətənlə bütövləşən, vətən sevgisi ilə aliləşən, bütün sevgiləri vətən sevgisinə dəyişəndir qazi. Yuxusunda bitməyən müharibənin əbədi əsgəridir. İllər ötsə də, o yuxular dəyişməz olaraq qalır. Bəzən o yuxularda bir şəhidi yaşatmağa çalışır, bəzən isə özü şəhid olur. Ancaq o yuxular gerçək həyatda yaşanılırmış kimi hiss olunur. Çünki bir dəfə müharibədə olmaq son nəfəsinə qədər müharibənin izini daşımaq üçün kifayət edir. Bu dəfə Toğrulu soraq aldığım şəxsin özünün bir canlı şəhid olduğunu eşitdiyimdə bu söhbətin də hara varacağından xəbərdar idim.*

**Toğrulun qohumu qazi Məmmədov Vəliyyəddin Cəfər oğlu:**

– Biz vətənə ruhumuzla sevdalanmışıq. Cismimizin vətən üçün fəda olmağı bizim ən böyük arzumuz olur. Mən Toğrulu ruhən özümə çox yaxın bilirdim. Onun da gözlərindən qorxmazlığı hiss olunurdu.

Mən müharibə sözünün mənasını yaşayaraq dərk edənlərdənəm. Ömür yolum çox qanlı savaşlardan keçib. Naxçıvanın düşmən hədəfində olduğu zaman, demək olar ki, hər mübarizəyə qatılmışam. Əmim oğlu Sürəddinlə bərabər vətən keşiyini çəkirdik. Mən bilirəm döyüş yoldaşının gözlərinin önündə düşmən atəşinə tuş gəlməsinin nə demək olduğunu. Mən bilirəm yaşatmağa çalışdığın döyüş yoldaşının qollarında can verməsinin acısını. Bir də o döyüş yoldaşın öz əmin oğludursa, uşaqlıq dostundursa, sirdaşındırsa, çəkdiyin acı birə min olur.

Ağdam rayonu uğrunda gedən döyüşlərdə iştirak etdiyimdə düşünməzdim ki, bir gün Toğrul ilə məni o rayonun



Baş Qərvənd kəndi başqa bir bağ ilə doğmalaşdırar. Mən uzun müddət Ağdam rayonunun müdafiəsinə qalxsam da, 1994-cü ilin may ayında Baş Qərvənd kəndi yaxınlığında düşmən atəşinə tuş gəldim. Ağır yaralandığım üçün döyüş yolum orada tamamlandı. Mən qazi kimi Naxçıvana döndüyümdə Toğrulun 6 yaşı var idi. Hələ məktəbə də getmirdi. Ancaq ən böyük məktəb olan Həyat məktəbinin qəhrəmanlarından böyük dərs aldı.

Hər zaman söhbətimiz vətənlə bağlı olardı. Bir də düşmənlərimizin kimliyi və necəliyindən danışardıq. Mən hər zaman ermənilərin fitnə-fəsadla yoğrulub, çaqqal kimi doğulduqlarını dilə gətirirəm. Çünki onlar mənəviyyat baxımından çox kasıbdırlar. Həyatda bacara bildikləri tək şey pislikdir. Onların azərbaycanlılara qarşı etdikləri zorakılığın, işğalın izi heç zaman tarixdən silinməz. Ona görə də biz tarix boyu yaşadıqlarımızı unutmamalı və unutdurmamalıyıq.



Toğrulun xidmət etdiyi Ağdam rayonunun, demək olar ki, hər kəndində mübarizə aparmışdım. Bəzi ərazilər isə düşmən tapdağı altında idi. Toğrul hər Naxçıvana gələndə mənim yanıma gəldiyində ***"O torpaqları azad edəcəyik. Sənin və o torpaqlara damlayan hər damla qanın qisasını alacağıq"*** deyirdi. Hər zaman verdiyi sözü tutan Toğrul o sözünü də tutdu. İllərdən sonra vətəni azadlıq nuruna qərq etdi. Həmin döyüşün şahidi olsa da, cəmi bir neçə ay sonra şəhidlik zirvəsinə ucaldı.

Heç unutmuram o günü, o gecəni. "Toğrul yaralanıb" sözlərini duyanda sanki biranlıq keçmişə döndüm. Yaşadıqlarım lent kimi xəyalımdan keçdi. Toğrulun nəfəsi üstündə olduğu üçün şükür etdim. Ancaq qısa zaman sonra "Toğrul şəhid olub" sözləri ilə sanki yüksəklikdən boşluğa yuvarlandım. Mən hələ də o anlar barəsində danışa bilmirəm.

*Qəhərdən titrəyən səs və yarımçıq cümlələr o anları izah edirdi.*





# QAZİ

*Vətənə ürəkdən sevdalananlar*
*Vətənçün yaşayır, vətənçün ölür.*
*Kimi öz cismində bir iz daşıyır,*
*Kimi də ömrünü vətənlə bölür.*

*Bir yolun yolçusu olan oğullar*
*Ya qazi olurlar, ya da ki şəhid.*
*Şəhadət yolundan dönən qazilər*
*Neçə son nəfəsə olurlar şəhid.*

*Qazinin qəlbində olan yaranın*
*Nə əlacı olur, nə bir məlhəmi.*
*Müqəddəs sayılan şəhid məzarı*
*Olur qazilərin sirdaş, həmdəmi.*

*Vətən qazilərin kəm qalan yanı,*
*Vətən qazilərə canlı məzardı.*
*Qolları, gözləri vətən olana*
*Vətən nakam qalan xoş arzulardı.*

*26.09.2022*

# UŞAQLIĞIN İZİ İLƏ...

*Ən böyük arzular uşaqların xatirələrində iz salır. O iz heç zaman silinmir. Həyatın yıxa-yıxa yeritdiyi uşaqların xəyallarının yıxılması, puç olması ən dözülməz ağrı olur. Bir zamanlar uşaqlığın ən gözəl anlarını yaşayanlar üçün uşaqlıq dostunu itirmək ən gözəl xatirələrinin sevincini itirmək demək olur. Yaşanarkən ən gözəl hisslərin yaşandığı o xatirələr xatırlanarkən həsrət duyğusuna yelkən açır. Gedənlərin izləri qalanların bu dünyadakı sınaqları olur. Bu dünyada Toğrulsuzluqla sınanan insanların sayı çoxdur. Onlardan biri də Ömər Məmmədovdur.*

**Toğrulun uşaqlıq dostu Məmmədov Ömər Çölbəyi oğlu:**

Toğrul mənə dost, qardaş, ailə üzvü idi. Biz eyni ildə dünyaya göz açmışıq. Həyatı dərk edəndən ailələrimizin doğmalıq münasibətinə şahid olmuşuq. Bu doğmalığın təməlində valideynlərimizin həm dostluğu, həm də kirvəlik münasibətləri dururdu. Bu münasibətlərlə yanaşı analarımızın iş yoldaşı olmaları da bizim dostluğumuzun təməlinin möhkəm olmasına təkan idi. Ancaq bütün bunlarla yanaşı, Toğrulun insani keyfiyyətlərinin zəngin olması bizim dostluq bağımızı qopmaz etmişdi.

Toğrul hər kəsə qarşı qayğıkeşliyi ilə seçilirdi. Əsl dost dostunu heç zaman darda qoymaz. O da heç zaman dostlarını darda qoymazdı. Özünü fəda etmək Toğrulun daxilində tüğyan edən özünəməxsus duyğu idi. Dost yolunda candan keçən biri kimi qəlbimi fəth edən əziz dostum vətən yolunda canını fəda edərək bütün xalqın qəlbini fəth etdi.

Həyatımın ən gözəl xatirələri Toğrulla ötən zamanlarda iz salıb. İstər Bakıda yaşadığım müddətdə, istərsə də Naxçıvanda olduğum müddətdə Toğrul sədaqətli dost olduğunu





hər zaman hiss etdirirdi. Aradığı ilk insanlardan biri olurdum. Aramızda keçən bir dialoqu heç unutmuram.

Anam Toğrulu məndən seçməzdi. Bir dəfə anam Toğrula daha ailə qurmağı barəsində bir qərar verməsini dedi. Toğrul başını aşağı dikdi. Həmin gecə Toğrul mənə zəng edib evdən kənarda görüşməyimizi dedi. İlk dəfə Toğrul dilə gəlib bu sözləri dedi:

***– Ömər, mən başa düşürəm ki, siz məni düşünüb ailə qurmağımı istəyirsiniz. Ancaq mənim iki gözü yolda qalanım (Şəbnəm və Üzeyir) var. Mən başqa birini də gözü yolda, gözüyaşlı qoya bilmərəm. Onsuz da mənim ömrüm çox qısadır.***

Bütün arzuları doğmaları ilə bağlı idi. Qəlbində arzuları var idi. Bir arzusu atasının tikib başa çıxara bilmədiyi evlərinin pilləkənlərini atasının arzuladığı kimi düzəltmək (o arzuya çatdı), digər arzusu isə Üzeyirə maşın almaq (o arzuya çatmadı) idi. Ən böyük arzusu isə vətənin azadlığı idi.

Şəhadətindən bir saat öncə Toğrula mesaj yazdım. Sanki hiss edirdim. Narahatlığımı dilə gətirdiyimdə ***"Hər şey yaxşıdır, narahat olma"*** dedi. Ancaq o hisslərim məni yanıltmadı. Kaş ki yanılardım...

Həyatda elə insanlar var ki, cismani itirirsən. Ruhən hər zaman yanımda hiss etdiyim əziz dostumu cismən görməmək mənə çox ağır gəlir. Mən Toğrulun bir məzara döndüyünü qəbul edə bilmirəm. Candan əziz dostumun məzar evini ziyarət etmək mənim ürəyimin daşımaqda aciz qaldığı ən ağır dərddir. Bir zamanlar kölgəsi üzərimdə olan dostumun indi məzarına əksim düşür.

Mənim Toğrul adlı iki dost dayağım var idi. Biri sağ gözüm idi, biri sol gözüm. Biri havam idi, biri suyum. İndi sanki həm sağ gözümü itirmişəm, həm də susuz qalmışam. "Toğrul" deyəndə ağzımda dilim çat-çat olur.





## ƏZİZ DOST

*Talandı dost adlı könül sarayım*
*Qopan xatirələr qəlbi qanatdı.*
*Dostun şəhadəti, dostun gedişi*
*Qəlbimdə elə bil vulkan oyatdı.*

*Görən kim qarğadı, kim ahın çəkdi,*
*Bəhrəsi xatirə olan dostluğa?*
*Varlığı dayağım olan dostumun*
*Yoxluğu çevrilib qəlbimdə dağa.*

*Bir vaxt yıxılanda əlimdən tutan,*
*Əziz dost, yoxluğun hey yıxır məni.*
*Hər gün təkrar-təkrar xatırlayıram*
*Mənə söylədiyin sözü, kəlməni.*

*Səndən bir şəkillər, bir də xəyallar,*
*Bir də buza dönən məzar evin var.*
*Əziz dost, ömrünə heç yetişmədi*
*Arzu pöhrələyən çiçəkli bahar.*

*13.10.2022*

# DOST GEDİŞİN QƏBUL ETMƏYƏN DOST

*Kim deyir ki, kişilər ağlamaz? Həyatda dost adlı dayağını itirən biri necə ağlamaya bilər? Bütün arzuların təməlində duran, ən xoş və ən kədərli gündə ümidi olan dostu itirən biri göz yaşlarını yanağına axıtmasa da, mütləq ürəyinə axıdar. Bir də hər dəfə onu "Toğrul" deyə səsləyərlərsə, ürəyini bürüyən həsrət alovu heç səngiməz. Çünki onları bir zamanlar "Adaş dostlar" deyə çağırırdılar. İndi isə biri var, biri yoxdur. Toğrul Toğrulsuz kəm qalıb. Daha onu tamamlayan bir Toğrul yoxdur.*

*Toğrulun yoxluğunun acısını ən çox çəkənlərdən biridir Toğrul. Çünki uşaqlıq dostunu, I sinifdən IX sinfə qədər birlikdə oxuduğu sinif yoldaşını və heç zaman yeri dolmayacaq bir insanı itirib. Elə o itkinin böyüklüyü idi ki, Toğrulun adaşı Toğrul ilə iki dəfə danışmağa cəhd etsək də, hıçqırıqlar danışığımızı yarıda saxlamağa məcbur etdi. Ancaq bu qanayan yaraya duz basan söhbətimiz ertəsi gün baş tutdu.*

**Toğrulun sinif yoldaşı Hacıyev Toğrul Rahət oğlu:**

– Toğrul mənim üçün izah edilə bilməyəcək qədər dəyər sahibidir. Mən günlərlə onun haqqında məlumat versəm, yenə də nə onlu günlərimi, nə də onsuz günlərimi izah edə bilmərəm. Ailələrimizin gözəl münasibətləri, analarımızım bir yerdə işləməsi bizim lap körpəlikdən həyatda qoşa addımlamağımıza səbəb oldu. Uşaqlıq dostu olduğum Toğrulla bir də sinif yoldaşı olmağımız bizim dostluq bağımızı daha da möhkəmləndirdi. Mənim nümunə götürəcəyim yeganə yaşıdım Toğrul idi. Çünki o insan yaşından on yaş böyük düşünürdü. Hər kəsin qayğısını çəkirdi. Mənimlə yaşıd olsa da, bir böyük qardaş kimi mənim qeydimə qalırdı. Elə ona görə də hər kəs bizi qardaş bilirdi. İkimizin də adımızın Toğrul olması insanlarda "İki qardaşın adı necə eyni ola bilər?" sualını doğururdu.



Toğrul çox prinsipial, dəqiq və qərəzsiz bir insan idi. Heç kimə öz dərdini deməz, hər kəsin dərdini isə öz dərdi bilərdi. Öz ömrünü doğmaları üçün fəda etməyi heç kimə sirr deyildi. Lakin bir dəfə də olsun, o, "Uf" deməzdi. Boyunu, yaşını aşan həyat yükünü yumruq boyda ürəyində daşıyardı. Bacı və qardaşının rahatlığı üçün gecə-gündüz çalışardı. Toğrul bilirdi ki, ona doğru uzanan iki insanın əli var. O əlləri həm qardaş, həm də valideyn kimi tutmalı idi.

Son dəfə iyulun 13-də Toğrulla Bakı şəhərində hər zaman görüşdüyümüz məkanda görüşdük. Mənə nə isə demək istədiyi bəlli idi. Bir qədər sonra ***"Mən Ağdama qayıtdım"*** dedi. Həmin an sanki ürəyimdən bir tel qopdu. Dəfələrlə mən onu bu fikrindən daşındırmağa çalışmışdım. Ancaq bu dəfə Toğrul mənə demədən bu addımı atmışdı. Aprel döyüşlərində od-alovun içindən çıxan qəhrəman qardaşım yenə də vətənə sipər olmaq üçün düşmənin biraddımlığına getmişdi. Əbəs deyildi ki, ona "Şir" ləqəbinin verilməsi. Beləcə o qorxmazlığını, cəsarətini bir daha gözlər önünə sərdi.

Heç unutmuram Toğrulu bağrıma basdığım o son görüşümüzü. Sanki ürəyimə damdı. Toğrulu qucaqladığımda ürəyimdən "Toğrul, bu bizim son görüşümüzdü, bir də səni görə bilməyəcəm" sözləri keçdi. O vidanın ağırlığı ürəyimə endi. Büruzə verməməyə çalışdım. O gecə mən evimə, Toğrul vətənə sarı getdi. Ertəsi gün Toğrulun və mənim ən yaxın dostumuz Ömərdən gələn zənglə qəlbimə xəncər kimi saplanan o xəbəri eşitdim. Lakin inanmadım, inanmaq istəmədim. Axı axşam Toğrulla birlikdə idik. Bu xəbərin yalan olması üçün Toğrulun iş yoldaşlarına zəng etdim. Xəbəri doğrulayan hər kəs ümidlərimin qatilinə çevrildi. "Belə bir məlumat eşitmişik" deyən hər kəsə nifrət etdim. "Ola bilməz" deyə haykırtım sanki qulaqlarımı batırırdı. Ancaq oldu. Hava limanında bayrağa bürünmüş tabutu gördüyüm an susdum. Bütün duyğularım susdu. Bir gün öncə gecə boynuna sarıldığım dostumun, qardaşımın tabutunu oxşadım. Heç bilmirəm



mən o an əllərimi o tabutun üzərinə necə qoya bildim? Bir anda geri çəkildim və Toğrulun yoxluğu ilə barışmadım. Mənim dostumu torpağa qoymaqları ilə nə o gün, nə də bu gün barışmamışam. Heç bilmirəm Toğrulun 40-ı günü mən onun yas mağarında necə oturdum. Axı bizim arzumuz o deyildi. Axı biz Toğrulun toy mağarın bəzəyəcəkdik. Olmadı, bütün arzularımız Toğrulun ömrü kimi yarımçıq qaldı. Bu həyatın mənə bəxş etdiyi ən böyük varlıq Toğrul idi. Bu həyatın məndən aldığı ən böyük varlıq da Toğrul oldu.

Mən son nəfəsimə qədər Toğrula "öldü" demərəm. Heç zaman mən Toğrulun məzarda olduğunu qəbul etmərəm. Doğmalarım o məzarlıqda dəfn olunublar. Mən o məzarlığa gedəndə yol dəyişirəm ki, dostumu daş məzarda görməyim. Mənim qardaşımın, sirdaşımın, dostumun evinin məzar olduğu mənim qəbul edə biləcəyim bir gerçək deyil.

Mən hələ də Toğrulu gözləyirəm. Bir gün mənə zəng edib ***"Toğrul, gəl İzmir parkına"*** deyəcək. Bir gün mən Toğrulla görüşəcəm ümidi ilə yaşayıram. Bir gün mütləq görüşəcəm, bu dünyada olmasa da, əbədi dünyada...



## ADAŞ DOSTLAR

*"Kişilər ağlamaz" kim demiş bunu?*
*Dostu daş olanın göz yaşı dinməz.*
*Bir zaman dostuna qucaq açanlar*
*Dostu gedən gündən sevinib, gülməz.*

*Sınıq aynalartək sınan ümidlər*
*"Dost" sözün duyanda ruhu qanadar.*
*Adını daşıyan bir dost itirmək*
*Səni öz adından belə soyudar.*

*Yanaqdan süzülən kədər göz yaşı*
*Ən qəmli tablonu yanağa çizir.*
*Min dostun, yoldaşın arasında da*
*Toğrul adaşını axtarır, gəzir.*

*Məzarda həkk olan Toğrul ismini*
*Qəbul eləməyən dost qəlbi yanır.*
*Dünyadan cismani köçən, şəhidim,*
*Dostların adını hər zaman anır.*

*13.10.2022*

# DOSTUN DOST İZTİRABI

*Hər insan bütün xəyallarda yalnız xoş xatirələrlə iz qoymaq iqtidarında deyil. Yalnız Allahın sevdiyi bəndələr bu özəlliyi ilə seçilirlər. Mən şəhadətindən sonra tanıyıb heyran olduğum Toğrul Məmmədovu hər xəbər aldığım insanın fikirlərindən sonra ona daha çox heyran oldum. Toğrul Məmmədov haqqında deyilən hər bir fikir mənə insanlığı daha çox sevdirdi. Bir insanın bütün xatirələrdə xoş anılara səbəb olması bir insanın qazana biləcəyi böyük dəyərdir. Əslində isə, o dəyəri insanlıq, vətən, torpaq və xalq qazanıb.*

**Toğrulun uşaqlıq dostu Elvin Cəfərov:**

Dost qaranlıqda işıq kimi görünəndir, sabaha ümiddir, ən gözəl arzudur. Dünənlərin ən xoş xatirəsidir dost. Ən dəyərli sərvət, ən böyük izzətdir dost. Varlığı qüdrətimiz, yoxluğu həsrətimizdir. Toğrul mənim üçün ən gözəl dəyərlərin özü idi.

Qayğısız uşaqlıq illərimiz birlikdə keçib. IX sinifdə oxuyarkən Toğrul vətən qayğısını çəkməyə qərar verdi. Ondan sonra əvvəlki kimi tez-tez görüşə bilmirdik. Ancaq həftəsonları, sonralar isə məzuniyyət zamanı görüşə bilirdik. Toğrulun bütün dostları kimi mənim də ürəyimdə yeri dolmayacaq.

Toğrul ilə son dəfə görüşdüyümüzdə əvvəlkindən çox fərqli davranış sərgiləyirdi. Heç zaman etmədiklərini edirdi. Qanlı müharibədən şahid kimi çıxan Toğrulun düşmənə olan nifrəti daha da çoxalmışdı. Həyatda tək məqsədi vətənin azadlığı uğrunda can alıb, can vermək və şəhidlərin qisasını almaq idi. Şəhadətindən bir neçə gün öncə Naxçıvana gəldiyi zaman mənə və digər dostumuz Ömərə iftar süfrəsi təşkil



etmişdi. Süfrə arxasında əyləşəndən dilə gətirdiyi hər kəlmə vətənlə bağlı oldu. Sanki tələsirdi. Məzuniyyətdə olsa da, telefon vasitəsilə işini nəzarətdə saxlayırdı. Hər addımı məsuliyyətindən və işindəki ciddiyyətindən xəbər verirdi. Biz o gün təxmin etməzdik ki, cəmi bir neçə gün sonra Toğrul Naxçıvana şəhid kimi dönəcək.

Toğrulun şəhid olduğu xəbərini eşitdiyim o səhəri heç zaman unutmayacam. Həyatda görmək istəmədiyim mənzərə ilə qarşı-qarşıya qaldığım o an mənim dost adlı sarayım viran oldu. Bilirsiniz dost məzarı nə deməkdir? Bitməyən iztirab...



## DOSTLUĞUN İZAHI

*Səndən gəlməyəcək nə bu dünyaya,*
*Nə də ürəyimə, əvəzsiz adam.*
*Sənin bu dünyadan köçdüyün gündən*
*Mən də bu dünyaya ögeyəm, yadam.*

*Desələr, "Dostluğu kəlmələrə düz".*
*Adını yazardım izah əvəzi.*
*Sənin izahını verə bilmərəm,*
*Nə qədər düzsəm də kəlməni, sözü.*

*Mənim qəhrəmanım, mənim şəhidim,*
*Sən adlı miras var torpaq altında.*
*Şəhidtək vətənə can verdiyinçün,*
*Toğrul, cənnətdəsən Allah qatında.*

*16.10.2022*



# VƏTƏN SEVGİSİNİN ZƏRGƏRİ

"İşğaldan azad olunmuş ərazilərdə yerləşən ən yüksək zirvələrdən birində "Şəhid Anası" heykəli ucaldılmalıdır."

*Bu fikri duyduğum an gözlərim doldu. Heç bilmədim, bu sözlərin qarşısında nə deyim. Hiss edirdim ki, cümlələrim bir-birinə dolaşır. O an xəyalımda uca zirvədə həmin Şəhid anası heykəlini canlandırdım. Bir tərəfdən də xəyallarımda o anaların vətənə bəxş etdiyi qəhrəman oğullar biri-birini əvəzləyirdi. Elə bu fikri dilə gətirən də bir qəhrəman ananın vətənə bəxş etdiyi qəhrəman oğul general-mayor Rasim Əliyev idi. Bu cümləni duyduğumda neçə-neçə Vətən Fədaisinin kimdən dərs aldığı, nümunə götürdüyü bəlli oldu.*

**1998-ci ildən Cəmşid Naxçıvanski adına Hərbi məktəbin Naxçıvandakı filialının rəisi olaraq fəaliyyətə başlayan, 2004-cü ildən 2014-cü ilə qədər isə Heydər Əliyev adına Hərbi Liseydə rəis vəzifəsini icra edən general-mayor Əliyev Rasim Məmmədəli oğlu:**

– Mənim üçün hər bir kursantımdan danışmaq qürurvericidir. Analarının köksündən qopan, hələ həyatın çətin sınaqlarından tam xəbərdar olmayan o gənc kursantların hər biri geyindikləri mundiri kəfən biliblər. Yollarının dönməzliyi gerçəyi ilə də elə o qərarı verdikləri gün barışıblar. 14–15 yaşlı zabitlərin bu əzmi məni hər zaman qürurlandırır. O əzmkar kursantlardan biri də Toğrul Məmmədov idi. Uca boyu, şux qaməti, kəsərli sözü əsl zabit görüntüsünü tamamlayırdı. Hər bir müəlliminə, kursant yoldaşına əziz olduğu kimi mənə də əziz idi. Ümumiyyətlə, mənim üçün bütün kursantlar bir övlad qədər əziz idilər. Axı onlar vətən övladları, vətən sevdalıları idilər. Vətəni sevmədən vətənə fəda olmaq olmaz. Vətən sevgisi də hər ürəyin qəlibinə sığışmaz.



Mən bu gün deyə bilərəm ki, Qarabağın azadlığı uğrunda can verən neçə-neçə qəhrəmanın vətən sevgisinin cilalanmasında mənim rolum var. İllərdi ki, vətən səngərinə uzanan döyüş yolu Hərbi Liseydən başlayan çox qəhrəmanın yolu şəhadət zirvəsinə çatıb. Toğrul Məmmədov da o qəhrəmanlardan biridir. Toğrulun ən öndə arzusu vətəni düşmən pəncəsindən xilas etmək idi. Ancaq təssüf edirəm ki, Toğrul Şuşanın, Kəlbəcərin, Ağdamın azadlığına şahid ola bilmədi. Təsəllim isə elə o torpaqlara ilk cığır açanlardan birinin Toğrul olmasıdır.

44 günlük Vətən müharibəsində qəhrəman oğullar Toğrul və onun kimi şəhidlərin qisasını aldılar. Müharibə başlayan ilk andan ön cəbhədə idim. Briqada komandirlərinin, polkovniklərin, ön cəbhədə döyüş tapşırığını yerinə yetirən bir çox zabitlərin bir zamanlar 14 yaşı olan kursantlar olduğunu düşünərək qürur duyurdum. Azad olunan hər rayondan mənə zəng edib müjdə verən hərbçilər mənə təşəkkür edən zaman onlarla qürur duyduğumu deyirdim. Mən rəşadətli, yenilməz, qalib Azərbaycan Ordusu ilə qürur duyuram. Mən vətənimin azadlığına töhfə verən hər bir zabitə, qaziyə, şəhidə təşəkkür edirəm. Mən o qəhrəman oğulları dünyaya gətirən analara təşəkkür edirəm. O qəhrəman oğulları o qəhrəman analar dünyaya gətirdi, böyütdü və vətənə yetirdilər. Şəhid anası adına layiq olan hər bir ana özü də şəhid sayılır. Çünki o anaların övladlı arzuları şəhid olur. Elə ona görə də bayaq dediyim kimi azad olunan torpaqlardakı ən uca zirvədə "Şəhid Anası" heykəli ucaldılmalıdır.

Vətənpərvərlik vicdanla vətənə xidmət etmək deməkdir. Vətənə vicdanla xidmət edən hər bir vətəndaş vətən keşikçisidir. Şərt deyil ki, hərbi forma geyinib səngərdə olasan. Şərt odur ki, öz peşəni vicdanla yerinə yetirib vətənin, xalqın xidmətində durasan.

## HEYKƏL QOYUN ANALARA

*Heykəl qoyun bu vətənə oğul verən analara,*
*Loğman tapın anaların qəlbindəki yaralara,*
*Allah açıb göyün üzün ovuc-ovuc dualara,*
*Bu dünyadan o dünyaya şəhid oğullar yol açıb,*
*Anaların övladların daha ana torpaq qucub.*

*Viran olan torpaqlara bənzəyir ana ürəyi,*
*Qəhrəmanlar qoymadılar yerə çırpılsın kürəyi,*
*Anaların oğulları oldular vətən köməyi,*
*Parça-parça ümidlərdən azadlığı toxudular,*
*İllər sonra Qarabağda "Vətən marşı" oxudular.*

*Əsgəri də, zabiti də düzüldülər düzüm-düzüm,*
*Gah sevincdən, gah kədərdən bulud kimi doldu gözüm,*
*Hər şəhidin, hər qazinin anasına budur sözüm,*
*"Sizi qəhrəman bilirik, qəhrəmanların anası,*
*Şəhadətlə müjdələnməz hər bir ananın balası."*

*27.10.2022*



## ANATƏK DOĞMA MÜƏLLİMƏ

*İnsan elə varlıqdır ki, hər zaman qayğıya möhtac olar. Fərqi yoxdur neçə yaşın olur olsun ürəyində bir uşaq gizlənər. Nə qədər gizlətməyə çalışsan da, bəzən o uşaq duyğuların özündən xəbərsiz özünü büruzə verər. O duyğuları isə ən gözəl müəllimlər hiss edər. Axı müəllim şagirdin ikinci valideyni sayılır. Müəllim bəzən şagirdin elm qapısını açan müdrik, bəzən dost, bəzən sirdaş, bəzən isə qayğıkeş anası olur. Bu sadaladığım bütün xüsusiyyətləri özündə daşıyan bir müəllimə Bəyim müəllimədən başqası deyildi. Toğrulun gözlərindəki həsrəti sezən, Toğrul barəsində xoş xatirələri cümlələrə, göz yaşlarını isə yanağına düzən Bəyim müəllimə.*

**Cəmşid Naxçıvanski adına (indiki Heydər Əliyev adına) Hərbi Liseydə Toğrulun sinif rəhbəri Bəyim müəllimə:**

– Toğrul mənim bala qədər sevdiyim şagirdlərimdən biridir. Adı çəkilən zaman qəlbimi bir sızı əsir alır. Toğrullu günlərə nəzər saldığımda Toğrulsuz ömür məni incidir. Bir müəllimə deyil, bir ananın övladına olan doğmalığı hiss edirdim Toğrula qarşı. Əlbəttə ki, bunun səbəbkarı elə Toğrul özü idi. O mənim qəlbimi insanlığı ilə ram etmişdi. Çox mehriban, qayğıkeş, tərbiyəli, ifalı biri idi.

2002-ci il sentyabrın 1-də Toğrulgilin siniflərinə ilk dəfə daxil olduğum zaman diqqətimi çəkənlərdən biri Toğrul oldu. Həmin anda onda olan fərqliliyi hiss etdim. Zamanla o baxışların ardında gizlənən nisgildən xəbərdar oldum. Onun qəlbindəki vətən dərdi idi. O dərdi Toğruldan ala bilməsəm də, dərdini dinləməyə hər zaman hazır idim. Ancaq Toğrul bu barədə duyğularını dilə gətirə bilmirdi. Bir dəfə mənə yaxınlaşıb ***"Bəyim müəllimə, sizinlə danışmaq***

***istəyirəm"*** dedi. Sözə başladı, ancaq yenə kəlmələr boğazına dizildi. Mənə hisslərini vərəqə yazıb gətirmək istədiyini dedi. Mən də razılaşdım. Ertəsi gün o ağ kağız üzərində həkk olunan ən ali duyğuları mənə əmanət etdi. Hər sətir Toğrulun qəlbinin səsi idi.

Mənim üçün Toğrul adında qürur, fəxarət və həsrət cəm olub. Oğlum Ayxandan ayırmazdım Toğrulu. Bəzən isə Ayxanın məsləhət verəni Toğrul olardı. Tanıdığı hər kəsin ömründə və xatirəsində yaxşılığı ilə iz salıb vətən fədaisi. Hər kəs Toğrulun öncəliyinin ilk vətən, daha sonra bacı və qardaşı olduğunu bilirdi. Arzusu vətəni azad, bacı-qardaşını xoşbəxt görmək idi. Mənim də arzum Toğrulu xoşbəxt görmək idi. Digər şagirdim, Toğrulun kursant yoldaşı Samurun toyuna gedəndə Toğrulu da bəy kürsüsündə görmək arzumu dilə gətirdim. Toğrul isə o kürsüdə qardaşını görmək istədiyini dedi. Ancaq nə mən, nə də Toğrul arzumuza çata bilmədik.

Toğrulun şəhid olduğunu eşitdiyimdə bir ana kimi qəlbimə od düşdü. ***"Anam-müəlliməm"*** deyən şagirdimin həyata vidası mənim üçün acının ən tünd rəngi idi. Bir anda gözlərimdə qaralan dünyada bir işıq ucu görə bilmədim. Toğrulun qaranlıq məzara dəfn olunan cisminə, arzularına fəryad etdim. Toğrula ana kimi yandım.

Toğrul dünyadan köçsə də, yaşadığı qısa ömrə unudulmazlığı sığdırıb. Mən Şəhid şagirdimi çox sevirəm. Mən Hərbi Liseydə vətəni əmanət etdiyim hər bir şagirdimi sevirəm. Şəhid olanını da, qazi olanını da, hərbçi olanını da. Onların hər biri mənim üçün qəhrəmandır. Elə qəhrəman şagirdlərin müəllimi olduğum üçün də mən "Tərəqqi" medalı ilə təltif edilmişəm.



# ŞƏHİD ŞAGİRDİM

*"Anam-müəlliməm" deyirdin mənə,*
*Qəlbi vətən dərdli olan Toğrulum.*
*Əlin bu dünyadan üzülən gündən*
*Sanki sınıb yana düşübdür qolum.*

*O qədər ağırdır sənli dünənə*
*Bu gün xəyallarda nəzər yetirmək.*
*Sənə deyiləcək neçə arzunu*
*Məzarın önündə dilə gətirmək.*

*Şagirdçün şam olub yanan müəllim*
*Şagird itirəndə yanıb kül olar.*
*Hər dəfə adını duyduğu zaman*
*Ana gözləritək gözlərim dolar.*

*Mən sənə əmanət etdim vətəni,*
*Canınla sən sahib çıxdın vətənə.*
*Bir zaman mən sənə elm öyrədirdim,*
*İgidlik dərsini sən keçdin mənə.*

*15.10.2022*

# YOXLUĞUNDA VARLIĞI ARANAN ŞƏHİD

*Bəzən bir cümlə eşidərsən. Ruhuna qədər gedib çatar o cümlə. Bir neçə sözdən ibarət olan o cümlə dərin bir ümman kimi səni ağuşuna alar. Sevginin, özləmin, həsrətin qalaq-qalaq izahını o cümlədə taparsan. O an çarəsizlik adlı bir imtahanda qalan kəsirlərin ömür boyu üzünə çırpılacağı gerçəyini hiss edərsən. O duyduğun cümlə ilə çarəsizlik adlı bir həyat dərsi öyrənmiş olarsan.* "Mən varımdan yox oldum" *cümləsində taparsan yoxluğun bitməyən izahını. Dörd söz, dünya boyda qəlb yükü...*

**Toğrulun rus dili müəlliməsi Azilə Əliyeva:**

– Mənim üçün Toğrul kimi bir qəhrəmandan danışmaq həm qürurvericidir, həm də kədərlidir. Hər dəfə xatirələrimdə Toğrul ilə ötən günlərim canlananda ürəyimin sızıltısı ruhumu inildədir. Yoxluğu o qədər ağırdır ki...

Toğrul ikinci kursda oxuyanda mən onlara rus dili dərsi keçməyə başladım. İlk dərs dediyim qruplardan biri idi onların qrupları. Həm də ən çox sevdiyim qruplardan biri idi. Sanki seçilmişdilər. Hər birinin baxışlarında məğrurluq əks olunmuşdu. Toğrulun baxışları isə tam fərqli idi. O məğrur baxışların ardından fərqli bir duyğu sezilirdi. O zaman bunun nə olduğunu bilməsəm də, indi bilirəm. Onun nakam ömrü o baxışlarda gizlənibmiş.

Toğrul bütün dərslərdə məsuliyyətli olduğu kimi mənim dərslərimə də hər zaman hazırlıqlı gələrdi. Bəzən isə utancaqlığı ona dərsə cavab verməyə mane olardı. Ancaq onun baxışları bütün suallara cavab verməyə yetəcək qədər dərin idi. O baxışlardan bəlli idi ki, Toğrul dərsə hazırdır, ya yox.



Mən bir müddət könüllü psixoloq kimi də digər qruplarla yanaşı Toğrulgilin qrupu ilə də məşğul oldum. Hər bir kursant mənə o qədər doğma idi ki, onların hər duyğusunu sezə bilirdim. Onlar mənim güvən yerim idi. Bilirdim ki, vətən əmin əllərdədir. Hər dəfə sıraya düzülüb dəyanətlə addımladıqlarını görəndə "Sizə qurban olum" deyirdim. Mən onlara qurban ola bilmədim. Neçə-neçə kursant şagirdim vətənə qurban oldular.

Hər zaman dilə gətirdiyim sözlər var idi. Demək olar ki, bu sözləri bütün kursantlar əzbər bilirdilər. "Siz ölmək üçün deyil, düşməni məhv etmək üçün çalışmalısınız." Bir də onlara deyərdim ki, "Sizin çiyinlərinizə düzülən ulduzlar bir gün bu vətənə nur saçacaq." "Qeyrətsizə baxıb qeyrətsizləşməyək, qeyrətliyə baxıb qeyrətli olaq." sözlərim Toğrulun və onun kimi kursantların həyat şüarına çevrildi. Toğrul bütün xalqın qeyrətini çəkdi. Toğrul kimi qəhrəmanın həyat yolu örnək götürüləcək bir yoldur.

*Mən bu müsahibəni götürdüyüm zaman Azilə müəllimə İstanbul hava limanından vətənə gəlməyə hazırlaşırdı. Yenicə əməliyyatdan çıxmasına baxmayaraq o cisminin acısını unudub qəlbinin Toğrul həsrətini mənimlə bölüşdü. Budur etibar, budur ehtiram.*



## HEYRANIQ HÜNƏRİNƏ

*Sən qeyrət dərsi keçdin,
Gənc yaşında hər kəsə.
Torpaq vətənə dönməz,
Üstə qan çilənməsə.*

*Vətənin qisasını
Saxlamadın məhşərə.
Toğrul, biz heyran olduq
Sən göstərən hünərə.*

*Sən şəhid olduğun gün
Mən varımdan yox oldum.
Ruhumu əsir aldı
Qəlbdə çatılan odum.*

*Ulduztək axıb düşdün
Sən vətən torpağına.
Sən də əsalət qatdın
Yenilməz bayrağıma.*

*Şagirdlər müəllimin
Ən gözəl əsəridir.
Şəhid Toğrul, məzarın
Bizimçün and yeridir.*

*16.10.2022*



## MƏN DƏ ÖZ SÖZÜMÜ DEYƏCƏYƏM

***Atam müəllimdir, anam isə həkimdir. Biri gənc nəslimizə təhsil verir, elm öyrədir, onları maarifləndirir, digəri isə insanların sağlamlığının keşiyində durur. Hər iki peşə gözəl peşədir, xalqa xidmət peşəsidir. Mənim tutduğum yol da elə valideynlərimin peşəsini tamamlayır. Mən zabit olacağam, sərkərdə olacağam. Vətənimin, dövlətimin müdafiə qüdrətinin daha da möhkəmlənməsi, Azərbaycanın ərazi bütövlüyünün əbədiliyi, ordumuzun bundan da çevik qüvvəyə çevrilməsi üçün mən də öz sözümü deyəcəyəm. Hər halda valideynlərim öz övladları ilə fəxr edəcəklər. Çünki aldığım tərbiyə, təhsil və Heydər Əliyev adına Hərbi Liseydə gördüyüm diqqət və qayğı imkan verir ki, mən və mənim kursant yoldaşlarım bütün ümidləri doğruldaq.***

***Məmmədov Toğrul Səyyad oğlu***



# MİN OĞULDAN BİRİYƏM

*Mənim ürəyim dözmür*
*Vətənin həsrətinə,*
*Vətən üçün yaşamaq*
*Yazılıb qismətimə.*

*"Vətən" deyib sızlayan*
*Min oğuldan biriyəm.*
*Əgər şəhid olarsam,*
*Bilin ki, mən diriyəm.*

*Bu yolu bilə-bilə*
*Səngərə addımladım.*
*Vətən bayrağı ilə*
*Qəlb yaramı bağladım.*

*Mənim üçün cənnətin*
*Qoxusu torpaqdadır.*
*Şəhidlərin pozulan*
*Sükutu bayraqdadır.*

*Dalğasında dil açır*
*Şəhidlərin arzusu.*
*Hisslərin alisidir*
*Qəlbin vətən sevgisi.*

*Bu sevgimin yolunda*
*Mən canımdan keçərəm.*
*Bütün yollar içində*
*Şəhadəti seçərəm.*

*Budur mənim həyatda*
*Dönülməz olan andım.*
*Şəhid olarsam, deyin,*
*"Sən vətənçün yaşadın."*

04.11.2022



# DOSTLUĞA ÇEVRİLƏN MÜƏLLİM VƏ KURSANT MÜNASİBƏTİ

*Hər insanın ömründə müəllimin silinməyən izi qalır. Ancaq hər kursant müəllimin xəyallarında silinməz iz sala bilmir. Nəzərə alsaq ki, bir müəllim ömründən minlərlə kursant gəlib keçir, müəllimlərin bütün kursantları yaddaşında saxlaya bilməyəcəyinə heç tərəddüd etməməliyik. Ancaq unudulmağı da bütün kursantlara şamil etmək olmaz. Bəzən elə kursantlar olur ki, müəllimin yaddaşında min illərin belə silə bilməyəcəyi xatirələr buraxır. O kursantlar müəllimin bəzən əlləri, bəzən gözləri olur. O kursantlar müəllimin sabaha olan ən böyük ümidləri olur. Çünki vətən müəllimlərin kursantlara əmanəti olur. Vidadi müəllim üçün həmin o kursantlardan biri də Toğrul idi. Bir müəllim kursantını ancaq bu qədər gözəl izah edə bilərdi.*

**Toğrul Məmmədovun Azərbaycan Ali Hərbi Məktəbində Bölük Komandiri Polkovnik Cahangirov Vidadi Aydın oğlu:**

– Bir müəllimin ən böyük sərvətidir Toğrul kimi kursant. Hər zaman ümidlərimi doğruldardı Toğrul. İnsani keyfiyyətləri onu fərqləndirirdi. Baxmayaraq ki, bizi fərqləndirən bəzi nüanslar var idi, ancaq mənəvi duyğularımız bizi çox doğmalaşdırmışdı.

Vətəni Toğrulun ləyaqətlə qoruyacağına heç bir zaman şübhə etmirdim. Çünki bilirdim ki, Toğrul fəda olmaqdan heç zaman çəkinməz. Hələ kursant olan zamanlarda onun hər kəsə can yandırdığına çox şahid olmuşdum. İnsanlara böyük sevgisi olan birinin vətən sevgisinə şübhə etməzdim.

Toğrul çox cəsur, qorxmaz biri idi. Hər zaman hansı tapşırıq verilsə, ilk önə o atılardı. Həm əzmkar, həm qorxmaz, həm də kövrək ürəkli idi. Heç deməzdin ki, o boyda cüssəli igidin qəlbi o qədər kövrək olar.



Heç bilmirəm mən Toğrulu necə izah edim ki, onu bütün incəliyinə qədər vəsf edə biləsiniz. Həqiqətən də, bəzən sözlər ifadə etmək üçün yetərli olmur.

Toğrul mühəndis-istehkamçı olmağa qərar vermişdi. Komandir keyfiyyətləri çox yüksək olan Toğrul hələ kursant olduğu zaman taqım komandirinin müavini (taqım çavuşu) vəzifəsini icra edirdi. Bu hər kursantın icra edə biləcəyi bir vəzifə deyildi. Bu Toğrula olan etibarın bariz nümunəsi idi.

Toğrul nə unudan, nə də unudulan bir kursant oldu. Məzun olduqdan sonra Toğrul ilə münasibətimizi dost olaraq davam etdik. Bunun səbəbi onunla olan könül bağlarımızın qopmaz olması idi. Güvənilə biləcək ən öndə dost adına da sahib oldu Toğrul. Sadiq dostuma gözüyumulu etibar edirdim. Bu dünyada Toğrul kimi sədaqətli, mərhəmətli və izzətli insanlar çox deyil. Kaş ki ətrafımda Toğrul kimi beş nəfər olardı. O zaman mənim bu dünyada heç bir dərdim olmazdı. Ancaq Toğrul bənzərsiz yaranmışdı. Nə varlığında, nə də yoxluğunda yeri dolmadı, dolmayacaq da.

Mən Toğrul haqqında heç tərəddüd etmədən danışdım. Ancaq Toğrulu özü kimi izah edə bilmədiyimdən əminəm. Çünki o öz izahını atdığı addımları ilə verib. Elə şəhadətə ucalması da dərin bir izahdır. Vətənə fəda olmaqdan böyük bir izah varmı?



## VƏTƏN SİPƏRİ

*Səni izah etməyə*
*Kəlmənin gücü yetməz.*
*Hər insan öz canını*
*Vətənə fəda etməz.*

*Sədaqətin, dostluğun*
*İzahı sənsən, Toğrul.*
*Müəllim, həm dost kimi*
*Sənlə duyuram qürur.*

*Vətən qədər azizsən,*
*Vətənin fədaisi.*
*Adın necə ürəyə*
*Saçır şəhid sevgisi.*

*Birnəfəslik ömrünlə*
*Ölümsüzlük qazandın.*
*Pozulmadı heç zaman*
*İçdiyin vətən andın.*

*Hər zaman hiss olundu*
*Ürəyinin təpəri.*
*Allah verən canını*
*Etdin vətən sipəri.*

*20.10.2022*






## MÜƏLLİMİN ƏSƏRİ

*Hər bir insan yer üzündə Allahın bir əsəridir. Eləcə də qəhrəmanlar. Lakin qəhrəmanlar Allahın bənzərsiz əsəri olmaqla yanaşı, həm də müəllimlərin bir əsəridir. Çünki müəllimlər qəhrəmanların ömür yollarına elmlə nur saçıblar. Elmlə aydınlanan yolda uğura çatan hər bir qəhrəmanla qürur duyanlar arasında dayananlar sırasında ilk cərgədə müəllimlər də olur. Bir də əgər o yolun yolçusu bir hərbçidirsə.*

*Şəhid kursantı haqqında danışmaq müəllim üçün asan olmur. Həm xatirələrin ağırlığı, həm də veriləcək məlumatın böyük əhəmiyyət kəsb etməsi səbəbindən Həsən müəllimlə söhbətə başlamaq biraz çətin oldu.*

**Azərbaycan Ali Hərbi Məktəbinin Hərbi mühəndis kafedrasının rəisi (hazırda Fövqəladə Hallar Nazirliyinin Akademiyasının hərbi kafedrasının baş müəllimi, ehtiyatda olan polkovnik-leytenant) polkovnik-leytenant Məmmədov Həsən Məmməd oğlu:**

– Toğrul Məmmədov Azərbaycan Ali Hərbi Məktəbin qəhrəman yetirmələrindən biridir. Bu gün Toğrul kimi qəhrəmandan söhbət açmaq həm qürurvericidir, həm də kədərlidir. Bir müəllim üçün şəhid kursantından danışmaq çox çətindir.

Toğrul 2005-ci ildə Azərbaycan Ali Hərbi Məktəbdə təhsil almağa başladı. Toğrul könüllü olaraq mühəndis-istehkam ixtisasını seçdikdən sonra mən onu daha yaxından tanıdım və kəşf etdim. Mən onun cəsarətinə ilk o addımı atmaq qərarına gəldiyi zaman şahid oldum. Hərb peşəsinin ən çətin ixtisasını seçən Toğrulun hərbi mühəndis kafedrasının müəllim heyəti ilə qarşılıqlı əlaqəsi daha da genişləndi.

Bir müəllim kimi, ilk öncə, Toğrulun tərbiyəsindən söhbət açmaq istərdim. Çünki insani keyfiyyətlərin önündə insanın

əxlaqı öndə gəlir. Bu keyfiyyət Toğrulda ən yüksək səviyyədə idi. Hər kəsin hörmətini saxlamağı, özünün və sözünün yerini bilən biri olmağı onu bütün müəllim kollektivinin gözündə ucaltmışdı. Tərbiyəsi ilə yanaşı, təhsili də yüksək səviyyədə idi. Hərbi biliklərə yiyələnmək üçün hər vəchlə çalışır və ümidlərimizi doğruldurdu. Bütün bu üstün keyfiyyətlərlə seçilən Toğrul cəsarəti ilə də seçilirdi. Qorxmaz, mərd qəhrəman Azərbaycan Ordusuna lazım olan bir zabitə məxsus bütün keyfiyyətləri özündə cəm etmişdi. Mən Toğrula böyük ümid bəsləyirdim. Ümidimi doğrultdu.

Toğrul AAHM-də 3-cü kursda oxuduğu zaman taqım mandirinin müavini (taqım çavuşu) vəzifəsini icra edirdi. Bu ona olan güvənin və onun istedadının göstəricisi idi. Toğrul AAHM-i uğurla başa vurduqdan sonra vətən səngərlərinə yol aldı.

2014-cü il fevralın sonu martın əvvəlləri idi. Bir işin icrası ilə əlaqədar Ağdam rayonunda yerləşən N saylı hərbi hissəyə getdim. Heç düşünməzdim ki, getdiyim hərbi hissədə Toğrul ilə qarşılaşaram. Toğrulu gördüyümdə çox qururlandım.





Çünki onun haqqında olan düşüncələrimdə yanılmamışdım. Toğrul haqqında komandir və hərbçilərin söylədikləri yüksək fikirlər onun vətən üçün nələr etdiyini bir daha sübut etdi. Toğrula olan güvənim daha da artdı. Vətənin əmin əllərdə olduğunu bilmək çox gözəl bir hissdir. Toğrul vətəni özündən çox sevirdi.

Toğrul hər dəfə məzuniyyətə və yaxud da bir işin icrası üçün Bakıya gələndə görüşərdik. Kursant illərində olduğu kimi yenə də mənim fikirlərimə önəm verər, məsləhət alardı. Şəhid olduğu gün biz görüşməyi planlaşdırmışdıq. Səhər saatlarında danışıb axşamüstü görüşəcəyimiz saatı təyin etdik. Lakin qısa müddət sonra Toğrul zəng edərək təcili hərbi hissəyə qayıtmalı olduğunu dedi. Səhəri gün Toğrulun şəhid olduğunu öyrəndim. Ala biləcəyim ən acı xəbər idi. Ən çox güvəndiyim, ümid bəslədiyim Savalanov Nəcməddin Akif oğlunu itirməyin acısını sindirmədən Məmmədov Toğrul Səyyad oğlunun şəhid xəbəri ilə sarsıldım. Azərbaycan Ordusunun mühəndis-istehkam bölüyü iki güclü mühəndis-istehkamçı kadrı itirdi. Mən də sanki iki övladımı itirdim. Qanımdan, canımdan olan Məmmədov Sənan Hidayət oğlunun şəhid xəbərini aldığım gün yandığı kimi yandı ürəyim. Çünki müəllim üçün kursantları övlad sayılır.






## AND YERİMİZSƏN, ŞƏHİD

*Qürurun ən zirvəsi, torpağın zinətisən,*
*Dillərə əzbər olan "Azadlıq nəğməsisən".*
*Azərbaycan xalqının əbədi and yerisən,*
*Ey vətən kəlməsinin parlayan qaşı, şəhid,*
*Vətən sevən hər kəsin oğul-qardaşı, şəhid.*

*Əməlin fədakarlıq, ehtişamın özüdür,*
*Yoluna su çiləyən anaların gözüdür.*
*Qeyrət, şərəf, iftixar elə "Şəhid" sözüdür,*
*Pak qanınla silmisən alnımızın qarasın,*
*İgidlər sağaltdılar vətənin qəlb yarasın.*

*Vətənçün yarananlar torpağıma döndülər,*
*Zirvələrdə bərq vuran bayrağa büründülər.*
*Qəlbi duran şəhidlər qəlblərdə döyündülər,*
*Sonuncu nəfəsədək qəlbdə yaşayar adın,*
*Vətənə tən bilirik xalqın şəhid övladın.*

*07.11.2022*









# BİRLİKDƏ ÖTƏN 15 İL

*Birömürlük dostluqlar var dünyada. Nəfəs qədər dəyərli, ölüm qədər gerçək olan dostluqlar. İnsanın sərvəti, əzəməti, zinətidir o dostluqlar. Sınaqlardan üzüağ çıxan, ucaldıqca ucalan o dostluq və dostlar gerçəkliyi ilə örnəyə çevrilər. Çünki elə dostluğu bacaran dostlara nadir hallarda rast gəlinir. Hər ürək o qədər dəyəri daşımağa qadir deyil.*

**Toğrulun kursant yoldaşı, 15 illik əvəzsiz, sadiq dostu:**

– Toğrul mənim həyata doymayan və həyatda doymadığım əvəzsiz dostumdur. Altı ildir ki, ürəyimdəki yerinin boşluğunda boğuluram. Heç bir kəs o yeri doldurmayacaq. Çünki heç kim Toğrul ola bilməz. Çünki heç kimi Toğrul qədər əziz bilmirəm. Bunu ətrafımda olan hər kəs bilir. Mənim üçün Toğrul bir əfsanədir, həm həyatda yaşadığı müddətdə, həm də cənnətdə yaşadığı müddətdə.

Vətən sevgimizin bizi gətirib çıxardığı Cəmşid Naxçıvanski adına Hərbi Liseydə (indiki Heydər Əliyev adına Hərbi Liseydə) qarşılaşdıq Toğrulla. O zaman həmin qarşılaşmaya heç xoş qarşılaşma demək olmazdı. Biz Toğrul ilə möhkəm savaşdıq. Atalar sözündə deyildiyi "Çəkişməsən, bərkişməzsən" misalı bizim üçün sübut olundu. Bizim dostluğumuzun təməli atıldı. O dostluq bağı çox sınaqlardan sınmayaraq çıxdı. Artıq həyatda tərəddüdsüz söykənəcəyimiz dostumuz var idi.

2002-ci ildən başlayaraq biz vətən səngərinə uzanan yolumuzu bərabər addımlamağa başladıq. Hər ikimiz eyni ixtisas seçimi etdiyimiz, mühəndis-istehkam ixtisasını seçdiyimiz üçün AAHM və TTM-də bərabər təhsil aldıq. Hər ikimiz leytenant hərbi rütbəsi aldıq. Yiyələndiyimiz hərbi bilik və bacarığı vətənə layiq şəkildə sərgiləmək zamanı gəldiyində mən təyinatla Səngəçalda yerləşən N saylı hərbi hissədə,

Toğrul isə Ağdamda yerləşən N saylı hərbi hissədə xidmətə başladıq. İlk dəfə həmin dönəmlərdə Toğrul ilə yollarımız ayrıldı. Nə yalan deyim mənim üçün dostdan ayrı qalmaq çox çətin oldu. Zaman tapan kimi Toğrulu görməyə gedirdim. Dostumun düşmənlə üz-üzə olduğunu düşünmək mənə əzab verirdi. Tək arzum mənim də təyinatla Ağdama göndərilməyim idi. 2013-cü ildə arzuma çatdım. Heç gözləmədiyim halda Ağdama təyin olunduğumu dedilər. Həyatda aldığım ən sevindirici xəbərlərdən biri idi. O sevincim Toğrulla eyni hərbi hissədə xidmət edəcəyimi öyrəndiyim zaman birə min artdı. Əvəzsiz dostumla vətən torpağını bərabər qorumağa başladıq. Həmin dönəmdə (8 aprel 2013-cü ildə) bizim üçün qardaş qədər əziz olan Məmmədov Şəhriyar Bayramqulu oğlu düşmənin növbəti təxribatının qarşısını alarkən şəhid olmuşdu. Bu itki bizim üçün çox ağır idi. Şəhriyarın qisası mütləq alınacaqdı. Alındı da...

Raquf Orucov kimi bir komandirin komandanlığı altında xidmət etmək olduqca məsuliyyətli, eyni zamanda da qürurverici idi. Mən həmin hərbi hissəyə gedənə qədər Toğrul mənim haqqımda ətraflı məlumat verdiyi üçün getdiyimdə sanki illərdi, orada xidmət edirmişəm kimi münasibət gördüm. Mən bölük komandiri, Toğrul taqım komandiri vəzifəsini icra etdik. Əslində isə, əksi ola bilərdi. Fədakar dostum məni özündən çox düşündü.

2014-cü il avqustun əvvəllərində mən məzuniyyətdə idim. O dönəmlərdə düşmən daha da azğınlaşmışdı. Atəşkəsi tez-tez pozan düşmən ordusu avqustun 1-də mühəndis işləri görən dəstəyə atəş açmış və gərgin olan vəziyyəti daha da gərginləşdirmişdi. Həmin zaman Toğrul və dəstəsi düşmənə qarşı mübarizə aparmış və düşmənin yüzdən artıq itki verərək geri çəkilməyinə səbəb olanlardan biri olmuşdu. Həmin döyüşlərdə Azərbaycan Ordusunun 13 hərbi qulluqçusu şəhid olmuş, onlardan 4-ü Toğrulun tabeliyindəki əsgər olmuşdu. Bu Toğrul üçün qəbul edə biləcəyi bir durum deyildi. O



həmin qanların qisasının tezliklə alınacağını bilir və onun üçün çalışırdı.

Bizim eyni hərbi hissədə xidmətimiz 2015-ci ilə qədər davam etdi. Həmin il mən təyinatla Bərdə rayonunda yerləşən N saylı hərbi hissəyə göndərildim. Ayrı-ayrı hərbi hissədə olsaq da, zaman tapan kimi görüşürdük.

Az olmayıb Toğrulun sinəsini sipər edib məni qoruduğu. Toğrul nəinki tək mənə, ailəli olan bütün hərbçilərə qarşı diqqətli idi. O, hər zaman ailəli hərbçilərin önünə keçirdi. Hər zaman mənə deyirdi ***"Sənin yolunu gözləyən ailən var. Ona görə də ehtiyatlı ol."*** Ancaq bir gerçək var idi. Toğrul subay olsa da, onun da yolunu gözləyən iki övlad əvəzi bacı və qardaşı var idi. Ancaq o ilk vətəni düşündü. Toğrul gözəl bilirdi ki, bacı və qardaşı onun varlığına tutunub. Ancaq...

Toğrulun qəhrəmanlıqları çoxdur. O qəhrəmanlıqların bəziləri bilinir, bəziləri isə bu günə qədər sirr olaraq qalır. Mən də bilinən qəhrəmanlıqları bölüşürəm. Çünki sirr olaraq qalanlar sonsuza qədər də sirr olaraq qalacaq.

Qısa ömründə bir neçə döyüşə iz salan Toğrul Məmmədovun Aprel döyüşlərində göstərdiyi şücaətləri heç kimə sirr deyil. Azərbaycan Ordusunun açıq-aşkar qalib olduğu həmin döyüşlərdə Toğrul Ağdam rayonu istiqamətində, mən isə Tərtər rayonu istiqamətində mübarizə aparırdıq. Həmin vaxt mən Toğrulun və mənim yaxın dostumuz olan Savalanov Nəcməddin Akif oğlu ilə birlikdə düşmənə qarşı vuruşurduq. Bir anda kapitan Nəcməddin Savalanov düşmən atəşinə tuş gəldi. O an Nəcməddinin həyatda qalmağı üçün çox çalışdıq. Nəcməddini həmin ərazidən çıxarıb hospitala apardıq. İllərlə birlikdə vətən keşiyini çəkdiyim əziz dostumu qan içində görmək olduqca dözülməz idi. Nəcməddin yolda su istədi. Ancaq yaralıya su verməzlər prinsipi ilə mən ona su vermədim. İndi o qədər peşimanam ki. Bilsəydim, şəhid olacaq – mən Nəcməddinə su verərdim. Nəcməddinin ağır yaralandığı Toğrulun duya biləcəyi ən ağır xəbər idi. O döyüşlərdə neçə-

neçə dostumuzu, silahdaşımızı vətənə qurban etdik. Növbəti qurbanın Nəcməddin olmaması üçün dua etdik. Ancaq Nəcməddin şəhid olmağa çoxdan sevdalanmışdı. Xocalının işğalı günü dünyaya göz açan Nəcməddin Savalanov Şuşanın işğalı günü, 8 may 2016-ci ildə həyata gözlərini yumdu. Nəcməddini itirmək nə mənim, nə də Toğrulun qəbul edə biləcəyi bir gerçək deyildi. Nəcməddinin nəşini İmişli rayonunun Göbəktala kəndinə apardıq. Bir zamanlar hərbi formada həyətə daxil olan Nəcməddinin tabutda gəlişini görən doğmalarının fəryadı hələ də qulaqlarımdan getmir. *(Bu an ürəyim dayanacaq kimi hiss etdim. Daha dinləməyə gücümün olmadığını və sanki bir alova qərq olurmuşam kimi hiss etdim. Məcbur söhbəti saxlamalı olduq.)*

14 iyul mənim yaddaşımdan silinməyəcək bir gündür. Həmin gün həm Toğrul ilə son dəfə görüşdüyümüz gün kimi, həm də Toğrulun şəhid olduğu gün kimi yaddaşımda iz qoyub. Həmin gün Toğrulla birlikdə Bakıdan xidmət yerlərimizə döndük. Tərtərdə bir yerdə oturub birlikdə yemək yedik. Getmək zamanı çatanda Toğrul ***"Qarşıdan ad günüm gəlir. Ağdama gələrsən, birlikdə qeyd edərik. Ona görə də indi səninlə görüşüb, vidalaşmıram"*** dedi. Həmin zaman Toğrul çevrilib mənə elə baxdı ki, o an ürəyim köksümdən çıxacaq kimi çırpındı. O baxışın səbəbi isə saatlar sonra bəlli oldu.

Artıq şər qarışmışdı. Düşmən də şər qarışanda daha da azğınlaşırdı. Toğrul mənə zəng edib havanın aydınlıq olduğunu və daha da ehtiyatlı olmağımı dedi. Yarım saat sonra bizə yaxın ərazidə bir hadisə baş verdiyi xəbərini aldıq. Mən bilmədim ki, əslində o hadisənin şəhid qurbanı Toğruldu. Qısa müddət sonra bir nəfər zəng edib amansızca "Toğrul şəhid olub, bilirsən?" dedi və telefonu söndürdü. O an ironiyalı bir gülüşə qərq oldum. "Yox daha nələr" dedim. Cəmi yarım saat öncə mənə ehtiyatlı olmağı tapşıran Toğrul necə şəhid ola bilər ki? O an durmadan Toğrula zəng etdim. Ancaq zənglərim cavabsız qaldı. Başqa bir yoldaşa zəng etdim.



Telefondan gələn səs hər şeyi izah edirdi. Mən isə ona inanmaq istəmirdim. "Hospitala aparırıq" o an ürəyimdə bir ümid doğuldu. "Yəqin, nəfəs alır" dedim. Dizimi yerə atıb hansı əzası olmasa da nəfəsi olması üçün dua etdim. Ancaq növbəti zənglə "Toğrul şəhid olub, morqa aparırıq" sözləri ilə bütün ümidlərimə qəsd olundu.

Gündüz mənə ***"Ad günümə gələrsən"*** deyən Toğrul üzünə təbəssüm qondurub əbədi yuxuya qərq oldu. Əziz dostum ilk dəfə məni görəndə qollarını boynuma sarmadı. İstiqanlı dostumun buza dönmüş cismi ürəyimə od saldı. Dünyaya sığışmayan Toğrulu bir tabuta sığdırmaq çox ağır idi. Bir də o tabutu daşımaq. Toğrulun nəşini Naxçıvana yola saldıq. Ardınca çətinliklə də olsa, özüm də bilet ala bildim. Ancaq mən Naxçıvana çatanda artıq Toğrul vətən torpağına əmanət edilmişdi. Canıma can, ürəyimə təpər olan dostumu bir məzarda görmək məni sanki bu dünyada cəhənnəm alovuna qərq etdi.

Həyatın rəngi Toğruldan sonra mənim gözlərimdə dəyişdi. Anamın mənim qədər istədiyi dostumun itkisi anamın da ürəyini yandırdı. Hələ oğlumu demirəm. Toğrul əmisinin son hədiyyəsi olan şir oyuncağını qucaqlayıb susqun baxışlarla "şir ürəkli" əmisinin şəkillərinə baxan oğlum sükutu ilə həsrətini dilə gətirir.

Heç bilmirəm, Toğruldan sonra necəyəm. Dostsuz, sirdaşsız, qardaşsız qalan biri necə ola bilərki?





## SƏNDƏN SONRA

*Səndən sonra beləyəm mən,*
*Baxışları intizarlı, ürəyi dərdli-qübarlı...*
*Yoxluğunda varlığının kürlüyünü çəkirəm mən,*
*Bütün dünya yığışsa da, edə bilmir Toğrul, bir sən.*
*Səni sanki yaratmışdı Yaradanım ilmə-ilmə,*
*Dost, qəlbimi isidirdin bənzərsiz olan sevginlə.*
*İnsanlığın güzgüsüydün, qəhrəmanlığın özüydün,*
*Həyatımın hər anına işıq saçır dost öyüdün.*
*Unutmadım, unutmaram sənlə ötən günlərimi,*
*Ürəyimdə adın qalıb, buraxsan da əllərimi.*
*Nə çətinmiş dost uyuyan bir məzarı qucaqlamaq,*
*Həsrətinin qəm yükü var ürəyimdə qalaq-qalaq.*
*Bu vətəni mən sevirəm bir də ki, sən sevdiyintək,*
*Ürəklərdə boy atırsan, cənnətdə tər qalan çiçək.*
*Səndən sonra kimsəsizdir ürəyimin dost ünvanı,*
*Xatirələr dalğasıyla islanır xəyal limanı.*

*23.10.2022*











Baş leytenant. 26 iyun 2012



# DOST QİSASIN ALAN DOST

*... Bir də həsrətini böyüdənlər var. Dostluğu böyütdüyütək böyüdənlər. Öz ömrünü bir də dostunun adını yaşatsın deyə yaşayanlar. Qəlbində dost adı hüsrana qucaq açsa da, danışarkən varmış kimi danışanlar. Keçmişin əlindən tutub özləri ilə bərabər bu günə gətirənlər. Hərbi formanı bir vaxtda geyinib, 14 il vətənli arzuları birgə qurub, o formanın dosta kəfən olduğunu görənlər və o formanı geyinənlər. Olacaqları bilə-bilə dostun getdiyi vətən yolunu addımlayanlar. O yolun yolçularından olan bir vətən oğlu, Toğrul həsrətli Samur Haqverdiyev.*

**Toğrulun Heydər Əliyev adına Hərbi Liseydən və AAHM-dən kursant yoldaşı və sonsuza qədər dostu olan mayor Haqverdiyev Samur Yevgeniyeviç:**

– Toğrul sanki mənim güzgüyə düşən əksim idi. Çox bənzər yanlarımız var idi. O bənzərlikdən biri də utancaqlığı idi. Bir söz demək kifayət edirdi ki, qızarıb, tərləsin.

Həyata eyni prizmadan baxırdıq. Elə o səbəbdən də 2002-ci ildə Hərbi Liseydə oxuduğumuz ilk zamanlardan biri-birimizə doğmalaşdıq və qırılmaz dost bağımız yarandı. 2002-ci ildə Cəmşid Naxçıvanski adına (indiki Heydər Əliyev adına) Hərbi Liseydə 33-cü qrupda kəsişdi ömür yollarımız. Elə həmin gündən də vətənə layiqli vətəndaş olmaq üçün bərabər addımladıq. Liseydə oxuduğumuz dönəmlərdə, demək olar ki, ömrümüzün ən önəmli anları birlikdə ötürdü. Tək qayğımız yaxşı qiymət almaq idi. Toğrul bunun üçün hər birimizdən daha çox çalışırdı. Çünki valideynlərinin, xüsusən atasının sevinəcəyi nüansın o olduğunu yaxşı bilirdi. 2005-ci il mayın 30-da Liseyi əla qiymətlərlə bitirən Toğrul Azərbaycan Ali Hərbi Məktəbin kursantları sırasında da fərqlənməyi bacarırdı.

2005-ci il iyulun 30-da Toğrulla bərabər Bakı şəhərinə gəldik. Avqustun 1-də Ələt Təlim Mərkəzində 1 aylıq kursa başladıq. Kursu uğurla tamamladıqdan sonra AAHM-ə vətənə sadiq olacağımıza and içərək addım atdıq.

Toğrul mühəndis-istehkam, mən isə motoatıcı ixtisasını seçdiyimiz üçün fərqli qruplarda təhsil almağa başladıq. Qruplarımız ayrı olsa da, dostluq yollarımız ayrılmadı. Toğrulla bir kursant və bir dost kimi hər zaman qürur duyurdum.

Toğrul bir kursant kimi müəllimlərin ümidini doğruldurdu. Elə ona görə də o, III kursda oxuyarkən taqım komandirinin müavini (taqım çavuşu) təyin olundu və məzun olana qədər də eyni sahədə fəaliyyət göstərdi.

26 iyun Toğrulun ən çox sevdiyi gün idi. O günə sevgisinin böyüklüyündən idi ki, həmin günü doğulduğu gün kimi əziz tuturdu. 2009-cu il 26 iyun Toğrul üçün daha əlamətdar gün kimi tarixin yaddaşına həkk olundu. Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü Toğrulun və mənim yaddaşıma leytenant hərbi rütbəsi alaraq məzun olduğumuz gün kimi yazıldı. O gün hər kəs sevinirdi. Toğrul isə hər kəsdən daha çox sevinirdi. ***"Ulduzlarımı göstərəcəm atam sevinsin"*** deyirdi. Anasının o günü görməməsi isə Toğrulun qəlbində gizlətdiyi üzüntüsü idi.

AAHM-dən sonra hərbi biliklərimizi artırmaq üçün Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində birillik kursa başladıq. Fərqli qruplarda olsaq da, yenə də dostluğumuz davam etdi. TTM-i də bitirdikdən sonra mən təyinatla Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə, Toğrul isə Ağdam rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başladıq. Altı ay sonra mən də Ağdam rayonuna getdim. Eyni rayonda fərqli hərbi hissələrdə xidmət etdik.

Toğrul heç istəmirdi ki, mən Ağdamda xidmət edim. Çünki mən ailəli idim və ailəmi də Ağdama aparmışdım. Toğrul isə subay olduğu üçün nəinki məni, ailəli olan bütün hərbçiləri ön cəbhədən uzaq tutmağa çalışırdı. Elə oldu ki, bir müddət



sonra Toğrul arzusuna çatdı. Mən Bakıya qayıtdım və xidmətimi AAHM-də davam etdim. O müddətdən sonra Toğrul ilə görüşümüz o Bakıya gələndə baş tuturdu.

Toğrul nəinki bir qardaş hətta bir valideyn kimi məsuliyyətli olmağın nə demək olduğunu bilirdi. Çünki ata-anasının ona iki əmanəti var idi. O, həmin iki əmanətə yoxluğu hiss etdirməməyə çalışırdı. Heç unutmaram, qardaşı Üzeyir əsgərlikdən gələndə o necə bir şadyanalıq etmişdi.

Övladlarımı bir əmi kimi çox istəyirdi. Fatimənin 1 yaşı tamam olanda mənim qədər sevincli idi. Həmin gün Fatimənin körpə qəlbini sevindirən qardaşım Yusifi doyunca görə bilmədi. Yusifi lap körpə vaxtında cəmi bircə dəfə gördü və alnından öpdü. Kaş ki öz övladının da alnından öpmək alın yazısı olsaydı. Ancaq olmadı. Bala deyil – vətən qoxladı vətən qoxulu vətən oğlu.

Toğrul üçün vətən səngərindən uzaq qalmaq dözülməz idi. 2014-cü ildə təkrar Ağdama xidmətə qayıdan Toğrul dəfələrlə vətənə tuşlanan düşmən gülləsinə canını sipər etmişdi. Tarixdə iz qoyan Aprel döyüşlərində də böyük şücaət göstərən Toğrul o döyüşlərin canlı qəhrəmanlarından biri idi. O dönəmdə neçə-neçə şəhidin son şahidi olan, dost nəşini ciynində daşıyan Toğrulun özü çiynindən yaralandığını gizli saxlamışdı. Bir müddət sonra bu gerçək üzə çıxdı.

Aprel döyüşlərindən sonra Toğrulun düşmənə nifrəti bir qədər də artmışdı. Elə hey qisas barəsində düşünürdü. O, bilirdi ki, qisas qurbansız olmur. Düşmən Toğrulun adını duyanda lərzəyə gəlirdi. Hətta düşmən Toğrulun başını gətirənə külli miqdarda pul mükafatı da ayırmışdı. Toğrul düşmənin bu düşüncəsini bilə-bilə geri çəkilmədi.

2016-cı il iyulun 14-də gecənin zülmətini yenə düşmənin atəşi yardı. O atəş öncə Toğrulun əsgərinə dəydi. Əsgərini atəş nöqtəsindən çıxarmağa çalışan Toğrul özü də düşmən snayperindən açılan atəşə tuş gəldi.

Həmin dönəmdə mən məzuniyyətdə olduğum üçün Naxçıvanda idim. Elə ilk olaraq xəbəri gecə mənə dedilər.



Elə bil ürəyimin üstə tonlarca yük çökdü. Toğrulun doğmalarının səssizliyi məlumatdan xəbərsiz olduqlarını əks etdirirdi. Həmin gecə hər dəqiqə bir il kimi uzun oldu. Səhəri Naxçıvan camaatı şəhid oğlunu qarşılamaq üçün cəm oldular. Hər kəs üçün şəhid tabutu qarşılamaq çətin idi. Ancaq mənim üçün Toğrulu elə qarşılamaq dözülməz idi.

*Bu sözlərdən sonra Samur Toğrulun nəşini qarşıladığı gün susduğu kimi susdu. Hiss edirdim o sükutun ardında ucalan fəryadı. Samurun Toğrulsuzluğunu Samurun həyat yoldaşı Hicran xanım dilə gətirdi.*

– Toğrulun şəhid xəbəri Samur üçün qəbul edilə bilməyəcək qədər ağır bir xəbər oldu. O xəbəri duyan Samur mənim tanıdığım Samur deyildi. Samur nəinki evə sanki cahana sığmırdı. Qərq olduğu sükut dostun səssizliyi qədər dərin idi. O xəbərin yalan olması üçün var olan hər şeyi fəda edərdi Samur. Ancaq fəda olan bir insan var idi. O da Toğrul idi.



Toğruldan sonra Samur çox dəyişdi. Arzuları da fərqli oldu. Ən öndə arzuları sırasında Toğrulun qisasını almaq dururdu. O arzusuna 2020-ci ildə Vətən müharibəsində çatdı. Toğrulun arzusunda olduğu Füzuli, Laçın, Şuşaya azadlıq bəxş edənlərdən biri də Samur oldu. Xankəndiyə illər sonra qədəm basan ilk azərbaycanlılar sırasında Samurun da adı oldu. Bəlkə də, Toğruldan sonra Samur ilk dəfə o gün ürəkdən sevindi. Çünki dostunun qisası qiyamətə qalmadı.

## ƏVƏZSİZ DOST

*Bizim arzularımız eyni rəngə büründü,*
*Dostluq adlı bir məhfum bəyaz rəngdə göründü.*
*Ardınca xəyallarım ilan kimi süründü,*
*Əvəzsiz dost, mən sənsiz bu dünyada kəm qaldım*
*Bir dost evi yerinə məzarlığa yol saldım.*

*Birgə iz salacaqdıq Qarabağ torpağına,*
*Sən öncədən büründün yenilməz bayrağıma.*
*Cənnətdə şəhid oldun sən zəfər sorağına,*
*Ruhun ilə sarıldın Əsədə, Nəcməddinə*
*Səndən əmanət yurdda düşmənə gəldik sinə.*

*Varlığını hiss etdim hər döyüşə girəndə,*
*Bir də sənintək öpdüm torpağımı öpəndə.*
*Qarabağ səmasından ruhun ilə ötəndə,*
*Salam yetir şəhadət yolundan keçənlərə*
*Öz ömrünü vətənin ömrünə biçənlərə.*

*26.10.2022*





# SİLAHDAŞININ ADINI YAŞADAN DOST

*Ən böyük dostluqlar sınaqlardan çıxan dostluqlardı. Dost yolunu alan duman-çəndə irəliləməyi bacaranlardır dostluğa sadiq olanlar. Xoş günün ən çox sevinəni, kədəri ən çox qəlbinə yığandır əsl dost. Dost yolunda göz qırpmadan fəda olandır dost. Belə dostluqlara artıq az-az rast gəlinir. Dostun varlığında dosta tutunan, dost gedişindən sonra isə dost adını yaşadan dostlardan biridir Elçin Həsənov.*

**Toğrulun Heydər Əliyev adına Hərbi Liseydən və AAHM-dən kursant yoldaşı olan sadiq dostu mayor Həsənov Elçin Vəliyəddin oğlu:**

– Toğrul ilə məni peşəmiz doğmalaşdırdı. İlk dəfə 2002-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin (indiki Heydər Əliyev adına Hərbi Lisey) kursantları sırasında yer alan kursantlar kimi tanış olduq. Daha sonra Toğrul bizə insanlıq dərsi keçən bir müəllim kimi doğmalaşdı. Həmyaşıd olsaq da, biz hər zaman Toğrulun yanında sözlərimizə diqqət edirdik. Mən bir qədər fərqli xarakterə sahib biri olduğum üçün bəzən atdığım addımlarımın mənə zərər vuracağını düşünmürdüm. Ancaq ayağım büdrəyən anda ilk əlimdən tutan Toğrul olurdu. Hər zaman özünü böyük qardaşım kimi təqdim edirdi. Mən də onun qardaşlığı ilə qürur duyurdum.

Ata-anam məni Toğruldan xəbər alırdılar. Özləri Naxçıvanda yaşasalar da, mənim yanımda qardaş qədər qeydimə qalan bir nəfərin olmağı onlara təskinlik verirdi. Bu güvən idi.

Mənim hərbçi kimi qazandığım bütün uğurların təməlində Toğrulun zəhməti durur. Mən onun haqqını ödəyə bilmərəm. Kursant illərimizdə eyni bölük, fərqli qruplarda təhsil

alırdıq. Mən rabitəçi, Toğrul mühəndis-istehkamçı olmağa qərar vermişdik. Lakin ayrı-ayrı qruplarda olmağımız bizi uzaqlaşdırmadı, əksinə, daha da yaxınlaşdırdı.

Toğrul cəsarətli və dəyanətli biri idi. Əlbəttə ki, elə bir dostumun olmağı mənə də təsir edirdi. İdmana xüsusi önəm verən Toğrul məndə də idmana maraq oyatmışdı. Elə onun sayəsində də mənim idman göstəricilərim yüksək oldu və hər ikimiz AAHM-i yaxşı qiymətlərlə bitirdik. Sonra TTM-də hərbi bilik və bacarıqlarımızı daha da möhkəmləndirdik.

Biz xidmətə fərqli istiqamətlərdə başladıq. Tez-tez görüşə bilməsək də, biri-birimizi unutmurduq. Aprel döyüşləri zamanı mən Toğrulla yalnız telefon vasitəsilə əlaqə saxlaya bilirdim. Həmin döyüşlər zamanı Toğrul böyük şücaətlər göstərmiş və yaralanmışdı. Lakin o yaralandığını heç kimə bəlli etməmişdi. Ən böyük təssüflərimdən biridir o döyüşlərdən sonra Toğrulla görüşə bilməməyim. Bilsəydim ki, Toğrulun adını çox qısa zamanda şəhid kimi eşidəcəm, onunla görüşmək üçün hər addımı atardım.

Mənim üçün "Toğrul şəhid olub" xəbərini eşitmək duya biləcəyim ən ağır və ağrılı xəbər idi. Bu gerçək ola bilməzdi. Hər kəsin həyatdan gedişinə inana bilərdim, o gedişi təkcə Toğrula qondura bilməzdim. Toğrul gedişi ilə mənə dünyanın yalan dünya olduğunu sübut etdi.

Toğrulsuz həyata davam etmək çox çətin oldu. Hər dəfə Toğrula bir ümidlə zəng edirdim. Lakin susan telefon sərt şillə kimi mənə çırpılıb məni xəyal dünyasından ayırırdı. Heç bilmirəm, illərdi, bu yoxluq içində necə var ola bilmişəm. Tək təsəllim Toğrulun adını yaşatmağımdır. 2018-ci ildən evimdə bir Toğrul böyüyür. Övladıma dostumun adını əmanət edib, o ada layiq bir övlad böyütməyə çalışıram. Hər dəfə "Toğrul" deyə səslənəndə ürəyimin sarı simi titrəyir.



# DÖNÜLMƏZ ŞƏHADƏT YOLU

*İnsan bu dünyada arzularla yaşayır. Bu dünyanı gözəlləşdirən də elə arzulardır. Ancaq bəzən o arzu qəlbinin dərin və sağalmaz yarasına çevrilir. Bir zamanlar sevinclə dilə gətirdiyin arzuya çatacağın gün bir gözün ağlayır, bir gözün gülür. Röyal Hənifəyev kimi. Çünki Röyalın arzusunda olduğu kimi Toğrul ilə dostluq, qardaşlıq bağları kirvəlik bağları ilə möhkəmlənmədi. Toğrulun ömrü buna vəfa etmədi.*

**Toğrulun dostu, kursant yoldaşı Hənifəyev Röyal Rəşid oğlu:**

– Toğrul mənim dost adlı sərvətim idi. Bu həyatda kimə Toğrul kimi bir dost nəsib olsa, o insan bu həyatın ən zəngin insanı sayılar. Mən də özümü bu dünyanın ən zəngini sayırdım. Çünki Toğrul kimi bir dostun əli çiynimdə idi.

2002-ci ildə Heydər Əliyev adına Hərbi Liseydə təhsil aldığımız zamanlarda bizim dostluğumuzun təməli qoyuldu. Bizi bağlayan çox bənzər cəhətlərimiz var idi. Sonra Azərbaycan Ali Hərbi Məktəbində hərbi təhsilimizi davam etdirdik. O dönəmdə dostluğumuz daha da möhkəmləndi.

Toğrul mənim məsləhət verənim, sirdaşım idi. Ən çətin məqamlarda əlini ilk o mənə uzadardı. İstər nişanlı olduğum dönəmlərdə, istərsə də ailə qurandan sonra məni ən gözəl Toğrul anlayardı. Həyatda haqqını ödəyə bilməyəcəyim insanlardandır. Hərbidə yollarımız ayrılsa da, həyatda dostluğumuz günbəgün daha da möhkəmlənirdi.

Mənim övladım Zəkəriyyə dünyaya gəldiyi gündən kirvəsinin Toğrul olmasını istədim. Toğrul da bu fikrimi çox gözəl qarşıladı. Hər ikimiz o gözəl günün çatmasını arzulayırdıq. Ancaq heçnə arzuladığımız kimi olmadı. Bir zəng mənim





Toğrulla bağlı bütün arzularıma nöqtə qoydu. "Toğrul şəhid olub" sözləri bu həyatda duyduğum ən acı xəbər oldu. Heç bilmirəm cahandan ağır olan o xəbərin ağırlığına ürəyim necə tab etdi. Ah Toğrul, kaş ki o gecə Ağdama getməsəydin, kaş silahdaşların səni o gecə getməyə qoymasaydılar – deyib öz-özümə gileyləndim. Ancaq bir gerçək var. Allahın bəndəni aparacağı şəhadət yolundan o kəsi heç bir bəndə döndərə bilməz.

Toğrulsuz Toğrulla xəyalını qurduğumuz o gün çatanda atdığım addımda Toğrulun izi hiss olunsun istədim. Toğrulun adını layiqincə yaşadan qardaşı Üzeyir oğlumun kirvəsi oldu. Bu qərarı vermək hər ikimiz üçün həm çətin, həm də məsuliyyətli idi. Toğrula layiq olmaq bizim ən ümdə amalımızdır.

# PEŞƏSİNDƏN BÖYÜK İŞİN İCRAÇISI

*Amalları eyni olan insanların atdıqları addımlar da eyni olur. Bir də o amal vətənlə bağlı olursa, onda bu eynilik daha da çoxalır. Bəzi qəhrəmanların həyatlarına nəzər saldıqda onların amallarına heyran oluruq. Hər addım vətən üçün. Hər nəfəs vətən üçün. O insanlardandırlar Toğrul Məmmədov və Polad İbrahimov.*

**Toğrulun dostu ehtiyatda olan mayor İbrahimov Polad Abbas oğlu:**

– Ürəyin dünyadan daha böyükdü,
Həsrət ürəyində ağır bir yükdü,
Sən getdin dünyama qaranlıq çökdü,
Adını səslədim Şuşa dağında,
Hey yerin görünür Qarabağımda...

Toğrulu uçmaz qala, nəinki özümə, vətənə dayaq bilirdim. O Allahın yaratdığı bir əsər idi.

Toğrul ilə tanışlığımız 2003-cü ildə Heydər Əliyev adına Hərbi Liseydə başladı. Məndən iki kurs aşağı oxuyurdu. Ancaq bacarıqlı olmağı onun özündən böyüklərlə addımlamağına səbəb olurdu.

Liseydə hər bir müəllim və şagird yaxşı bilirdi ki, ən çətin tapşırıqların öhdəsindən gələ biləcək kursantlardan birincisi Toğruldu. İstər idman sahəsində, istərsə də təhsildə Toğrul bacarıqlı idi. Bir sözlə, əsl zabit xüsusiyyətləri onda cəmlənmişdi.

Liseyi bitirdikdən sonra mən AAHM-ə getdim. İki il sonra Toğrul da AAHM-ə gəldi. Daha sonra TTM-ə getdim. Mən xidmətə Bakı şəhərində yerləşən N saylı hərbi hissədə başladım. Toğrul isə TTM-i bitirdikdən sonra Ağdama getdi.





Bir-birimizi hərbi hissələrimizdə ziyarət edirdik. Həm dost kimi, həm də silahdaş kimi. Hər kəs bizim xalaoğlu olduğumuzu düşünürdü. Doğmalıq, dostluq bağımız o qədər möhkəm idi ki, ətrafdakılarda elə fikir formalaşmışdı. Sədaqət, dürüstlük, müdafiə etmək duyğusu onun ən fərqli və gözəl yönü idi. Bir sözlə, insanlığı Toğrulu insanlardan fərqləndirirdi.

Bizim qismətimizdə eyni hərbi hissədə bölük komandiri kimi xidmət etmək də var imiş. 2014-cü ilin yayında Toğrul mənim bölük komandiri olduğum hərbi hissəyə ikinci bölük komandiri kimi gəldi. Toğrulla ən gözəl günlərimiz ondan sonra başladı. Bakının ayrı-ayrı yerlərində hər ikimiz kirayə ev tutmuşduq. Gah mən onun yanında, gah da o mənim yanımda qalırdı.

Toğrulun bacarığı heç kimin gözündən yayınmırdı. Müdafiə Nazirliyi də belə bir zabitin zəhmətini görürdü. Elə Müdafiə Nazirliyinin göstərişi ilə Toğrul Məmmədov baş leytenant

hərbi rütbəsində olsa da, mayor rütbəsinin işini icra edirdi. Bu ona olan güvənin bariz nümunəsi idi.

2016-cı ildə mən Sülhməramlı Qüvvələrin mühəndis xidmətinin rəisi kimi başqa hərbi hissəyə göndərildim. Məndən iki ay sonra isə Toğrul Ağdama qayıtmaq qərarına gəldi. Onu bu fikrindən daşındırmaq mümkün olmadı. Toğrul cəbhə bölgəsindən uzaq qala bilmədiyini əsas gətirərək mühəndis-istehkam xidmətinin rəisi kimi Ağdama getdi. Həm yaşından, həm də peşəsindən böyük işi icra edən Toğrul Azərbaycan ordusuna böyük töhfələr verdi. Həm öz etdikləri ilə, həm də davamçılarının etdikləri ilə.

Toğrul aylar öncə kapitan hərbi rütbəsinə layiq görülməli idi. Ancaq onun qismətində bu rütbəni daşımağın sevincini yaşamadan şəhid olmaq var imiş.

12 iyul 2016-cı il mənim Toğrul ilə son dəfə görüşdüyüm gün kimi yaddaşıma həkk oldu. Həmin gecə bir neçə dost oturub xoş anlar yaşadıq. Sən demə Toğrula əbədi vida edirmişik. Toğrul və digər hərbçi yoldaşla vidalaşıb onları cəbhə bölgəsinə yola saldım. İyulun 14-ü, gecə iki gün öncə Toğrulla bərabər oturub, deyib-güldüyüm yerdə təkrar oturdum. O an mənə bir zəng gəldi. "Başın sağ olsun, Toğrul şəhid oldu" sözlərini duyduğum an gözlərimin önündə Toğrulun gülən çöhrəsi canlandı. Cəmi 48 saat öncə gülüş səslərimiz ucalan yerdə mənim hıçqırıq səsim duyuldu. Həyatın təzadı budur...

Dostlarla birlikdə Toğrula son vəfa borcumuzu yerinə yetirdik. Hər kəs öhdəsinə bir iş götürmüşdü. Mən də dostumun tabutu önündə gedəcək şəklini hazırlatmalı idim. Toğrulu şəkildən seyr etmək, Toğrulun şəklini qucaqlamaq çox ağır gəlirdi... Həmin gün bir neçə dostla bərabər Toğrulla son dəfə yola çıxdıq. Toğrul bayrağa bürünmüş tabutda, biz isə Toğrulun hüznünə qərq olmuş halda. Heç asan deyildi ata-ana tabutuna sarılan bacı və qardaşa şəhid qardaş tabutu təhvil vermək. Mən o gün bildim çarəsizliyin nə demək olduğunu.



# ETİBARLI DOSTLAR

*Həyatda heçnə təsadüfən yaşanılmır. Yaşanılan hər hadisə həyatımızda əhəmiyyətli bir iz buraxır. Bəzən sevincli, bəzən kədərli. Bəzən yaşanılan o an böyük bir həyat dərsi verər. Yaxşı və ya pis. Bəzən yaşanılan o an dünyada ən böyük dəyəri sənə qazandırır. Elə Ruslanla Toğrulun ilk qarşılaşmasında olduğu kimi. Onlar ən böyük dəyəri, dostluğu qazandılar.*

**Toğrulun AAHM-dən kursant yoldaşı Səfərov Ruslan Nazim oğlu:**

– Toğrulla Heydər Əliyev adına Hərbi Liseydə oxuduğum zamanlarda tanış oldum. Kursant yoldaşı kimi başlayan münasibətimiz dostluğa çevrildi. Zamanla dostluğumuz möhkəmləndi. Liseyi bitirəndə həyat yollarımız ayrılsa da, dostluğumuz davam etdi. Mən başqa bir işdə çalışdım, Toğrul isə hərbçi kimi ömrünü vətənə həsr etdi. Toğrul məzuniyyətə çıxandan-çıxana onu görə bilirdim. Hər dəfə məzuniyyətə gələndə görüşürdük. Əziz dostum mənim digər dostum Səxavətlə birlikdə qaldığımız kirayə evdə bizimlə qalardı. Toğrul hər kəsin qəlbinə yol tapmağı bacarırdı. Elə Səxavətin də qəlbinə yol tapdı və onlar da dostlaşdılar.

Həyat qəribədir. Mən heç vaxt bilməzdim ki, şəhid xəbəri o qədər ağır olur. Cəmi iki gün öncə danışdığım, ***"Yaxın günlərdə təkrar Bakıya gələcəm. Onda mütləq görüşərik"*** vədi verən dostumun şəklini sosial şəbəkədə "Şəhidimiz var" başlığı altında gördüyüm anda nə edəcəyimi bilmədim. Bu xəbərə inanmadım. Dua etdim ki, yalan olsun. Ancaq təəssüf ki, xəbər təsdiqini tapdı. İlk ağlıma Səxavət gəldi. Zəng edib Toğrulun şəhid xəbərini vermək çox çətin idi.

Həmin gün çətinliklə Naxçıvana bilet tapa bildik. Deməkolar ki, həmin gün təyyarənin sərnişinlərindən çoxu Toğrulu deyib Naxçıvana gedənlər idi. Toğrulu sükuta qərq olmuş halda, bir məzarda görə biləcəyim heç vaxt ağlıma gəlməzdi. Ağlıma gəlməyən başıma gəldi. Dostumun şəhid məzarının qarşısında diz çökən anda heç düşünmədim ki, altı il sonra öz ocağımızdan da vətənə qurban verəcəyik. Hətta bir deyil iki qurban. O vətən qurbanlarının biri qardaşım Səfərov Şahmar Nazim oğlu, digəri isə əmioğlum Səfərov Cəsarət Xaliq oğlu oldu. Dost dərdi ilə yanan ürəyim bir də qardaş və qardaş qədər doğma olan əmioğlu dərdi ilə yandı.

**Toğrulun dostu İsmayıllı Səxavət Qafqaz oğlu:**

– Toğrul ilə tanışlığımız Ruslan sayəsində oldu. Zamanla o tanışlıq dostluğa, dostluq isə doğmalığa çevrildi. Hər dəfə məzuniyyətə gələndə biz çox sevinirdik. Əziz dostumuzun gəlişindən böyük sevinc ola bilməzdi. Toğrul ilə bərabər ötən anlar illərə bərabər olardı. Çünki dəyərli insanlar ötən anlar da dəyərli olur. Mən Toğrulu qardaşım qədər çox istəyirdim. Qardaşlarım isə Toğrulu onlardan da artıq istədiyimi deyirdilər. Axı istənməyəcək biri deyildi.

Son dəfə bir neçə günlük Bakıya gəldiyində yenə mənim yanımda qaldı. O bir neçə gün mənim həyatımın ən gözəl günləri oldu. Çünki dostumla son xatirələrimi o günlərdə yaşadım. Mən sonuncu dəfə Toğrul ilə zarafatlaşıb, gülə-gülə evdən çıxdım. Bilməzdim ki, cəmi iki gün sonra Toğrulun şəhid xəbərini eşidəcəm. Yuxudan oyananda Ruslandan gələn çoxsaylı zəngləri gördüyümdə ürəyim əsdi. Tez Ruslana zəng etdim. Duyduqlarım qarşısında göz yaşlarıma hakim ola bilmədim. *(Heç danışarkən də o göz yaşlarına əngəl olmaq mümkün olmadı.)* Bir neçə yerdən maraqlandım. İnanmaq istəmədiyim o xəbərin doğru olduğunu duymaq məni paramparça etdi.

Hər zaman sevinə-sevinə getdiyim Naxçıvana ilk dəfə göz yaşı tökərək getdim. Ruslanla birlikdə əziz dostumuzun ziyarətinə tələsdik. Dost deyil dost məzarı ilə rastlaşdıq. O anın ağrı-acısını izah etməkdə acizəm.



Toğruldan sonra həyat mənim üçün dəyərini itirdi. Hər yerdə gözlərim onu axtarırdı. Bir zamanlar Toğrul ilə bərabər getdiyimiz yerlərə Toğrulsuz getmək dözülməzdir.

Toğrul mənim, mən Toğrulun toyunu görməyi arzu edirdik. Mən öz toyumda sevincdən gen düşdüm. Ürəyim qan ağlayırdı. Hər an Toğrul zala daxil olacaq deyə gözlərimi qapıya dikmişdim. Ancaq gəlmədi. O gün dost əli çiynimdə olmadı. Toydan bir müddət sonra Toğrul yuxuma gəldi. ***"Biliräm, toyunda gəlişimi gözlədin. Mən nəinki toyunda, hər zaman sənin yanındayam. Sən məni görə bilmirsən"*** dedi. Yuxudan oyananda bunun bir işarə olduğunu düşündüm. Ailəmizə gələcək yeni nümayəndəyə Toğrulun adını əmanət edəcəyimi dedim. Bu mənim üçün veriləbiləcək ən çətin və məsuliyyətli qərarlardan biri idi. Çünki bilirdim ki, bir şəhid adı daşıyan övladı böyütmək asan deyil. Hələ o ad qardaş, dost dediyin şəhidin adıdırsa.



# TOĞRUL ADI TƏSƏLLİDİR

*Bəzi gedişlər var. Ardında dönüşünün izi olmasa da, olacağı ümidi heç vaxt ölməyənlər. Bir gün mütləq yaşananların təkrar yaşanılacağını yaşamaq üçün acı çəkərək yaşayanlar. Acısını təbəssüm ilə ört-basdır edərək daxilən yoxluğun hədəfinə çevrilənlər. Yoxu var kimi qəbul edib, yoxdan var kimi danışanlar.*

*Bu günə qədər neçə-neçə Toğrul həsrəti çəkəndən Toğrulu soraqlamışam. Əflatun müəllim də onlardan biri oldu. Ancaq Əflatun müəllim Toğruldan elə danışdı ki, kənardan dinləyən olsa, elə sanardı ki, Toğrul bu dünyadan əbədiyyətə köçməyib. Əslində, mən bilirdim ki, dilə gələn o kəlmələrin ardında hansı acılar gizlənir. Elə ən ağrılısı yoxu var kimi qəbullanmaqdır.*

**Toğrulun AAHM-dən kursant yoldaşı mayor Məmmədov Əflatun Mübariz oğlu:**

– "Əmioğlu" Toğrulla bizim dostluğumuzun təməlində bu söz durur. 2005-ci ildə Azərbaycan Ali Hərbi Məktəbində sıraya düzüldüyümüz zaman 13 kursantdan Toğrul və mənim Məmmədov soyadını daşıdığımız məlum oldu. Həmin vaxt Toğrul mənə ***"Əmioğlu"*** deyərək səsləndi. Dediyi ***"Əmioğlu olmaq üçün qan bağı o qədər də önəmli deyil. Əsas odur ki, can bağı ilə doğmalaşasan"*** sözləri ürəyimi riqqətə gətirdi. Elə o zaman hiss etdim ki, Toğrul fərqli biridir. Zaman keçdikcə o fərqlilik daha aydın şəkildə sezilməyə başladı. Dürüstlüyü, fədakarlığı, cömərtliyi onu fərqləndirən cəhətlərdən idi. Dostluğumuz çətinlikdən, sınaqlardan üzüağ çıxa-çıxa qəlbimizdə dost adı möhürləndi.

Toğrulla hər ikimiz mühəndis-istehkamçı olmaq niyyətində idik. Əslində, bizim daha bir ayrılmaz, sadiq dostumuz var idi. Həmin dostumuz, Toğrul və mən, demək olar ki, birgə addımlayırdıq. Həftənin tək günləri idmana gedir və idmanın güləş növü ilə məşğul olurduq.



Toğrulla bağlı nə qədər xatirələrim var. Heç bilmirəm hansını dilə gətirim. Çörəyimiz, suyumuz bir idi. Yeri gələndə bir dönəri üç yerə bölüb yeyirdik. Heç bir yoxluq bizə güc gələ bilmirdi. Ancaq indi Toğrulun yoxluğu...

AAHM-i bitirdikdən sonra birlikdə TTM-ə getdik. Orada da birlikdə addımladıq. Kirayə ev tutub birlikdə qaldıq. TTM-i bitirdikdən sonra yollarımız tam başqa istiqamətlərə ayrıldı. Mən təyinatla doğulduğum Beyləqandan fərqli olan Qusara, Toğrul isə Naxçıvandan fərqli olan Ağdama göndərildik. Ondan sonra Toğrulun mənim üçün qayğıları artdı. Özü düşmənlə üz-üzə olsa da, hər gün mənə zəng edib bəzi məsləhətlər verirdi. Dostunu, doğmasını daha çox düşünən Toğrul heç vaxt o xüsusiyyətindən ödünc vermədi.

2014-cü ildə təyinatla Gədəbəyə getdim. Toğrulun nəvazişi yenə də məsafələri aşmağa yetirdi. Ancaq heç kim alın yazısından qaça bilmir. Mən də 2015-ci ilin sentyabrında alnıma yazılan ölüm-qalım mübarizəsinə qoşulmalı idim. Həmin o dönəmlərdə mən xidmətdə olan zaman düşmən yenə təxribata əl atdı. Mənim idarə etdiyim maşını atəşə tutdular. Maşında olan iki hərbçiyə özlərini maşından atmaqlarını dedim. O addımın sayəsində hər iki hərbçinin həyatda qalmaqlarına daha çox şansı yarandı. Özüm isə maşında dərəyə yuvarlandım. Ağır xəsarətlər aldığım üçün iki gün komada oldum. Türkiyənin Gülhanə Hərbi Tibb Universitetində müalicə aldığım vaxtlarda Toğrul valideynlərimin narahat olmamaları üçün bəzən yalan danışmaq məcburiyyətində qalıb. Toğrul həm valideynlərimə, həm də mənə güc verirdi. Onun bir zarafatı bütün acılarımı unutdurdu. Beləcə bir neçə ay həyatda qalmaq mücadiləsindən sonra səhhətimlə əlaqədar müvəqqəti məzuniyyətə çıxmalı oldum. O dönəmlərdə Aprel döyüşləri baş verdi. Neçə-neçə silahdaşımla bərabər sirdaşım, qardaşım Toğrul o döyüşlərdə mücadilə etdi və ilk zəfərə səbəb olanlardan biri oldu. Lakin o zəfər yollarına neçə şəhidin qanı çiləndi. O qəhrəmanlardan biri də Nəcməddin Savalanov oldu. Nəcməddin şəhid olanda mən hələ

yeriyə bilmirdim. Ancaq heç bir şey Nəcməddinin əbədi vidasına getməyimə əngəl ola bilməzdi. Toğrul da bunu gözəl bilirdi. Elə ona görə də Toğrul gəlib məni Beyləqandakı evimdən götürdü və dost vidasına getdik. O qədər ağır idi ki...

Bir müddət sonra mən xidmətə geri döndüm. İyul ayında Toğrul ilə Bakıda xidmət rəislərinin toplantısına qatıldıq. 3 gün birlikdə zaman keçirdik. Sanki Allah mənə son dəfə bir şans verdi ki, Toğrulla zaman keçirim. Həmin vaxt şəkillər çəkdirdik. Mən bilməzdim ki, bir neçə gün sonra o şəkillərdən dost soraqlayacam. *(Bayaqdan dostundan həyatdaymış kimi danışan Əflatun müəllim o acı gerçəklə üz-üzə qaldı. Və...)*

Toğrulun şəhid olduğu xəbərini mənə digər dostum verdi. Bir dostdan digər dostun şəhid olduğu xəbərini duymaq çox ağırdı. Bir dosta da dostun şəhid olduğu xəbərini vermək çox ağırdı. Elə həmin an məzuniyyət götürüb Bakıya gəldim. Heç bilmirəm o yolu necə gəldim. Yolun sonunda dost cənazəsini görəcəyimi düşünmək mənə zülm verirdi. O tabutu gördüyüm an...

Həyatda elə izlər olur ki, nə xatırlamaq, nə də izah etmək asan olur.

Toğrulla son dəfə vidalaşıb əziz dostumuzu əbədi olaraq Naxçıvana yola saldıq. Ardınca bilet alıb ayrılmaz dostlar olaraq özümüz də Naxçıvana getdik. Ancaq bu dəfə torpaq Toğrulu bizdən ayırmışdı.

Naxçıvanda olduğum o müddətdə Əshabi-Kəhf ziyarətgahına getdim. Orada Allahdan dilədim ki, mənə üçüncü oğulu versin, mən o oğluma Toğrulun adını əmanət edib dostumun adını yaşadım. Çox şükür ki, o arzuma çatdım. Allah mənə üçüncü oğul övladını bəxş etdi. Mən oğluma Toğrulun adını verdim. Balaca Toğrul üç yaşında olsa da, daşıdığı adın mahiyyətini anlayır. Mən ona sual verəndə ki "Sən mənim nəyimsən?" cavabı "Dostunam" olur. Balaca Toğrul böyüyüb Xüsusi Təyinatlı Qüvvələrin bir zabiti olmaq arzusundadır. Deyir "Ermənilərin boynunu qıracam". Bu gün mənim yeganə təsəllim Toğrulla bağlı xatirələrim və Toğrulun adını daşıyan övladımdır. Bir şəhid can verər, min igid can tapar.



# ADI YAŞAYAN DOSTUM

*Heç yox kimi düşünmədim*
*Mən Toğrulu bu dünyada.*
*Allah onu layiq bildi*
*Şəhid kimi ali ada.*

*Həyatımın hər anına*
*Xatirəsi izin salır.*
*Dost odur ki, sonsuzadək*
*Dost qəlbində adı qalır.*

*Mən dünyada tutunmuşam*
*Toğrul adlı övladıma.*
*Oğlum da sadiq qalacaq*
*Daşıdığı o adına.*

*Qoymayacaq yerdə qalsın*
*Toğrulun qan qisasını.*
*Qəhrəmanlıq hey bəzəyir*
*Onun xəyal dünyasını.*

*Bu vətən çox yetişdirib*
*Toğrul adlı ərənləri.*
*Vətən, torpaq və bayrağı*
*Candan üstün bilənləri.*

*25.10.2022*



# PEŞƏSİNİN PEŞƏKARLARI

*Peşələrin ən çətini, məsuliyyətlisidir hərb peşəsi. Atdığın addım tək özünün deyil bəzən ətrafındakı silahdaşlarının, bəzən bütün hərbi hissənin, bəzən isə bütün xalqının həyatı üçün əhəmiyyət daşıyır. Hərb peşəsinin hər sahəsi çətindir, mühəndis-istehkam sahəsi isə ən çətin sahələrdən biridir. Bu sahədə xidmət edən iki şərəfli zabitin birini digərindən xəbər aldım.*

**Toğrulun silahdaşı ehtiyatda olan mayor Məmmədov Vüqar Rafiq oğlu:**

– Toğrul ilk dəfə təyinatla Ağdam rayonuna göndərildiyində mənim xidmət etdiyim hərbi hissədə xidmətə başladı. O zaman mən baş leytenant, Toğrul isə leytenant hərbi rütbəsində idi. İlk söhbətimiz zamanı hiss etdim ki, Toğrul orduya lazım olan bir zabitdir. Bu məni çox sevindirdi. Bir bölükdə bir taqımın komandiri mən, digər bölüyün taqım komandiri isə Toğrul oldu.

Toğrul ilk gəldiyi zamanlarda birlikdə bütün postları gəzdik. Ön xətlə tanış oldu. Gənc olsa da əməli, düşüncəsi yaşından çox böyük idi. Əlbəttə ki, bu da məni çox sevindirirdi. Bilirdim ki, fərqli istiqamətə göndəriləcəm. Artıq Toğrulun varlığı məndə arxayınlıq yaratmışdı. Mən getsəm də, Toğrul işlərin öhdəsindən gələ biləcəkdi.

Toğrulla bərabər uğurlu əməliyyatlarımız da oldu. Ancaq biz o əməliyyatları heç zaman dilə gətirmədik. Çünki biz etdiyimizi dilə gətirmək üçün yox, vətən naminə edirdik.

Bir müddət sonra Toğrulla yollarımız ayrıldı. Vətənin keşiyini ayrı-ayrılıqda çəkirdik. Mən gözləmədiyim zamanda Toğrulun şəhid xəbərini aldım. O dönəmlərdə Murovda xidmət edirdim. Ağdamdan olan bir tanışım gecə saatlarında mənə

zəng edib Toğrulun şəhid olduğunu dedi. O an ürəyim yanır sandım. Heç Murovun gecəsinin soyuğu da o yanğıya çarə ola bilmədi. Çünki Azərbaycan ordusu böyük bir kadr itirdi.

Toğruldan sonra illərlə xidmət etdim. 2020-ci ilin martında ehtiyata buraxılsam da, Vətən müharibəsində ilk döyüşə atılanlardan oldum. Talış, Suqovuşan istiqamətində mübarizə apardım. O döyüş Toğrul və onun kimi şəhidlərin arzuları idi. Biz özümüzlə bərabər şəhidlərimizin də arzularını həyata keçirdik.





## HÜNƏRİ İLƏ ZƏFƏRƏ YOL AÇAN QƏHRƏMAN

*Hörmət qazanmaq üçün hörmət etməyi bacarmaq lazımdır. İlk öncə insan özünə hörmət etməlidir. Özünə hörmət edən şəxs qarşısındakı şəxsə də hörmət edər və hörmət görər. Peşəsinə hörmət edən şəxs isə hər zaman seçilməyi bacarar. Fərqi yoxdur hansı peşənin icraçısı olursan ol, o peşəni layiqli şəkildə icra etməlisən. Bütün bu öncəliklər Toğrulun həyat prinsipləri idi. Elə ona görə də hər zaman hər kəs tərəfindən hörmətlə qarşılanardı. İstər yaş, istərsə də peşə baxımından özündən böyüklərin rəğbətini qazanmışdı. Çünki "Toğrul xidmətinin hörmətini saxlayırdı".*

**Korpusun mühəndis-istehkam xidmət rəisi, hazırda Müdafiə Nazirliyinin şöbə rəisi – İdarə rəisinin müavini polkovnik Sulxayev Rəfail Əli oğlu:**

– Toğrul Məmmədov haqqında ilk cümləm bu olar "Toğrul hünəri ilə zəfərə yol açanlardan biridir". Ciddiyyəti məsuliyyətə, məsuliyyəti səriştəyə, səriştəsi isə qalibiyyətə təkan oldu.

Mən 2011-ci ildə Bərdə korpusunda mühəndis xidmət rəisinin müavini kimi xidmətə başladığımda Toğrul Ağdam rayonunda yerləşən N saylı hərbi hissədə taqım komandiri idi. İlk tanışlığımızda ürəyinin təpərinin biləyinin gücü ilə tən olduğunu gördüm. Sonra mən xidmət rəisi təyin olundum. Toğrul ilə münasibətlərimiz güvəndən yaranan bağlarla daha da möhkəmləndi. Bir müddət sonra Toğrul təyinatla Bakı şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə göndərildi. Ancaq bizim bağlarımız qopmadı.



Hələ Bakıda olduğu müddətdə tez-tez əlaqə saxlayardıq. Hər dəfə ***"Mən döyüş bölgəsində xidmət etmək istəyirəm"*** deyirdi. Məmmədov 2014-cü ilin sonunda o arzusuna çatdı. Onun döyüş bölgəsində və dost kimi çiyin-çiyinə xidmət etmək istəməsi xidmətdə yenidən yollarımızı kəsişdirdi. Tabeliyimdə olan hərbi hissələrdən ən nümunəvi mühəndis-istehkam rəisi Toğrul Məmmədov idi. Xidmət etdiyi hərbi hissədə mühəndis təminatının planlaşdırılmasının həyata keçirilməsində fəal iştirak edən Toğrul, eyni zamanda da döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsində digərlərindən fərqlənirdi.



2014-cü ildə mən düşmənin Tərtər rayonu istiqamətində törətdiyi təxribatın qarşısını alarkən baş nahiyyəmdən düşmənin snayper atəşinə tuş gəldim. O zaman məni ilk axtaranlardan biri Toğrul oldu. Heç düşünməzdim ki, cəmi iki il sonra Toğrul da eyniylə düşmən atəşinə tuş gələr. Ancaq məndən fərqli olaraq onun ömür yolu şəhadətə çatdı.

Toğrul Məmmədov idarəçiliyi gözəl bacarırdı. Həm qayğıkeş idi, həm tələbkeş. Əlbəttə ki, onun əsgərləri ilə davranışı bizim gözümüzdən yayına bilməzdi. Hər zaman əsgərlərinin üstünlüyü üçün çalışardı. Liderlik xüsusiyyəti üstün idi. İstəyirdi ki, tabeliyində olan əsgərlər hər sahədə (davranış, geyim, bilik və. s ) seçilsinlər. Buna da nail olurdu. Onun idarəçilik bacarığı ailədən gəlirdi. Qardaş, bacısına valideyn nəvazişi ilə yanaşması ona olan güvəni daha da artırırdı. Adətən, subay olan hərbçilərə rəis vəzifəsini icra etmək tapşırılmır. Çünki onlar atalıq qayğısını bilmirlər. Toğrul isə o qayğının nə demək olduğunu anlayırdı. Bütün yüksək xüsusiyyətləri özündə cəm edən Toğrul o müsbət xüsusiyyətə də malik olduğu üçün baş leytenant hərbi rütbəsində mühəndis-istehkam bölüyünün rəisi vəzifəsini icra edirdi. Müdafiə Nazirliyinin Mühəndis Qoşunları baş idarəsinin rəisi general-mayor Kərimov Anar Təvəkkül oğlu da Toğrulu həm hərtərəfli bacarıqlı bir zabit kimi, həm də əsgərlərə valideyn kimi qayğı göstərən insan kimi yüksək dəyərləndirirdi. Ümumiyyətlə, Toğrul rütbəsindən asılı olmayaraq hər kəs ilə yüksək insani keyfiyyətləri ilə doğmalaşmışdı.

Toğrul Məmmədov ön cəbhədə xidmət etməyi üstün tutur və öz istəyi ilə də ön cəbhədə xidmət edirdi. Hər zaman təhlükə ilə üz-üzə qalsa da, qorxmazlığı ilə öz sözünü deyirdi. Əsgərləri qorumaq öncəliyi idi. Elə o səbəbdən də əsgərlərinin yanında olmaq üçün həmin gecə hadisə baş verən yerə tələsdi.

Cəmi bir gün öncə görüşmüşdük Toğrul ilə. Həmin vaxt mən Bakıda xidmət edirdim Toğrul isə Ağdamda. Səhəri günü gecənin sonuna doğru Toğrulun şəhid olduğu xəbərini eşidəndə əvvəlcə məlumatın doğruluğuna inanmadım, inanmaq istəmədim. Ancaq qısa müddət sonra məlumatın doğru olduğu təsdiqləndi. Heç hazır deyildim o xəbəri eşitməyə. Heç Azərbaycan Ordusu da Toğrulu itirməyə hazır deyildi. Çünki Toğrul kimi bir zabitin yetişdirilməsi asan deyil ki, itirmək də asan ola.

Bəzi insanlar izahsız olur. Mən bu gün bunun daha çox fərqinə vardım. Nə qədər Toğrulun qəhrəmanlığını izah etməyə çalışsam da, bilirəm ki, sözlər yetərsiz qalır.





## SƏNGƏR QƏHRƏMANI

*Bir qəhrəmanı ən yaxşı onun kimi qəhrəman izah edə bilər. Çünki atılan addımın nə qədər çətin, məsuliyyətli olduğunu o addımı atanlar bilər. Bəzən Toğrul ilə birlikdə, bəzən isə ayrı-ayrılıqda atılan o ömrə bədəl addımlardan danışmaq üçün Rüstəm müəllimin könül qapısını döydüm. Toğrulun göstərdiyi şücaətləri dinlədikcə vətənin necə bir qəhrəman itirdiyi gerçəyi daha ağır gəldi. Axı bu vətənin Toğrul kimi oğula bu gün də ehtiyacı var.*

**Toğrulun mühəndis-istehkam xidmətinin rəisi, ehtiyatda olan polkovnik Hacızalov Rüstəm Tofiq oğlu:**

– Bizim peşəmiz səhvi sevmir. Səhv ömrə bədəl olur. Ən yaxşı halda isə əzalarından olursan. Bir sözlə, biz bu peşəni seçdiyimiz zamandan şəhid və qazi olmağa hazır oluruq. Hər addımı düşünüb atırıq. Ancaq özümüz üçün deyil, vətən üçün.

2011-ci ildə təyinatla Ağdam rayonunda yerləşən N saylı hərbi hissəyə mühəndis-istehkamın rəisi təyin olundum. Getdiyim ilk gündən diqqətimi çəkən leytenantlardan biri və demək olar ki, birincisi Toğrul oldu. O zabitin iradəsinə heyran oldum. Hər addımda öyrənməyə can atan Toğrul bütün addımlarımda mənimlə birlikdə addımlayırdı. Hər ikimiz gözəl bilirdik ki, Toğrulun hələ öyrənməli olduğu çox nüanslar var. Demək olar ki, qısa müddətdə Toğrul çox hərbi biliklərə yiyələndi. Bir mühəndis-istehkamçının bilməli olduğu detalları tez bir zamanda öyrənən Toğrul təkbaşına əməliyyatları icra etməyə başladı. Əlbəttə ki, bir komandir kimi Toğrula ümidim və rəğbətim günbəgün artırdı.

Toğrul poladiradəli bir zabit idi. Xarici görünüşü ilə daxili dünyası bir-birini tamamlayırdı. Ürəyinin gücü ilə biləyinin gücü bərabər idi. Çətin tapşırıqların öhdəsindən gələcəyinə inandığımız üçün hər zaman daha çətin və məsuliyyətli tapşırıqları Toğrula həvalə edirdik. Çünki o işinin professionalı idi. Bozqurd kimi məğlub olmağı sevmirdi. Elə baxışları da sərt və ürküdücü idi. Əbəs deyildi, irəliləyən illərdə düşmənin Toğrulun məhv edilməsi üçün öz ordusuna xüsusi tapşırıq verməsi. Çünki Toğrul düşmən üçün böyük təhlükə mənbəyi idi.

Toğrul ilə iki il müddətində bərabər xidmət etdik. Bir çox uğurlu əməliyyatlara imza atmaq bizə qismət oldu. O, heç vaxt məni tək buraxmazdı. Gecə-gündüz, yay-qış, isti-soyuq demədən hər zaman Toğrul səngərdə idi. Çox zaman məni önə qoymaz, özü məndən öndə gedərdi. Çünki o dəyər verdiyi insanları özündən daha çox düşünərdi.

Toğrulun çox böyük hədəfləri var idi. O hədəflərdən biri də Xüsusi Təyinatlı Qüvvələrin zabiti olmaq idi. Bir XTQ olmaq üçün Toğrulun təpəri var idi. Əslində, hər kəs onun verdiyi qərarı verəcək qədər cəsarətli olmur. Çünki Xüsusi Təyinatlı Qüvvələrin zabiti olmaq məsuliyyətin ən pik nöqtəsidir. Toğrul verdiyi qərarın ardınca getdi. Bütün mərhələləri uğurla tamamladı. Sonuncu mərhələdə isə Toğrul böyük bir əskiklik yaşadı. Ayağının üstə dirəyin aşması nəticəsində ayağından ciddi zədə alması səbəbindən son mərhələni saxlamaq məcburiyyətində qaldı. Çox məyus oldu. Çünki o çıxdığı bütün yolları uğurla tamamlamaq üçün həmin yola addım atırdı. Ancaq Toğrula olduğu yerdə də çox ehtiyac var idi. Ona görə də Toğrul növbəti uğurlu əməliyyatların icrasında yenə də öndə getdi.

Baş leytenant hərbi rütbəsində olsa da, Toğrul daha böyük işlərin öhdəsindən gəlirdi. Elə ona görə də hər kəslə yanaşı, komandir Raquf Orucovun da rəğbətini qazanmışdı. Onun yeri gəldiyində dizin-dizin sürünərək işinin öhdəsindən





gəlməsi heç kimin diqqətindən kənarda qala bilməzdi. Həm mühəndis-istehkamın taqım komandiri Toğrul Məmmədov, həm də mühəndis-istehkamda ləğvetməni icra edən Nəcməddin Savalanov, demək olar ki, hərbi hissənin görən gözləri idilər. Hər ikisinin də böyük xidmətləri oldu.

Mən 2013-cü ilə təyinatla Bakı şəhərinə göndərildim. Düşmənlə üz-üzə olan hərbi hissədə Toğrul Məmmədov kimi bir zabitin olmasından arxayın idim. Bilirdim ki, Toğrul bütün çətinliyə sinə gərə biləcək qüdrətə sahibdir.

2014-cü ildə Toğrul Məmmədov da təyinatla Bakıya göndərildi. İki il Bakıda xidmət etsə də, o özünü çox narahat hiss edirdi. Hər dəfə danışdığımız zamanı ***"Ön cəbhədə mənə daha çox ehtiyac var. Mən ön cəbhəyə gedəcəm"*** deyirdi. Uzun illər ön cəbhədə xidmət etdiyini deyib onun ürəyini rahatlatmaq istəsəm də, o getməkdə israrlı idi. Elə dediyi kimi də etdi.

2015-ci ilin sonunda Toğrul Məmmədov öz istəyi ilə yenidən Ağdam istiqamətinə getdi. Bir zamanlar mənim mayor rütbəsində icra etdiyim mühəndis-istehkam rəisi vəzifəsini Toğrul Məmmədov baş leytenant hərbi rütbəsində icra etməyə başladı. Toğrulun bacaracağından əmin idim. Çünki

Toğrul vətən səngərinin daşına, kəsəyinə dəyə-dəyə möhkəmlənmişdi.

Hər zaman deyirdi ki, ***"Gün gələcək, hər kəs məni tanıyacaq"***. Elə dediyi kimi də oldu. Elə bir addım atdı ki, hər kəs onu tanıdı. Həm də bir qəhrəman kimi, bir şəhid kimi tanıdı.

Toğrulun şəhid olduğu xəbərini İmişlidən olan Vüqar Məmmədov zəng edərək mənə dedi. Mən Toğrulun düşmən atəşinə tuş gələ biləcəyinə inanmadım. Hava limanına getdiyimdə də inanaraq getməmişdim. Orada mən vurulanın Toğrul olmasına inanmağım üçün gözlərimlə görməliyəm-dedim. Toğrulun şəklini göstərdikləri an inanmaq istəmədiyim acı gerçəklə üz-üzə qaldım.

Vətən üçün yaşayan Məmmədov Toğrul Səyyad oğlunu son dəfə Bakıdan Naxçıvana yola saldım. Bir daha görüşməyəcəyimizi bilə-bilə...





## QURBANIN OLUM, VƏTƏN

*Qurbanın olum, vətən,*
*Andım, amalım sənsən.*
*Hər zərrə, qarışınla*
*Köksümdə döyünənsən.*

*Gözlərim baxa-baxa*
*Qalmısan yad əlində.*
*Bilirəm Xocalıtək*
*Qoparılıb dilin də.*

*Ağdamın bir üzünə*
*Günəşin nuru düşmür,*
*Gör neçə illərdi ki,*
*Bəxt yazısı dəyişmir.*

*Hər gecə atəş səsi,*
*Neçə yuxunu bölür.*
*Oğullar şəhid olur,*
*Xəyallar isə ölür.*

*Qurbanın olum, vətən,*
*Bilirəm, yaralısan.*
*Düşmən əlində qalmaq,*
*Bilirəm, deyil asan.*

Mənə də asan deyil
Səni həsrətlə süzmək.
Ah vətən, oğulların
Sənə kömək edəcək.

Mən də qurban bilirəm
Öz canımı canına.
Sənin sinən boyanıb
Çox şəhidin qanına.

Sən yaşa, biz fədai
Doğulmuşuq əzəldən.
Təki işğal kəlməsi
Silinsin lüğətlərdən.

14.11.2022





## AVQUST DÖYÜŞLƏRİ

Bizlərin bu gün bir tarix olaraq öyrəndiyimiz dünənləri yaşayan da yazan da qəhrəmanlardır. İstər uzaq, istərsə də yaxın geçmişdə vətənimizə göz dikən yağı düşmənlərin törətdikləri faciələr saya gəlməyəcək qədər çoxdur. Bəzən isə qəhrəman oğullar canlarını fəda edərək düşmənin törədə biləcəyi daha böyük bir faciənin qarşısını almışlar. O qəhrəmanlığın yaşanıldığı, qan ilə yazıldığı tarixlərdən biri də 2014-cü il iyulun 31-dən avqustun 1-nə keçən gecədir. Azərbaycan hərb tarixinə Avqust döyüşləri kimi yazılan döyüşlərdə Azərbaycan Ordusu 13 şəhid verdi.

Vətən torpağının keşiyini çəkən hər oğul yaxşı bilir düşmən gecələr daha çox hiyləyə əl atır, daha çox azğınlaşır. Düşmənin hər an atəşkəsi poza biləcəyini və həmin an nələr etmək lazım olduğunu Toğrul tabeliyində olan əsgər və zabit heyətinə başa salmışdı. İyulun 31-dən avqustun 1-nə keçən gecə düşmən mühəndis işləri görən dəstəyə hücuma keçir. Həmin vaxt şəxsi heyətin əsgərləri arasında şəhid olanlar və yaralananlar olur. Avqust döyüşlərinin başladığı andan Toğrul Məmmədov briqada komandiri Raquf Orucovla birlikdə düşmənə qarşı vuruşaraq döyüşün daha geniş vüsət almamasının bilavasitə səbəbkarlarından olur. Azərbaycan ordusunun şəhid olan 13 hərbi qulluqçusu: kiçik gizirlər Əhmədov Elçin Rasim oğlu, Hüseynov Rahil Əfsər oğlu, gizir Almazov İsə Ziyad oğlu, əsgərlər İbrahimov Elnur Mühəddin oğlu, Rəhimov Əli Fətulla oğlu, Əhmədov Qaryağdı Eldar oğlu, Coşqunov Mustafa Əhmədcan oğlu, Əliyev Pərvin Səlahəddin oğlu, Məmmədov Səftər Əlihüseyn oğlu, Quliyev Sənan Qeyrət oğlu, Qarazadə Anar Vidadi oğlu, Abdulov Hüseyn Etibar oğlu və Poladov Vüqar Hidayət oğlunun qisası alınaraq





düşmənin 100-dən artıq canlı qüvvəsi məhv edilir. Düşmən böyük itki verərək geri çəkilir. Beləliklə, Azərbaycanın rəşadətli ordusu zəfərə qan ilə imza atır. O döyüşlərdə Toğrul Məmmədov da cismini vətənə tuşlanan atəşlərə sipər edir. Ancaq onun dəstəsindən dörd əsgərin şəhid olmağı ürəyini daha ağır yaralayır. Əsgərlərə bir ata, qardaş nəvazişi ilə yanaşan Toğrul öz övladlarını itirmiş kimi acı çəkir. Şəhadətin hər kəsə qismət olmadığını yaxşı bilən Toğrul şəhid oğulların qisasını yerdə qoymur. Bu qanların bədəlini düşmənə dəfələrlə ödədir. Düşmənin qorxulu yuxusuna çevrilən Toğrul bu günə qədər sirr qalan neçə hərbi əməliyyatı uğurla tamamlayır. Elə o uğurlu əməliyyatlar sayəsində zəfərə gedən yolun təməli qoyulur.

# VƏTƏN XİLASKARI

Elə vətən üçün gəldin dünyaya,
Sevginin ünvanı oldu bu vətən.
Vətən səngərində ötən illərin
Hər anı min ilə oldu sanki tən.

Həyatda çəkdiyin bütün həsrətin
Məlhəmi bilirdin sən azadlığı.
Qəlbində intiqam əkib-biçirdin
Tapdaqda gördükcə sən Qarabağı.

Gözündə yox idi qorxudan əsər,
Kükrəsən, düşmənin ruhu əsirdi.
Vətənə azadlıq bəxş eləməkçün,
"Şirürəkli" oğul, sən tələsirdin.

Avqust döyüşləri getdiyi zaman
Sən döndün şəhidlər şahidi kimi.
On üç qəhrəmanın şəhid olmağı
Həmin vaxt yandırdı, Toğrul, qəlbini.

"Bir qarış torpaqdan keçmərəm!" deyib,
Aprel döyüşündə önə atıldın.
Qalib bir ordunun qəhrəmanıtək
Həmin döyüşlərdə sən zəfər çaldın.

Ancaq qismətində şəhidlik vardı,
Torpağın köksünə damladı qanın.
Sinəni atəşə sipər elədin,
Toğrul, xilaskarı oldun Ağdamın.

25.07.2022



# AVQUST DÖYÜŞLƏRİNİN ŞAHİDİ

*Peşəsindən asılı olmayaraq hər kəs gərək, ilk öncə, insan olmağı bacarsın. İnsani keyfiyyətləri üstün olanlar hər kəsin rəğbətini qazanmağı bacarırlar. Hər insana xas olmayan o keyfiyyətləri daşıyan Toğrulu fərqləndirən cəhətlərdən biri də elə budur. Toğrulun insani keyfiyyətlərindən pay alanlardan biri də Elçin Quliyevdir.*

**Toğrulun əsgəri qazi Quliyev Elçin Tahir oğlu:**

– Xidmətimin 3-cü ayında Gəncə şəhərində yerləşən N saylı hərbi hissədən Ağdam rayonunda yerləşən N saylı hərbi hissəyə göndərildim. İnanmıram, hər əsgərin şansı mənim kimi gətirərdi. Çünki hər əsgərin taqım komandiri Toğrul Məmmədov ola bilməz.

Mən Toğrul Məmmədovdan çox şeylər öyrəndim. İnsanlıqdan – peşəkarlığa...

İlk gün Toğrul Məmmədov yeni gələn əsgərlərə dedi ki, ***"Siz bir həftə bizim qonağımızsınız".*** O mühitə öyrəşməyimiz üçün əlindən gələni edirdi. Mən biraz zəif əsgər idim. Ona görə də mənə xüsusi diqqət yetirir, bir ata, qardaş kimi qayğımı çəkirdi. Gecə növbəsindən sonra əsgərlərin istirahətinə şərait yaradırdı. Heç bir əsgərin ev üçün darıxmağına göz yummazdı. Tez-tez bizi valideynlərimizlə danışdırırdı.

Toğrul Məmmədovun bütün əsgərlərə bir tapşırığı var idi. ***"Kimin nə problemi varsa, mənə desin."*** Onun tabeliyində özümüzü güvəndə hiss edirdik. Bizə düz yol göstərirdi. Bir dəfə əlinə "Ata" yazdıran əsgərə bunun düzgün olmadığını ***"Ata ələ deyil, qəlbə yazılar"*** sözlərini dilə gətirdi. O sözləri deyən zaman sanki səsi titrədi.

Heç yadımdan çıxmaz əsgər kimi keçirdiyim son bayram günü. Toğrul iyulun 31-də qoyun alıb qurban kəsdi. Özü





kabab çəkib bütün əsgərləri başına topladı. Elə orada da şəkil çəkdirdik. O şəklin mənim üçün böyük xatirəsi var. Həmin günün sonunda biz 12 nəfərlik heyətlə mühəndis-istehkam işləri görürdük. İşimizi bitirib maşınla geri döndüyümüz zaman düşmən bizi pusquya salıb, atəş açdı. Mən olan cərgənin kürəyi düşmənə tərəf olduğu üçün, demək olar ki, hər birimiz atəşə tuş gəldik. 3 əsgər mən olan cərgədə, 1 əsgər ön cərgədə gözlərimin önündə şəhid oldular. Mən də 6 güllə yarası və çoxsaylı qəlpə yarası aldım. Bizi təcili Sarıcalı hospitalına çatdırdılar. Bir anda Toğrul Məmmədovu başımın üzərində gördüm. Gözlərimi açıq saxlamağa gücüm yetmirdi. Ancaq danışılanları eşidə bilirdim. Şəhid sayını eşitdiyində komandirimin hönkürtü ilə ağladığını eşitdim. ***"Barı, yaralıları yaşadın. Mən bu əsgərləri də itirmək istəmirəm."***

Artıq susuzluqdan dilim qurumuşdu. Elə bil ki, alova qərq olmuşdum. O an su istədim. Komandirim mənə bir damla su

verdi. Çox su içməyim həyatımın sonu ola bilərdi. Həyatda qalmaq savaşımda Toğrul Məmmədov əlimi buraxmadı. ***"Yaxşı olacaq, Quliyev"*** dedi. Çətin əməliyyatlardan keçib həyata tutunmağı bacardım. Bir neçə dəfə komandirim yanıma gəldi. Məni dostlarına da tapşırmışdı. Sonra əlaqəm itdi. Uzun müddət sonra Toğrul Məmmədovun şəhid dostunun dəfnində olan videosunu izlədim. Cəmi bir neçə ay sonra taqım komandirim Toğrul Məmmədovun şəhid olduğunu öyrəndim. Mənim həyatda qalmağım üçün mücadilə edən qəhrəmanın özünün həyatdan köçdüyü olduqca ağır və ağrılı bir gerçəkdir.





# CANLI ŞƏHİDİN ƏLİL ARZULARI

*İnsan dünyaya bir dəfə göz açır. Bəzi insanlar isə həyatla vidalaşdıqları gün Allah onlara ikinci dəfə yaşamaq şansı verir və həyata qaytarır. Elə insanlara qaziləri şamil etmək olar. Şəhadətin biraddımlığından dönən qazilər ölüm duyğusunu yaşayanlardır. Əbəs deyilmir ki, "Qazilər canlı şəhidlərdir." Bu fikir ona əsasən deyilir ki, şəhid canını, qazi isə əzasını vətənə qurban edir. Bir qazinin kəm qalan əzasının torpağa qarışması onun bu dünyada əzab çəksə də, əbədiyyətdə mükafatlandırılacağına zəmin yaradır. Elə bütün çəkilən acıların təsəllisi də odur. Qazilərin ən böyük arzuları şəhid olduqları şəhidlərlə cənnətdə qovuşmaqdır. Elə Cəmilin də ən böyük arzusu cənnətdə Toğrula qovuşmaqdır.*

**Toğrulun silahdaşı qazi Ağamətov Cəmil Gülmət oğlu:**

– Bir də gəlməyəcək ondan dünyaya. Fədakar sözünün şamil edilə biləcəyi insanlardan biri idi Toğrul. O duyğunu Allah hər kəsə bəxş etməzdi.

Toğrul ilə ömür və döyüş yolumuz 2014-cü ilin yanvarında kəsişdi. O dönəmdə mən leytenant hərbi rütbəsi ilə 6 ay Gəncədə xidmət etdikdən sonra təyinatla Ağdam rayonuna göndərildim. Toğrulla eyni hərbi hissədə taqım komandiri kimi xidmətə başladım. Mən ilk dəfə idi ki, düşmənin açdığı atəş səslərinin susmadığı ərazidə xidmət edirdim. Əlbəttə ki, hələ öyrənməli olduğum çox şeylər var idi. Bunun üçün həm zamana, həm də Toğrul kimi bir peşəkar zabitə ehtiyacım var idi. Zaman isə az idi.

Toğrulun üzərimdə çox haqqı var. Heç vaxt ilk kəşfiyyat zamanı Toğrulun etdiyi jesti unuda bilmərəm. İlk dəfə kəşfiyyata getdiyim zaman Toğrul komandirdən icazə alıb özü də bizimlə getdi. Toğrul bilirdi ki, o gedişin dönüşü olmaya bilər.

Ancaq o fədakarlıq göstərib bizimlə bərabər getdi. O addımın mənim üçün böyük anlamı var idi.

Mənim səriştəli bir zabit olmağımda Toğrulun rolu böyükdür. Hər zaman mənə öhdəliyimə düşən tapşırıqları özümdən təhvil alacağını deyirdi. ***"Mən həmişə burada qalmayacam. Çalış bütün işləri öyrən."*** Zamanla Toğrulun nə demək istədiyini daha yaxşı anladım.

Toğrul nəinki hərbçilərin, hətta yerli sakinlərin də rəğbətini qazanmışdı. Ağdamın hər yerində dost-tanışı var idi. Ağdama bağlılığı həddindən ziyadə idi. Dünyaya Ağdamda göz açmasa da, cənnətə Ağdamdan yol aldı.

"Ağdam" dedikdə ürəyimin sarı simi titrəyir. Qan qoxulu Ağdam. Şəhid libaslı Ağdam. Damla-damla axan qanımın hopduğu Ağdam. Əcəlin gözlərimə göründüyü Ağdam. 2015-ci il avqustun 3-dən 4-nə keçən gecə 11 nəfərlik dəstə ilə növbəti döyüş tapşırığını yerinə yetirib geri qayıdan zaman düşmən atəşinə tuş gəldik. Yolumuzun üstünə minamyot atıldığı üçün məcbur qalıb fərqli istiqamətə getdik. Öndə mən gedirdim. Bilirdim ki, hər addım son addım ola bilər. Elə o an da düşündüyüm başıma gəldi. Mən piyada əleyhinə minaya düşdüm. Sağ ayağımın qopduğunu digər ayağımın isə sındığını və ayaq sümüklərimin boğazıma batdığını hiss etdim. O an düşmən tərəfdən yağış kimi yağan güllələrdən qorunmaq üçün birtəhər sürünüb özümü arxa atdım. Yaralandığımı görən Elşad Nəsibov bütün əngəlləri gözardı edib, xilas etmək üçün mənə doğru gəlirdi. O an Elşad da minaya düşdü. Məni xilas etmək istəyən dostum, silahdaşım sol ayağını, sol gözünü tamamilə, sağ gözünün isə görmə qabiliyyətinin 70 faizini itirdi. Digər yoldaşların Elşadı götürdüklərini hiss edirdim. Lakin səs tellərim zədələndiyi üçün onları səsləyə bilmirdim. Bir anda telefonumun üstümdə olduğunun fərqinə vardım və telefonun işığını yandırdım. Yerimi müəyyən edən yoldaşlar məni tez tibb personalına çatdırmağa çalışdılar. Artıq qan itkisindən gücüm tükənmişdi. O



taqətsizliyin nəticəsində komaya düşdüm. Sonra gözlərimi reanimasiyada açdım. Heç bilmirəm, Toğrul içəri necə keçə bilmişdi. Toğrulu gördüyüm an özümdən biixtiyar gözümdən yaş süzüldü. Sanki iki uşaq kimi biri-birimizə baxıb ağladıq. Sonra qardaşım dedi ki, Toğrul günlərdi, gecə-gündüz hospitalın həyətində mənim özümə gəlməyimi gözləyib. Mənim üçün çox ağır bir dönəm idi. Toğrul o dönəmdə istər maddi, istərsə də mənəvi mənə kömək oldu. Bir neçə dəfə Qusarda məni ziyarətə də gəldi. Elə bir gün olmazdı ki, mənə zəng etməsin. Daha o zənglər susub... Ah Toğrul...

Bir dəfə zəng edəndə dedi ***"Təkrar qayıdıram Ağdama. Mən Ağdamsız qala bilmirəm."*** Mən onu fikrindən döndərmək istəsəm də, onun qərarından dönməyəcəyinə əmin idim. Amalı Ağdamı azad etmək olan Toğrul cismini Ağdama tuşlanan atəşə sipər etdi.

Bir səhər Toğrulun şəhid xəbəri ilə sarsıldım. Nəcməddindən sonra bir də Toğrulun şəhid olmağı mənim üçün böyük bir imtahan oldu. Şəhadətin bir addımlığından dönən bir qazi üçün ard-arda iki dostun şəhid xəbərini almaq asan deyildi. Mənimlə eyni vaxtda yaralanan Elşadla birlikdə Toğrulun adına Naxçıvana yollandıq. Ancaq bu gedişi biz belə arzu etməmişdik. Elə arzularım da əlil qaldı...





# DOST DƏRDİ

*Gedib bir qəhrəman, sədaqətli dost,*
*Ondan mənə qalan xatirələrdi.*
*Dinərkən çöhrəmdə izin salacaq,*
*Qəlbimin sağalmaz olan dost dərdi.*

*Cismimdən vətənə pay verən zaman,*
*Bilməzdim, dostum da can verər yurda.*
*Daha iki dünya ayırıb bizi,*
*O cənnət sakini, mən isə burda...*

*Bir gün bu dünyadan köçdüyüm zaman,*
*İstərəm, yolumun üstə dost dursun.*
*Məni bu dünyada qoruduğutək,*
*Əbədi dünyada Toğrul qorusun.*

*Toğrul gedən gündən həyat sınağı*
*Durmadan hey döyür ömür qapımı.*
*Bir Allah, bir də ki şəhidim duyur*
*Mənim yaşdığım ağrı-acını.*

*26.10.2022*

# ŞƏHİDLƏŞƏN VƏTƏNİN VƏTƏNLƏŞƏN ŞƏHİDİ

*Şəhidləşən bu vətənin vətənləşən şəhidləri çoxdur. Biz "Vətən" kəlməsini dilə gətirdikdə şəhidlərimizi anmağı unutmamalıyıq. Axı o şəhidlərin sayəsində biz "Vətən" kəlməsini qürur ilə dilə gətiririk.*

*Bizim xalqımız hər zaman qürurlu, mərd xalq olub. Tarix boyu bu xalq vətən uğrunda qurbanlar verərək bu günlərə gəlib çıxıb. Biz də tarixdə iz qoyanların izi ilə gedərək o izi gələcək nəsillərə çatdırmalıyıq. Bu minvalla ömür yaşayanlardan, qəlbində Toğrul həsrəti yer alanlanlardan biri də Samir Adıgözəllidir.*

**Toğrulun dostu, İctimai-Siyasi Proseslər, Beynəlxalq Araşdırmalar Mərkəzinin sədri Adıgözəlli Samir Saleh oğlu:**

– Biz bu vətənə Toğrullar qurban verərək Vətən torpağını bütünləşdirdik. O qurbanların sayı çoxdur. Kimini şəkillərdən görüb tanıyırıq, kimi də tanıdığımız, doğma bildiklərimizdir. Toğrul mənim nəinki tanıdığım, əziz dost bildiyim bir insandır. Mənim üçün dünən də var idi, bu gün də var, sabah da var olacaq.

Toğrul ilə dostluğumuzun təməli onun Ağdamda xidməti dövrünə təsadüf edir. Bir dostumun övladını ziyarətə getmişdim. Həmin vaxt Tural komandirindən o qədər razılıq etdi ki, açığı, məndə o komandiri görmək marağı oyandı. Komandiri görmək istəsəm də, dedilər ön xəttədir, bir neçə saat sonra gələcək. Mən 5-6 saat gözlədim. Komandir gəldi. O an cüssəli, şuxqamətli bir zabitlə qarşı-qarşıya durmaq məni qürurlandırdı. Söhbət əsnasında Toğrulun Naxçıvandan olduğunu öyrəndim. Azərbaycanın hər bölgəsi kimi, Naxçıvan torpağı da yetirdiyi igid oğullarla hər zaman vətənə töhfə verib və verir.





Həmin vaxtdan Toğrulla dostluq münasibətlərimiz yarandı. Mütəmadi olaraq bir-birimizlə əlaqə saxlayır, hər dəfə Bakıya gəldiyində görüşərdik.

Aprel döyüşlərindən sonra çox qısamüddətli görüşə bildik. O hər an döyüşə hazır olduqlarını, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İrəli" əmrini gözlədiklərini dedi. Bu onun azadlıq arzusunun izahı idi.

Toğrul sevə-sevə öz ömrünü Azərbaycana xidmət etməyə sərf etdi. Dəfələrlə Ağdam istiqamətində düşmən təxribatının qarşısı Toğrulun sayəsində ordumuz itki vermədən alındı. Toğrul Nadir Əliyev, Allahverdi Bağırov, Ərşad Nadirov, İxtiyar Qasımov, Asif Məhərrəmov, Faiq Ağayev, Baxşeyiş Paşayev kimi qəhrəmanların dünyaya göz açdıqları Ağdam torpağının müdafiəsində hər vəchlə çalışır, Ağdamın işğal altında olan ərazilərini azad etmək üçün mübarizə aparırdı. Toğrul qəhrəmanların izi düşən, qanı axan torpaqların düşmən tapdağı altında olması ilə barışmırdı.



Vətən uğrunda mücadilənin tarixi yoxdur. Bu vətənin tarixi şəhid qanları ilə vətən torpağına yazılıb. Heç bu vətəndə şəhidlərin də yaşı olmur. Körpəsi də şəhid olur, cavanı da, yaşlısı da. Bu vətən şəhid qoxur.

Bir təsəllimiz var. Vətən torpaqları azadlığa qovuşub. Bir zamanlar Toğrulun həsrətlə baxdığı, Raquf Orucovun gecələr ziyarət etdiyi Ağdamın həsrətli torpaqları daha işğal damğası ilə inləmir. Daha o kəndlərdə yollar çəkilir, yaşayış yerləri salınır. Toğrul bu azadlığı gözləri ilə görə bilmədi. Məni ən çox bu üzür.







# İKİ İLİN İYİRMİİLLİK XATİRƏSİ

*Bir insanla doğmalaşmaq üçün illərə ehtiyac yoxdur. Bəzən çox qısa müddətdə tanıdığın biri bütün doğmalarından doğma olur. Sevincini böləcəyin, dərdini əmanət edəcəyin o insan sənin üçün əvəzedilməz biri olur. Toğrul Məmmədov nəinki Elçin İsmayılovun, hətta yoldaşı Kəmalə xanımın, övladları İsmayıl və Fatimənin də əvəzolunmazı idi.*

**Toğrulun hərbçi yoldaşı, dostu, ehtiyatda olan baş gizir İsmayılov Elçin İsmayıl oğlu:**

– Toğrul mənim üçün dostluğun, insanlığın izahıdır. 2014-cü ilin yayında ilk dəfə görüşdüyümüz zaman hiss etdim ki, günümüzdə nadir tapılan insanlardan biridir. Toğrul Bakıya xidmətə gəldiyi zaman mən məzuniyyətdə idim. Toğrulu xidmət etdiyim hərbi hissəyə apardım. Əlbəttə ki, Toğrul kimi bir zabitin bizim hərbi hissədə xidmət etməsi bizim üçün çox önəmli idi. Elə həmin gündən dostluq münasibətlərimiz başladı. Bəzən bir-birimizə məsləhət verərdik, bəzən danlayardıq, bəzən gülərdik, bəzən isə ağlayardıq. Bütün duyğuların çalarını yaşayardıq. Toğrulun bir xasiyyəti heç gözlərimin önündən getmir. İncidiyi və problemi olduğu an bir kənara çəkilib ayaqqabısının burnu ilə torpağı eşərdi. Bir dəfə də kiçik bir mübahisəmiz olmuşdu. (Kaş o günlər olardı. Uşaq kimi savaşıb qapını yerindən çıxarmışdıq.) İşdən sonra evə gedəndə Toğrul yenə kənara çəkilmişdi. Hər ikimiz bir-birimizin qəlbinə dəymişdik deyə üzülmüşdük. Maşını saxlayıb Toğrulu səslədim. Adətimiz üzrə mən sükanı Toğrula həvalə etdim. Ən gözəl günlərimiz idi o günlər.

**Ehtiyatda olan çavuş Məmmədova Kəmalə Rafiq qızı:**

– Toğrul evimizin ən əziz qonağı idi. O bizə gələndə uşaqlar sevincdən qol-qanad açırdılar. Uşaqlarla dil tapmağı



gözəl bacarırdı. Varlığı nə qədər sevinc bəxş edirdisə, yoxluğu da o qədər acı verir.

Çox xeyirxah və fədakar idi. Qardaşımın övladına təcili qan lazım idi. Toğrul heç tərəddüd etmədən o uşağa qan verdi. Uşaq o çətin dönəmi Toğrulun sayəsində atladı. Toğrul həmin vaxtdan bir neçə ay sonra şəhid olduğu gün uşağın halı pisləşdi. Heç kim onun niyə o vəziyyətə düşdüyünü bilə bilmirdi. Ertəsi gün Toğrulun şəhid olduğunu öyrəndiyimizdə hər kəsdən öncə uşağın Toğrulun can verdiyini hiss etdiyini anladıq. Axı Rafiq damarında Toğrulun qanını daşıyırdı.

Toğrulun şəhid olduğu xəbərini aldığım gün mənim həyatıma qara bir gün kimi yazılıb. Toğrulun şəhid olduğu xəbərini iyulun 15-də səhər yol üstə olarkən aldım. Xalamın oğlu Toğrul xidmət etdiyi yerdə xidmət edirdi. Mənə zəng etdiyində səsindən narahatlığını hiss etdim. Öncə Toğrulun yaralandığını desə də, israr etdikdən sonra acı gerçəyi etiraf etdi. "Toğrul şəhadətə ucalıb". O an "ola bilməz" dedim və gerisini



xatırlamıram. Özümə gələndə ətrafdakı insanların gözlərindəki narahatlığı gördüm. Məni evə göndərdilər. Yolda Elçinə zəng etdim. Telefonda duyduğum hönkürtü səsini mən heç vaxt yoldaşımdan duymamışdım. Evə getdim, ancaq dünya başıma fırlanırdı. Toğrulun həyatda olmamasını qəbul edə bilmirdim. Təkrar özümə gəldiyimdə qanın içində idim. Sən demə, bu dəfə yıxıldığımda üz-gözüm çapılıb. Bizim həyatımızın ən çətin dönəmləri o dönəmlər oldu. Heç bilmirdik, uşaqlara bunu necə deyək. Qardaşım İsmayıla sual verib ki, "Atanın hansı dostunun şəhid olması səni daha çox üzər?" İsmayıl o an "Toğrul əmimə nə isə olsa ürəyim partlayar" deyib. Bizim üçün asan olmadı o xəbəri vermək. Səkkizyaşlı Fatimənin ağlayaraq yazdığı bu sözlər isə onun körpə qəlbinin dərdindən xəbər verirdi.

## ŞƏHİD ƏMİM

Düşmənlə döyüşdü Ağdama qədər
Mənim qəhrəman əmim.
O şəhid olsa da, onun ruhu
Daim qəlbimdədir mənim.

O, şəhidlik zirvəsini qazandı,
Onun adı hər vaxt ürəyimdədir.
O, həmişə gözəl əmim olmuşdur.
O mənim şəhid Toğrul əmimdir!

İşimizlə əlaqədar biz Toğrulun dəfnində iştirak edə bilmədik. Toğrulu itirmək qədər dəfnində iştirak edə bilməmək də bizi çox üzdü. Uzun müddət Üzeyirə zəng etməyə cəsarətimiz çatmadı. Biz Toğrulun ildönümündən bir neçə gün öncə Naxçıvana getdik. Üzeyir və Şəbnəmə dəstək olmağa çalışırdıq. Ancaq onların dərdinə nə bir təsəlli, nə də bir məlhəm var idi.

# QİSAS ALAN, QİSASI ALINAN DOST

***Bilirəm, çoxlarınız mənim intiqam və həsrət dolu o göz yaşlarımı görmüsünüz. Gözümdən tökülən mənim qəlbimlə, ruhumla bağlandığım dostumla bağlı ümidlərim, arzularım idi. Kim demiş "Kişilər ağlamaz" sözlərini? Dost dərdinin od saldığı ürəyin sahibi göz yaşlarını necə saxlaya bilər? Elə bilirsiniz o göz yaşları mənim ürəyimin alovunu söndürdü?***

***Mənim üçün Nəcməddin candan əziz can idi. "Vətən" deyib çıxdığım yolda qarşılaşdığım, o yolda bərabər addımladığım bir əvəzsiz insan idi. Məndən iki kurs böyük olsa da, aramızda çox möhkəm dostluq bağı yarandı. Bu dostluq zamandan inam, güc aldı. Yeri gəldi xoş gün dostu olduq, yeri gəldi səngər yoldaşı olduq. Neçə dəfə ölümün pəncəsindən son anda çıxdıq. Mən Nəcməddini itirməkdən çox qorxurdum. Axı mən əzizinin torpağa qoyulmasının nə demək olduğunu bilirdim. Hər zaman Nəcməddinə "Məndən öncə şəhid olsan, darmadağın olaram" deyirdim. Mən özümü tanıyırdım. Ətrafdakılar məni nə qədər güclü sansalar da, mən Nəcməddin kimi bir dost itkisinə dözəcək qədər güclü biri deyildim.***

***Nəcməddinin yaralandığını eşidəndə qolum boşaldı. Axı o varlığı ilə məni gücləndirən idi. Ancaq illər öncə yaralanıb sonra nəinki həyata, hətta hərbiyə dönən Nəcməddinin təkrar həyata dönəcəyinə böyük ümid bəslədim. Onun dönəcəyinə inanmaq istədim. İnanırdımda. Ancaq gözlədiyim kimi olmadı. Bu dəfə Nəcməddinin cisminin yarası könlünün vətən yarası kimi dərin oldu. O qədər kaşkilərim oldu ki...***



Kaş ki Nəcməddinin yerinə mən yaralanardım dedim. Axı onun övladları var idi. Nəcməddin ona ümidlə uzanan əllərimi buraxıb getdi.

Ürəyim neçə əzizimin, silahdaşımın məzar yeri idi. Bir məzar da Nəcməddinin məzarı oldu. Mən qardaşımı, dostumu bayraqlı tabutda ata ocağına son dəfə qonaq kimi gətirdim. Nəcməddinə kəfən olan formada onun doğmalarının qarşısında durmaq mənim ürəyimin tab edə bilməyəcəyi qədər ağır idi.

Dostum, silahdaşım, sirdaşım olan Nəcməddinlə 9 may 2016-cı ildə ata ocağından məzarlığa doğru son dəfə yola çıxdım. Bu dəfə qardaşımın əlləri deyil, şəhid nəşi çiynimdə idi. O an göz yaşı necə intihar etməyərdi? O an ürəyimin naləsi önündə hönkürtüm necə aciz qalmaya bilərdi? O gün şəhadəti elə ürəkdən arzuladım ki, Allah səsimi duydu.

Nəcməddinin övladlarının qürurla dedikləri "Vətən" şeirinin önündə aciz qaldım. Dostu torpağa tapşırmaq ürəyin çarmıxa çəkilməsinə bərabərdir. O an Nəcməddinə bir söz verdim. "Qisasını tez zamanda alıb sənə müjdə gətirəcəm, əziz dostum" – dedim. Ancaq o qisas andını içən tək mən deyildim. Mənimlə yanaşı silahdaşım Həsənov Əsəd Fərhad oğlu da o an qisas andını içdi. Mən bilməzdim ki, mən Nəcməddinin qisasını alıb şəhadətə ucaldığım Ağdam rayonunun azadlığı uğrunda can verənlərdən biri də Əsəd Həsənov olar. Əsəd Vətən müharibəsinin dördüncü günü Ağdam rayonunda qəhrəmancasına şəhid oldu. O bizim həm qisasımızı aldı, həm də arzumuzu gerçəkləşdirdi.

Hər zaman sevinclə gəldiyim dost evinə ürəyim yana-yana getdiyim gün çarəsizliyim və düşmənə olan intiqamım daha da artdı. Yay günü olmasına baxmayaraq sanki buludlar da ağlayırdı Nəcməddinin gedişinə. Nəcməddinin yoxluğu ilə ürəyinin yarası təzələnən Ramilə ananın gözlərinə baxa bilmədim. Təkbaşına böyütdüyü övladı şəhid olan ananın gözlərinə necə baxa bilərdim ki? O an Ramilə anaya





çox söz demək istəyirdim. Lakin susdum. Yarasını qanatmaqdan qorxdum. Ananın kürəyinə ovcumun içi ilə üç dəfə astaca toxundum. O an ürəyimdə üç dəfə "Ramilə ana, Nəcməddinin qisasını alacam" dedim. Bəlkə də, Şəhid anası o toxunuşun qisas andı olduğunu hiss etdi.

Mən Nəcməddin şəhid olduqdan 2 ay sonra dostumun qisasını aldım. Elə cənnətdə məni qarşılayanlardan biri də Nəcməddin oldu. Qarabağın azadlığını gözlərim ilə görməsəm də, Əsəd və onun kimi davamçılarımızın sayəsində vətən torpaqları düşmən tapdağından azad olundu. Dörd il sonra cənnətə gələn Əsəd və bütün şəhidlər Zəfər müjdəsi gətirdilər. Daha ruhumuz vətən səmalarında azad dolanır.

## QİSASIN ALINDI

Ürəyimin nələsi
Gözlərimdən töküldü.
Əvəzsiz olan dostum,
Sən bayrağa büküldün.

Çiynimə ağır gəldi
Bir dostun şəhid nəşi.
Daha görə bilmədi
Arzularım günəşi.

O gündən sonra ancaq
Qisas ilə yaşadım.
Əməlimlə canlandı
İçdiyim qisas andım.

Qəlbimdə başlamışdı
Düşmənim ilə savaş.
Qisasın qiyamətə
Qalmadı, əziz qardaş.

Zəfərə çatmasa da
Ömür, döyüş yolumuz.
Qazanılan qələbə
Sayılır uğurumuz.

05.11.2022





## ÜÇ DOST

Sən gedən gün başladı
Qəlbin qisas savaşı.
Yaddaşlara həkk oldu
Əsədin və Toğrulun
Qisas dolu baxışı.

Toğrul çırpınıb qaldı
Yaralı bir quş kimi.
Dost itkisi elə bil
Lap çarmıxa çəkirdi
O an onun qəlbini.

Əsəd basdı bağrına
Övladını sənintək.
O dərdə tab etmirdi,
Parça-parça olmuşdu
Dərdini çəkən ürək.

O gün hər iki dostun
Qisas andını içdi.
Nəcməddin, dostların da
Sənintək bu vətənin
Uğrunda candan keçdi.

İndi üç dostun adı
Dillərə dastan olub.
Nəcməddin, Toğrul, bir də
Əsəd vətən uğrunda
Qərənfil kimi solub.





## VƏTƏNƏ CANIMIZ FƏDA

***"Bir gün biz mütləq Qarabağı işğaldan azad edəcəyik. Bir gün mütləq Ağdamın əsarətini sona çatdıracağıq. Bir gün mütləq anamın ruhu mənə halallıq verəcək." Bu sözlər sənin baxışlarından oxunurdu. Əslində, söz deyil – ürəyin qisas andı idi. Bu andını andım bildim hər zaman. Çünki həyatı dərk etdiyim gündən mənim də andım bu idi.***

***Sənin hər sözündə özümü tapırdım. 2010-cu ildə Ağdam rayonunda xidmətə başladığım zaman sənin kimi bir komandirin komandanlığı altında xidmətə başlamağı ən böyük şansım hesab edirdim. O zaman bilirdim ki, hər bir zabit kimi mənim də Raquf Orucov kimi komandirdən öyrənəcəyim çox şey var. Heç yanılmadım. Hər addımın mənim üçün bir məktəb idi. O addımları səninlə bərabər atmaq mənim üçün çox önəmli idi. Bir də sənin güvənini qazanmaq.***

***Mənə olan etibarın və etimadınla hərbçi kimi daha böyük addımlar atmağıma təkan verdin. Bir hərbçi kimi başlayan münasibətimizin dostluqla nəticələnməsi qürurverici idi. Biz səngər dostları idik. Biz biri-birimizin söykəndiyimiz dayaq idik. Nə olur olsun, ən çətin vəziyyətdə köməyimizə yetişəcəyimizi bilirdik.***

***Bir zabiti itirmək bizim üçün çox ağır gəlirdi. Heç unutmuram, Tural Əhmədov şəhid olduğu zaman gözlərində intiqam çaxırdı. İllərlə birlikdə xidmət etdiyimiz, ən çətin tapşırıqların öhdəsindən birlikdə gəldiyimiz, ən gözəl bayramları birlikdə qeyd etdiyimiz, toyunda xoş arzularımızı dilə gətirdiyimiz Əhmədov Tural Məhərrəm oğlunun şəhid olması ilə barışmaq mümkün deyildi. Biz neçə-neçə şəhidin qanı axan torpaqları mütləq xilas edəcəkdik. Bilirdik ki, hər an şəhid ola bilərik. Bu düşüncə bizi qorxutmurdu. Əksinə,***



**_biz düşməndən qisas alıb şəhid olmağın nə qədər şərəfli olduğunu bilirdik. "Vətənin azadlığı naminə canımız da, qanımız da fəda olsun" deyib çıxdığımız şərəf yolunda məndən öncə sən azadlığa can verdin. Turalın və onun kimi minlərlə şəhidin qisasını aldın. Vətən torpağına sancılan şanlı bayrağı ruhunla canlandırdın. Əminəm ki, ruhunu cənnətdə ilk şəhid Raya ananın ruhu bağrına basdı. İllər sonra cənnətə üzüağ getdin. Mən isə qisas andımı təkrar-təkrar söylədim. Ard-arda çiynimdə daşıdığım şəhid nəşləri, qəlbimə yığdığım şəhid dərdləri düşmənə olan nifrətimi daha da böyütdü. Sizdən geri qalanların gözlərinə baxmaq çətin idi. Sizdən sonra yaşamaq da..._**

*Bu fikirləri Toğrulun dost-tanışlarına dediyi sözlərə əsaslanaraq yazmışam. Ən çətini şəhidləşərkən yazmaqdır...*



## QİSASIN ANDIM İDİ

*Sən elə insan idin, elə insan idin ki,*
*İnsanlıq pay almışdı dünyaya baxışından.*
*Neçə qurban verərək bu günlərə gəlmişdin*
*Yaşı yaşımı ötən Qarabağ savaşından.*

*Torpağın qulağına pıçıldadığın andın*
*Şəhid olan ananın cənnətinə çatmışdı.*
*Anaların oğlu şəhid olan vətəndə*
*Oğulların anası şəhadətə çatmışdı.*

*Sən ana qisasını, sən vətən qisasını*
*Düşmənin gözlərindən tökməyə and içmişdin.*
*Cisminlə bu dünyada müvəqqəti qonaqdın,*
*Ruhunla illər öncə şəhadətə köçmüşdün.*

*Ruhu şəhid olanın köksündə vuran ürək*
*Bilir ki, gec ya da tez vətən üçün duracaq.*
*Raquf Orucov adı Azərbaycan xalqının*
*Şəhid dərdli qəlbində əbədi taxt quracaq.*

*Qisasın andım idi, mən andımdan dönmədim,*
*Göz açdığın Ağdama çiləndi şəhid qanım.*
*Vətən var olsun deyə səntək, məntək oğullar*
*Vətənə fəda edir, komandir, əziz canın.*

*05.11.2022*



## VƏTƏNİ YAŞADANLAR

***Biz vətənin başına pərvanə kimi dolanmaq üçün dünyaya gəlmişdik. Bu həyatdakı missiyamız vətəni qorumaq, vətənə fəda olmaq idi. Bilirdik ki, ömür yolumuz döyüş yolundan asılıdır. Onu da bilirdik ki, getdiyimiz yolda qəhrəmanların izi var. O izlə addımlamaq, o izi daha da dərinləşdirmək vacib şərt idi. Dərinləşən o izin bir gün bizdən qalan tək miras olacağını bilirdik.***

***Andımız, amalımız, məramımız və məqamımız bir idi. Bir zamanlar silahdaş idik, indi cənnət yoldaşlarıyıq. Bilirəm, bizdən sonra bizim haqqımızda danışmaq bizi sevənlər üçün çox ağırdır, həm də qürurludur. Biz tək vətəni deyil, qüruru da sizlərə miras buraxmışıq.***

***Bir zamanlar çiyin-çiyinə vətənə sipər durduğum Əkbərov Orxan Nadir oğlu, Əsgərov Samid Gülməlı oğlu Qarabağı azad edən qəhrəmanlardır. Siz hər birimizə qəhrəman deyirsiniz. Biz bu qəhrəmanlıq yolunu sizə miras buraxmışıq. Necə ki mən Raquf Orucov, Nəcməddin Savalanovun getdiyi şəhadət yolunu tərəddüd etmədən addımladım, mənim ardımca da neçə-neçə silahdaşım kimi Orxan Əkbərov və Samid Əsgərov da vətənə fəda olmaqdan çəkinmədilər. Bizim bayraq sanca bilmədiyimiz torpaqlara sahib çıxan qəhrəmanlar o torpaqlara bayraq sancaraq sanki bizim ruhumuzun qollarından da qandalları sökdülər. Bir zamanlar çəkilən sədlər, yollar Qarabağa gedən yolun körpüsü oldu. O körpü ömürlərlə hörüldü. Kimisi o körpüdən geri qazi kimi döndü, kimisi çiyinlər üstə döndü, kiminin isə dönüşünün izi olmadı.***

***Biz bu şəkili çəkdirən zaman bilirdik ki, bir zaman gələcək bu şəkildəkilərdən kimisinə "Qəhrəman Şəhid",***



**kimisinə isə "Qəhrəman Qazi" deyiləcək. Mənim, Orxanın, Samidin qismətinə şəhid olmaq yazıldı, Əliyev Xızır Kamal oğlu isə düşmən atəşinə tuş gəlməsinə baxmayaraq həyat mübarizəsindən də qalib ayrıldı. Bizim ruhumuz şaddır. Çünki Xızır kimi silahdaşlarımız qisasımızı aldılar, vətənimizi azad etdilər. Biz can verdik, təki vətən yaşasın.**



## DAŞINA DÖNDÜK, VƏTƏN

*Başına dolandığım, anatək əziz vətən,*
*Başına dolananlar qəlbində daşa döndü.*
*Köksümüzə sığınan yumruq boyda qəlbimiz*
*İllərlə həsrətinlə çarəsizcə döyündü.*

*Bizim qeyrətimizdin, bizim namusumuzdun,*
*Əbəs başlamamışdıq çıxdığımız bu yola.*
*Körpə yaşlarımızdan anamız danışardı*
*Qarabağ həsrətindən gözləri dola-dola.*

*Orxan, Samid, Toğrullar səndən sənə dönəndə*
*Bir "Uf" da deməmişlər qəlblərin sevdalısı.*
*Bizim dərdi çəkən qəlb sağalır varlığınla,*
*Təki olmasın heç vaxt qəlbin vətən yarası.*

*10.11.2022*

# NAXÇIVANIN YETİRDİYİ QƏHRƏMANLAR

Tarixi qədim, həsrəti sərin, yarası dərin Naxçıvan. İllərin sınağı sinəsində dağ olsa da, məğrur duruşu ilə düşmənə göz dağı verib bu yurd, bu yuva. Dünənləri vərəqləyəndə neçə qanlı döyüşlərin izi görünür. Tarix boyu didilib-parçalanmaq qisməti olub. Bəxtinə həm işğal, həm həsrət, həm də anadan ayrı düşmək yazılıb bu ulu torpağın.

Elə vətəndaşların da vətənə daş olmaq üçün yaşadıqları baxışlarından bəllidir. Bu torpağın qocası da, cavanı da vətənə can olmağa hər an hazırdır.

Düşmənlə üz-üzə olan uca dağların sinəsi çox atəşlərə tuş gəlib. Elə o dağlara sipər olan oğulların da sinəsi çox atəşə tuş gəlib. Azərbaycanın bir incisi olan Naxçıvana göz dikən düşmən zaman-zaman daha da azğınlaşıb. İllər öncə Zəngəzuru Azərbaycanın köksündən parçalayıb qoparan düşmən Naxçıvanın da aqibətini Zəngəzura bənzətməyə çalışıb. Ancaq Naxçıvanın sərt qayalarına bənzəyən qəhrəman oğullar düşmənin bu arzusunu ürəyində qoyub. Bir gün Zəngəzurun da işğaldan qurtulub ağ günə çıxacağı ümidini azərbaycanlılar heç zaman itirməyib. O gün çatanda Naxçıvanın əlləri anası Azərbaycana uzana qalmayacaq.

Mübariz, əzmkar, yenilməz torpaqda göz açan oğullar o torpağın haqqını hər zaman veriblər. Qarabağın işğalı zamanı 3-4 yaşları olan oğullar elə bil Qarabağı işğaldan qurtarmaq üçün dünyaya göz açmışdılar. "Vətən" kəlməsini həsrətlə, köks ötürərək deyən o qəhrəmanlar o müqəddəs kəlməni qanları ilə vətən torpağına yazdılar. Həmin o qəhrəman oğullardandırlar Məmmədov Şəhriyar Bayramqulu oğlu, Quliyev Orxan Vaqif oğlu, Məmmədov Toğrul Səyyad oğlu və Vəliyev



Vüsal İslam oğlu. Dünyaya gəlişləri eyni illərə təsadüf edən bu qəhrəmanlar Heydər Əliyev adına Hərbi Liseydə və Azərbaycan Ali Hərbi Məktəbində eyni illərdə təhsil alıblar. Hər dörd qəhrəmanın vətən sevgiləri kimi ömürləri və məqamları da bənzər olub.



Məmmədov Şəhriyar Bayramqulu oğlu cənnətə daha çox tələsən və ilk gedən olur. Hərbi təhsilini birlikdə aldığı Toğrul Məmmədovla birlikdə Ağdam rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edən Şəhriyar Məmmədov 8 aprel 2013-cü ildə düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olur. Bu itki Toğrulu dərindən sarsıdır. Çünki Toğrul üçün şəhid xəbəri ala biləcəyi ən ağır xəbər idi.



Hərbi Lisey və AAHM-də birlikdə təhsil alan dörd qəhrəmandan Toğrul və Şəhriyar eyni hərbi hissədə xidmət etsələr də, Orxan və Vüsal başqa-başqa yerlərdə vətən keşiyini çəkirdilər. Düşmən Azərbaycanın bir çox ərazilərində atəşkəsi mütəmadi pozur və vətənin şəhid oğullarının sayı çoxalırdı. O oğullardan biri də Quliyev Orxan Vaqif oğludur. 13 mart 2015-ci ildə düşmənin Füzuli rayonunun Alxanlı kəndi istiqamətinə növbəti hücumunun qarşısını alan Orxan düşmən atəşinə tuş gəlir. Toğrul daha bir dost itkisi yaşayır.

Növbəti vətən qurbanı isə Toğrul özü olur. 14 iyul 2016-cı ildə düşmənin təxribatının qarşısını almağa çalışan Toğrul Məmmədov özünü vətənə və əsgərlərə sipər edir. Bu xəbər



hər kəsi üzür. Vəliyev Vüsal İslam oğlu isə Toğrulun şəhid olduğu xəbərinə günlərlə inanmaq istəmir. Dünyaya göz açdığı 15 iyul tarixində dostunun, silahdaşının torpağa tapşırılması Vüsal üçün çox ağır olur. Kursant illərinin ən gözəl xatirəsinin səbəbkarının öz ad günündə dəfn olunması Vüsalın düşmənə nifrətini daha da artır. Vüsal Şəhriyarın, Orxanın, Toğrulun qisasını alır və onların arzuladıqları kimi vətən bayrağının Şuşaya sancılmasının səbəbkarlarından biri olur. 2020-ci ildə 44 günlük Vətən müharibəsində sona qədər mübarizə aparan Vüsal 9 noyabrda şəhadətə ucalsa da, onun nəşini uzun müddət götürmək mümkün olmur. Vətənin azadlığı uğrunda can verən qəhrəman şəhidin ruhu cənnətə şəhid müjdəsi aparsa da, cismi uzun müddət sonra 14 dekabrda vətən torpağına əmanət edilir.

Naxçıvanın minlərlə şəhid oğulları kimi dörd qəhrəman dost da Naxçıvan torpağında vətən daşına dönürlər.



## ƏZƏMƏTLİ NAXÇIVANIM

*Vətən başda tacımızdır,*
*Sən o tacın ən dəyərli bir qaşısan, Naxçıvanım.*
*Ürəklərin sarı simi, həm nisgili,*
*Anaların "Bala" deyib oxşadığı*
*müqəddəs and yerimizsən.*
*Köksün üstə qədəm qoyan qəhrəmanlar*
*Qarabağın qollarından söküb atdı o qandalı.*
*Sənə döndü alnı açıq*
*Şəhid kimi, qazi kimi, igid kimi oğulların.*
*Hər birinin nəfəsindən təkrar-təkrar doğuldun sən,*
*Son nəfəslə cana gəldi can üstündə olan vətən.*
*Vətən həsrətin bitirən şəhidlərin*
*Həsrətləri ürəkləri viran etdi,*
*Naxçıvanım, həsrət ilə gözlədiyin*
*azadlıq müjdəsi yetdi.*
*Yolu dönməz igidinin gəlişindən*
*iz qalmadı yollarında,*
*Heç bilmədik itkin oğul yaşayırmı,*
*Yoxsa əziz candan keçib ana vətən qollarında.*
*Həsrətlərin ən ağırı*
*İtkinlərin dönmədiyi yollarını gözləməkdir,*
*Ümid bitən hər nöqtədə yenə ümid bəsləməkdir.*
*Bu qədər dərd, bu qədər qəm...*
*Əzəmətli duruşundan bir misqal ödünc vermədin,*
*Naxçıvanım, tarix boyu başını önə əymədin.*

# TOĞRULUN AĞDAM, AĞDAMLILARIN TOĞRUL SEVGİSİ

*Vətənə xidmət etmək üçün hərbçi olmaq şərt deyil. Əsas odur ki, ruhunla vətənə sevdalanasan. Vətən sevdalısı olduqdan sonra hansı peşənin sahibi olduğun önəmli deyil. Çünki sən sahibi olduğun peşənlə vətənə xidmət edəcəksən. Əsas odur ki, vicdan yoxsulu olmayasan.*

**Toğrulun dostu, mülki şəxs, "Əmək qəhrəmanı" Babayev Ramil Nazim oğlu:**

– Altı min şəhidin uğrunda qan tökdüyü Ağdam rayonunun xilaskarına çevrilən bir qəhrəmandır Toğrul. Onun sayəsində daha Şəhid anaları övladlarının məzarlarını ölümlə üz-üzə gəlmədən ziyarət edirlər. Hər dəfə Toğrulun dediyi ***"Mən bu məzarlığı düşmən atəşindən xilas etmək istəyirəm. Mən cismi düşmən gülləsinə tuş gələn şəhidlərin məzarlarının da düşmən gülləsinə tuş gəlməsinə dözə bilmirəm. Mən Şəhid analarından, Şəhid atalarından utanıram"*** sözləri onun gedəcəyi yoldan xəbər verirdi.

Ağdamlı olmaq sinəsi vətən həsrəti ilə dağlı olmaq demək idi. Ağdamlı olmaq alnında işğal ləkəsi olmaq demək idi. 1990-cı illərdə ağdamlılar sona qədər düşmənə sipər olmağa çalışdılar. Elə ona görə də Ağdam ən çox şəhid verən rayonlardan biri oldu. Əgər sona qədər mübarizə aparmasaydılar, düşmən Kürdəmirə qədər işğal edərdi. O qədər mücadiləyə rəğmən ölkədaxilində olan xainlərin və düşmənlərin sayəsində Ağdam da işğal olundu. O qədər ağırdır ki, o günləri xatırlamaq.

Ağdam uğrunda şəhid olanların son görüntüləri gözlərimin önündədir. Onlardan biri də Ərşad Nadirov idi. O Ərşad Nadirov ki, adını duyan düşmən lərzəyə gəlirdi. Mən Toğrul Məmmədovu Ərşad Nadirovun davamçısı kimi görürdüm.



Heç də düşüncəmdə yanılmadım. Bircə fərqləri var idi. Biri Ağdamda doğulmuşdu, biri Naxçıvanda. Ancaq hər ikisi Ağdam uğrunda can verdilər.

Mən hərbçi olmasam da, bir azərbaycanlı kimi, bir ağdamlı kimi hər zaman vətənim üçün çalışırdım. Elə Toğrul Məmmədovla yolumuzun kəsişməsinin səbəbi də o oldu. 2016-cı il martın əvvəllərində Toğrul ön cəbhədə mənim iş texnikalarıma ehtiyac olduğunu dedi. Mən də bir azərbaycanlı kimi həm iş texnikalarımla, həm də öz qüvvəmlə onlarla bərabər işə başladım.

Düşmənin Ağdamın gecələrinin sükutunu tez-tez atəşlə pozmasının sonunun müharibə olacağı qaçınılmaz idi. Çoxları buna inanmasa da, mən hər an müharibənin başlayacağını, Ağdamın, Qarabağın azadlığa qovuşacağını ümidlə, inamla gözləyirdim. O inamı Toğrul və onun kimi qəhrəmanlardan alırdım. O gün aprelin 1-nə keçən gecə çatdı. O gecə ki, illər öncə ermənilər azərbaycanlılara qarşı tarixdə görünməmiş müsibət törətmişdilər. Artıq növbəti təxribatın cavabı verilməli idi. O cavab düşmənin məğlubiyyətə uğraması, illərdən sonra Azərbaycan Ordusunun zəfər qazanması oldu. Qələbə qazanmaq çətin oldu, ancaq şərəfli oldu. Düşmənin "Ohanyan mifi" darmadağın edildi. İllərlə şüuraltında formalaşan "Güclü Ermənistan ordusu" təfəkkürü süquta uğradı. Bu qalibiyyət bütün mümkünsüzü mümkün etmək üçün bizə güc verdi. O mümkünsüzün biri də düşmənin biraddımlığında batıb qalan texnikanı düşmən xəbər tutmadan oradan çıxarmaq idi. Aprelin 4-ü gecə Toğrul mənə zəng edib dərhal dediyi yerə gəlməyimi istədi. O bilirdi ki, mən vətən üçün öldürməyə də, ölməyə də hazıram. Hər ikimiz bilirdik ki, hər an o texnika düşmən tərəfindən görülə və vurula bilər. Buna baxmayaraq biz geri çəkilmədik. Düşmən xəbər tutmadan biz o texnikanı çuxurdan çıxardıq. O an Toğrul uşaq kimi sevindi. O sevinc gözlərimin önündən getmir.

Toğrul ilə hər an hər addımı atmağa hazır idim. Elə onu bildiyi üçün də son dəfə gedəndə məni riskə atmamaq üçün



mənə bildirməmişdi. Mənə qonaqlığa gedəcəyini deyən Toğrulun şəhid xəbərini alacağımı heç düşünməzdim. O xəbəri aldığım an dilim-dodağım keyidi. Dodağım neçə yerə partladı. "Toğrul gedə bilməz, getməməlidir, vətənin ona ehtiyacı var" – dedim. Ancaq Toğrul şəhid dərdli Ağdamın yarasına duz basdı. Bu gediş məni də yıxdı, övladım Orxanı da. Üç gün uşaq şokdan çıxa bilmədi. Onun "Ata, niyə Toğrul əmimi qorumadın?" sualı mənə ən böyük cəza oldu. Mən Toğrulu qoruya bilmədim. Mən Toğrulun son anında yanında ola bilmədim. Bu mənim üçün dözülməz ağrıdır. Ağdamın ağrıları kimi...

Toğrul Ağdamın xilası üçün çalışdı. O böyük işlər gördü. O görülən işlərin sayəsində, çəkilən valların, sədlərin, təminat yollarının sayəsində illərdən sonra Azərbaycan ordusu düşməni məhv edərək Ağdamı azad etdi. Mən də bu azadlıq üçün mülki vətəndaş kimi mücadilə etdim. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məni "Əmək qəhrəmanı" medalı ilə təltif etdi. Mən isə Toğrulu Azərbaycan xalqının "Milli Qəhrəmanı", Ağdamın xilaskarı kimi görürəm.

*Əminəm ki, bu gün hansı ağdamlıdan Toğrul Məmmədovu soruşsam, verdiyi cavablar Ramil Babayevin, Səyavuş Şükürovun cavablarından fərqli olmayacaq. Toğrulun ürəyindəki Ağdam sevgisinə bənzər idi ağdamlıların Toğrul sevgisi.*

**Dostu, mülki vətəndaş Şükürov Səyavuş Xosrov oğlu:**

– Mənim ürəyimin, sözlərimin gücü yetməz Toğrulsuzluğu izah etməyə. *(Həqiqətən də, Səyavuş müəllimin gücü yetmirdi danışmağa. Dəfələrlə söhbətimizi yarıda saxladıq. Çünki Səyavuş müəllim cəmi bir həftə öncə ürəyindən əməliyyat olunmuşdu. Mən bunu biləndə danışmayaq desəm də, sədaqətli dost "Bilsəm ki, ürəyim dayanacaq yenə də o xatirələri bölüşəcəm" – dedi.)*

Toğrulun həsrəti Ağdamın həsrəti kimidir. İllərlə mən Ağdamın köz-köz olan qəlbinə məlhəm olmağa çalışdım. Nələr çəkmədi ki, Ağdamın bəlalı başı? Acının nə demək olduğunu

yurdu əsarətdə qalanlar, gözlərinin önündə torpağı düşmən atəşinə tuş gələnlər bilər.

Cəmi 17 yaşım var idi. 1994-cü il iyunun 27- də ermənilər Ağdamın Baş Qərvənd kəndini işğal etdilər. Sonra onların işğal etdikləri ərazilər genişləndi. Mənfur düşmən mənim doğulduğum Çıraqlı kəndindən də yan keçmədi. Çıraqlı kəndi də düşmən əsarətinə düşdü. Həmin zaman yerli camaat qonşu kəndlərə didərgin salındı. Milli Qəhrəman Yelmar Edilovun xanımı Reyhan xanım o zaman bu işğalla barışmayan vətən qeyrətlilərindən biri kimi önə atıldı. Reyhan xanım Yelmarın və onun kimi şəhidlərin qanı axan torpağa düşmən ayağının dəyməsi ilə barışmadı. Az deyildi kişi qeyrətli, hünərli Azərbaycan xanımları. Elə bu qəhrəman xanımın və 32 nəfərlik batalyonun sayəsində qanların qisası alındı. 19 düşmən oradaca məhv edildi. Üç saat sonra Çıraqlı kəndi düşmən əsarətindən qurtuldu. Həmin o üç saat müddətində Çıraqlı kəndi düşmən tərəfindən yerlə-yeksan edildi. Demək olar ki, daş üstündə daş qalmadı. Bütün elektrik xətləri sıradan çıxarıldı, artezian quyuları dolduruldu. Demək olar ki, kənddə yaşamaq üçün heç bir şərait qalmadı. Bizim ev o zaman neytrala çox yaxın yerə düşdü. Evimiz ikimərtəbəli olduğundan, həyətdə beton hasarın vasitəsilə düşmən gülləsindən qorunmağın mümkünlüyünü nəzərə alaraq evimiz batalyonun hərbi hissəsinə çevrildi. O dönəmdə, demək olar ki, ailəmizin hər bir üzvü vətənə xidmət etməyə çalışırdı. Ordu düzənsizliyi ucbatından əsgərlərimizin silah təminatı kimi qida təminatı da zəif idi. Anam bəzən bir gündə iki təndir çörək bişirib əsgərlərə göndərirdi. O vaxt mən universitetə qəbul olmuşdum. Lakin daha böyük bir həyat imtahanı ilə sınaqda idik. Mənim universitetə ödəniləcək pulumla atam kəndə işıq və artezian quyuları çəkmək qərarına gəldi. Mən bütün gənclik arzularımın üzərindən xətt çəkib atama dəstək oldum. Demək olar ki, son qəpiyimizə qədər kəndin bərpasına xərclədik. Çıraqlı kəndinə öncə 6–7 ailə döndü. Sonra o



say 54-ə çatdı. Mən vətən üçün yaşamağı ailəmdən öyrəndim. Vətən üçün fəda olmağı isə Toğrul Məmmədov və Raquf Orucov kimi qəhrəmanlardan öyrəndim.

Biz Çıraqlı kəndinə dönsək də, illərlə əkin-biçinlə məşğul ola bilmirdik. Çünki ermənilər bizim əkin sahəmizi minalamışdılar. Elə Toğrulla ilk tanışlığımın səbəbi də o oldu. Toğrul hələ Ağdama yeni gəlmişdi. Mühəndis-istehkam işlərinin icraçısı kimi ərazini minalardan təmizləyirdi. Əvvəl bir zabit kimi tanıdığım Toğrulu sonra bir insan kimi tanıdım. Zamanla Toğrul ailəmizin bir üzvünə çevrildi. Atamın "Oğlum" dediyi dəyərli qardaşım oldu.

Toğrul işində qüsursuz olduğu üçün o yaşda ən önəmli ərazinin mühəndis-istehkam rəisi təyin edilmişdi. O, həmin güvəni sınaqlardan çıxa-çıxa qazanmışdı.

Dünyanın gözlərimdə dəyərini itirdiyi o gecə...



Biz Toğrulla bərabər vətən üçün çox böyük işlər gördük. Aprel döyüşlərində də çiyin-çiyinə mübarizə apardıq. Həmin döyüşlərdə Raquf Orucovu itirməklə elə bil qollarım qırıldı. Bilmədim ki, qısa zamanda görən gözlərim sandığım Toğrul Məmmədovu da itirərəm. 28 ildə mən Ağdamda neçə dost itirdim. Hamısı canımdan can aldı. Ancaq Toğrul ürəyimə xal saldı. Atamı itirəndə mən özümü yetim saymadım. Ancaq Toğrulu itirən zaman yetimləşdim, tənhalaşdım...

Ona açılan atəşi 2 km uzaqlıqda yerləşən evimdə hiss etdim. O atəş sanki ürəyimə tuşlandı. Boğazım düyünləndi. Evdəki qonaqlara "O atəş adama dəydi" dedim. Həmin an ilk ağlıma Toğrul gəldi. Tez Toğrula zəng etdim. Zəngimə cavab verilmədiyi üçün ürəyimin döyüntüsü artdı. Tez digər hərbçi yoldaşa zəng etdim. Toğrul niyə cavab vermir? Sualımın cavabı "Toğrul vuruldu" oldu. Heç bilmirəm hansı sürətlə evdən çıxdım. Bəlli bir məsafədən sonra ayaqlarım tutuldu. Arxadan gələn qohumlar mənə çatdılar. Onlara dedim məni irəli aparsınlar. Bir qədər irəli getdik. O an qardaşımın, sirdaşımın cansız cisminin olduğu maşınla üzbəüz gəldim. O gün mənim sevincim gözlərimdən töküldü. Bir daha mən Toğrulun varlığındakı Səyavuş ola bilmədim.

Toğrulsuz Toğrulun izi olan yerlərdə addımlamaq çox ağır gəlirdi. Biz Toğrulu qoruya bilməsək də, Toğrulun sayəsində çəkilən val və sədd sayəsində Vətən müharibəsi zamanı çox qəhrəmanlarımızı xilas etmək mümkün oldu. Toğrul həm vətən xilaskarı, həm də can xilaskarıdır.



## APREL DÖYÜŞLƏRİ

Azadlıq günəşinin önündəki qara buludlar 2016-cı il aprelin 1-dən 5-nə qədər tədricən çəkilməyə başladı. O buludlar neçə-neçə ananın, atanın, yarın, övladın, bacı və qardaşın göz yaşları ilə əvəzlənsə də, illərdən sonra ilk dəfə vətəni azadlıq günəşinin şəfəqləri aydınlatdı. O günəşin şəfəqlərindən biri də canlı şahid Toğrul Məmmədov oldu.

İllərlə öyrənilən hərbi biliklərin sərgiləndiyi o döyüşlərdə Toğrul Məmmədov arxada olmalı olduğu halda öndə vuruşan qəhrəmanlardan biri oldu. Tarixə Azərbaycan Ordusunun ilk qalibiyyəti kimi həkk olunan o zəfərin sevinci illərlə işğal altında qalan bir qisim torpaqlarımızı və azərbaycanlıların ürəyini isitdi.

Azərbaycan Ordusunun Zəfər sədası Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklərdən, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyindən, Cocuq Mərcanlıdan, Goranboy rayonunun Gülüstan kəndindən, Tərtər rayonunun Qazaxlar kəndindən və Tərtər rayonunun Suqovuşan (Madaqiz) kəndi istiqamətindəki yollardan gəldi.



İlk qalibiyyətin sevinci qədər qurbanları da çox oldu. Azərbaycan Ordusunun 92 (bəzi mənbələrdə 94) hərbi qulluqçusunun şəhid olduğu o döyüşlərdə Toğrul Məmmədov böyük rəşadət göstərmiş, yaralanmağına baxmayaraq bu barədə heç kimə demədən mübarizəsini davam etdirmişdi. Ağdam istiqamətində düşmənin nəfəsini kəsən qəhrəman düşməni öz qanında boğmuşdu.

Toğrul Məmmədov baş leytenant hərbi rütbəsində olmağına baxmayaraq hərbi bilik və bacarığına görə mühəndis-istehkam bölüyünün rəisi idi. Əslində, arxada dayanıb göstərişlər, tapşırıqlar verməli olduğu halda o döyüş zamanında belə öndə işini icra edirdi.





Seçdiyi ixtisasın haqqını hərtərəfli verən Toğrul yaxşı bilirdi ki, bu yol necə bir yoldur. Toğrul üçün ölümün aniliyi hər zaman var olan bir gerçək idi. Ancaq o ölümün, əslində, ölümsüzlüklə əvəzlənə biləcəyini də yaxşı bilirdi. Aprel döyüşlərinə qədər bir çox uğurlu əməliyyatlara imza atan, ***"Qana qan"*** deyib düşməndən qisasını alan qəhrəman, demək olar ki, özü öz qisasını da aldı. Çünki Toğrul o qüdrətə sahib biri idi.

Toğrulun uğurlu əməliyyatları haqqında düşmən tərəf mediada zaman-zaman məlumatlar yayırdı. Düşmən tərəfin "Bir çox hərbçinin həyata keçirdiyi bir əməliyyat" kimi vurğuladığı o əməliyyatları, qarşıdurmaları Toğrul bəzən tək, bəzən isə bir neçə silahdaşı ilə həyata keçirirdi. Bu idi Toğrulun qüdrəti və qüvvəti. Ön cəbhəni məskən bilən Azərbaycan zabiti.

Aprel döyüşləri zamanı öndə gedən Toğrul neçə-neçə səngəri düşməndən azad edərək o azadlıq sevincini yaşayan ilk zabitlərdən idi. Bəzən səngəri düşmənin məzarına çevirdi, bəzən də qorxaq düşmən səngərləri qoyub qaçdı. Hər iki halda da qalib olan Azərbaycan zabiti, Azərbaycan Ordusu oldu. Azərbaycan bayrağını, torpağını şərəfi bilən, hərbi formanı kəfən bilən hər bir hərbçi dönməzliyi və ölməzliyi sübut etdi.

Hər kəs bilirdi ki, Toğrul şəhid olmaq üçün doğulub. Doğuluşundan şəhadətə sevdalanan qəhrəman, şəhid kimi doğuluşun mübarək.

## TARİX YAZAN QƏHRƏMAN

*Sən "Qana qan" deyərək şığıdın düşmən üstə,*
*Bu ürək ola bilməz insan olan hər kəsdə.*
*Şəhidlər üz tutdular cənnətə dəstə-dəstə,*
*Çiynin üstə daşıdın neçə şəhid qardaşı,*
*Qisas duyğusu ilə axdı gözünün yaşı.*

*İntiqamın kök atdı vətənin torpağına,*
*Sahib çıxdın vətənin yenilməz bayrağına.*
*Hay vermişdin vətənin qələbə sorağına,*
*Zəfər üçün yaşayıb, zəfər yaşadan oğul,*
*Azərbaycan adınla fəxr, iftixar duyur.*

*Sən tarixi yazmısan, tarix də səni, şəhid,*
*Neçə qəhrəmanlığa sayəndə olduq şəhid.*
*Səni örnək bilənlər olacaq səntək igid,*
*Bir qarış torpaq olmaz düşmənin yur-yuvası,*
*Büsbütün sağalacaq yurdun işğal yarası.*

*12.11.2022*



## SON ŞAHİDLƏR

*Hər şəklin bir hekayəsi var. Bir parça kağız dünya boyda məna, ömür qədər dəyər daşıyır. Bu şəkil çəkilən zaman əslində bir tarixin əbədiləşdirildiyi hər dörd qəhrəmana bəlli idi. Həm ilk zəfərin qazanıldığı tarixi günlərdən biri, həm də 13 şəhidin nəşinin günlərdən sonra düşməndən təhvil alındığı gün. Kim bilir o an əlində ağ bayraq tutan Toğrul düşmənə nifrətini necə zəbt edib? Kim bilir Toğrul o an nələr çəkib? Kim bilir o an Toğrulun ürəyindən nələr keçib? Bu şəkildə olanların sakit duruşu elə o şəkil çəkilən müddətdə də bitib.*



*Şəkildə olan Xanı dayı, Əvəz Hüseynov, Səddam Hüseynov, Toğrul Məmmədov, şəkli çəkən Firdovsi Bəyov və şəkildə olmayan Əziz Məmmədov düşmənlə qarşı-qarşıya durduqlarında şəhidlərin nəşlərini təhvil ala bilmək üçün səbirlərinin çarmıxa çəkilməsinə dözüblər. Asan deyil silahdaşlarını şəhid edən düşmənlə üz-üzə gəlmək və o an onları məhv etməməyə məcbur olmaq. O an yaşanılanları o anın canlı şahidlərindən xəbər aldım. Tarix, qəhrəmanlıq "qoxan" bu şəklin tarixçəsindən sizlər də xəbərdar olun.*

**Toğrulun silahdaşı hər kəsin Xanı dayı kimi tanıdığı kəşfiyyatçı baş gizir Əhmədov Səyyaf Fiqan oğlu:**

– Bu şəklin çəkildiyi günə qədər vətən səngərində Toğrulla uzun yol qət etmişdik. O yolda neçə-neçə sədləri birgə aşmışdıq. O yola neçə-neçə şəhidin qanı çilənmişdi.

Toğrulu ilk dəfə Ağdam rayonunun Xındırıstan kəndində hərbi tapşırığı icra edərkən tanıdım. Bacarıqlı bir zabit nəzərimdən yayına bilməzdi. Mən kəşfiyyat bölməsində, Toğrul isə mühəndis-istehkam bölməsində idi.

Toğrul cəsarəti ilə seçilirdi. Onun cəsarətli addımlarından biri də Xüsusi Təyinatlı Qüvvələrin bir zabiti olmaq qərarına gəlməsi idi. Yüzlərlə hərbçinin içindən ən cəsarətli olanlar bu qərarı verir. Toğrul 052-nin zabitləri sırasında yer almaq üçün lazım olan kursu uğurla keçsə də, son anda ayağından zədə aldığı üçün arzusuna çata bilmədi. Toğrul geri döndüyündə çox dəyişmiş, xeyli çəki atmışdı. XTQ-nin tərkibinə qatıla bilməsə də, Toğrul cəsarəti, dəyanəti ilə yenə öz sözünü demişdi.

Hərbinin özünəməxsus qayda-qanunları var. Hər bir zabit öz ixtisasının peşəkarı olmalıdır. Mən hər zaman hərbi hissənin görən gözlərinin kəşfiyyat bölüyü, yeriyən ayaqlarının isə mühəndis bölüyü olduğunu deyirəm. Mühəndis-istehkam yol açmasa, kəşfiyyat irəli gedə bilməz. Bir qrupda neçə kəşfiyyatçı olur olsun öndə bir və bir neçə mühəndis-istehkamçı getməlidir. Bu fikirlər ona dəlalət edir ki, bir nəfər Toğrul kimi peşəkar mühəndis-istehkamçı bir orduya bərabərdir.



Toğrul həm boy-buxunu ilə əsl zabit görüntüsünü yaradırdı, həm də cəsarəti, qorxmazlığı ilə. O, qorxu nədir bilməzdi. Sonunda qalibiyyət olan bütün yollarda bütün riskləri gözə alıb addımlayırdı. Dəfələrlə əməliyyatlarda bunun şahidi olmuşam. Bir dəfə Toğrul ilə növbəti tapşırığı icra edib dönərkən düşmənin biraddımlığında işlək vəziyyətdə olmayan işıq xətti var idi. Toğrul bir anda o xətti necə dartdısa ermənilərin gözlərinin önündə işıq dirəyi aşdı. Ermənilər qorxuya düşüb ətrafa atəş açmağa başladılar. O an düşmənin gözündən yayınmağı bacardıq.

Ağdamda kimə yaxınlaşıb Toğrulu soruşsanız, alacağınız cavab "Toğrul bir qəhrəman idi" olacaq. O, həqiqətən, bir qəhrəman idi. Bu gün yüzlərlə MAHHXHQ Toğrulu kumir hesab edir.

Toğrul rəis kimi korpusun ən bacarıqlı rəisi idi. Ağdamdan Toğrulun izi heç zaman silinməyəcək. Çünki o, ən gözəl, ən keyfiyyətli işləri gördü. İstər səngərlərin yenilənməsində, istər bacarıqlı kadrların hazırlanmasında Toğrul Məmmədovun və Raquf Orucovun zəhməti danılmazdır. Onlar möhtəşəm ikili idilər. Raquf Orucov və Toğrul Məmmədovun sayəsində Ağdam rayonunun cəbhə xətti boyunca çox böyük işlər icra edildi.

Aprel döyüşlərində düşmənə qan udduran qəhrəmanlardan biri də Toğrul Məmmədov idi. Həmin döyüşlərdə ilk zəfəri qazansaq da, Raquf Orucov kimi, Murad Mirzəyev kimi, Samid İmanov kimi qəhrəmanları itirmək bizim üçün qəbuledilməz idi. Döyüşlər zamanı o qəhrəmanların qisası alınsa da, atəşkəs elan olunduqdan bir neçə gün sonra erməni meyitləri ilə şəhidlərimizin nəşlərinin dəyişdirilməsi prosesi olduqca dözülməz idi. O an intiqam duyğusunu zəbt etmək çətin idi. 13 şəhid nəşinə bir-bir açıb baxdıqca düşməni o an məhv etməmək üçün özümüzə güclə əngəl olurduq. O an hirsə yenik düşmək olmazdı. Toğrul həmin şəhidlərin çoxunu XTQ-nin kursunda olduğu zamandan tanıdığı üçün ona daha

da ağır idi. Birtəhər Toğrulu sakitləşdirməyə çalışsaq da, hər birimiz bilirdik ki, Toğrul o intiqamı qısa zamanda alacaq.

Bizim qəlbimizdə düşmənə nə qədər nifrətimiz varsa, o qədər də şəhidlərimizə sevgimiz var. İllərdi, mənim qollarımda neçə-neçə qəhrəman oğullar can verib. Neçə silahdaşımın qanı gözlərimin önündə torpağa hopub. Neçə sirdaşıma əbədi vida etmişəm. Biz o oğulların bizə əmanət etdikləri vətənə sahib çıxmalıyıq. Biz qeyrətimizə sahib çıxmalıyıq. Toğrul da bu amalla vətən sinəsi üstə addımladı.

Toğrulun icra etdiyi ən böyük işlərdən biri də Ağdam rayonunda cəbhə boyunca 70–80 faiz ərazini əhatə edən səddin çəkilməsi idi. Ancaq təəssüf ki, Toğrul o işin sonuna yaxın düşmən atəşinə tuş gəldi. İyulun 14-də axşam saatlarında Toğrul öz ərazisində, mən də Toğruldan təxminən 10 km aralıda işimizi icra edirdik. Mənə məlumat verildi ki, Toğrulgil olan ərazidə hadisə baş verib. Tez həmin istiqamətə üz tutdum. Təxminən yarım saat sonra ora çatdığımda Toğrulun tabeliyində olan əsgərin yaralandığını, Toğrulun isə şəhid olduğunu öyrəndim. Toğrulu və yaralını ərazidən uzaqlaşdırmışdılar. Lakin bütün silah-sursat, əşyalar həmin ərazidə qalmışdı. Cəld həmin əşyaları iki dəfə gedib-qayıtmaqla oradan götürdüm. O silahlar düşmən əlinə keçə bilməzdi. Üçüncü dəfə digər silahı axtarmağa getdiyimdə mədəmin tuşundan snayper atəşinə tuş gəldim. Lakin Allah məni yaşatmaqda niyyətli idi. Sonuncu qalan silahı götürməyə gəldiyimdə geyindiyim bronjilet məni müdafiə etdi. Snayperin gülləsi ilişib bronjiletdə qaldı. Çox çətinliklə oradan sağ çıxdım. Sağ qaldığıma ürəkdən sevindim desəm yalan olar. Mənim elə bir vəziyyətdən sağ çıxmağımın möcüzə olduğunu düşünən insanlar qurban kəsmək istədilər. Ancaq mən vətənə ən əziz dostumu qurban vermişdim. Toğrul kimi bir ərənin şəhid olduğu yerdən sağ çıxdığım üçün mən qurban kəsə bilməzdim.

*Toğrulun şəhid olduğu günlə bağlı duyğularını ifadə edənlərdən biri də Əziz Məmmədov oldu.*



**Toğrulun silahdaşı Çavuş (MAHHXHQ) Məmmədov Əziz Şükür oğlu:**

– Toğruldan yox kimi danışmaq çox ağır gəlir. Mən onun bu dünyadan cismani gedişini qəbul edə bilmirəm.

Mən 2014-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Ağdamda xidmətə başladığım zaman Toğrul mənim taqım komandirim idi. O qədər səmimi bir insan idi ki, elə o vaxtlardan da yoldaşlığımız başladı. Həmin vaxtlarda düşmənin təxribat törətməsi nəticəsində tarixə Avqust döyüşləri kimi yazılan döyüşlərdə birlikdə iştirak etdik. Həmin vaxt düşmən mənim idarə etdiyim hərbi maşına atəş açdı. O an özümü itirmədən yola davam etdim. Maşında olan dörd əsgərimiz şəhid oldu. O gün biz möcüzə nəticəsində sağ qaldıq.

Bir müddət sonra komandir təyinatla Bakı şəhərinə göndərildi. 2016-cı ildə təkrar Ağdama qayıdan Toğrul ilə daha bir döyüşdə Aprel döyüşlərində iştirak etmək alnımıza yazıldı. O döyüşdən də sağ çıxmağı bacardıq. Heç düşünməzdim ki, Toğrulun min bir zəhmətlə çəkməyə başladığı yolda özü şəhid olar, biz o yolu Toğrulsuz tamamlayarıq. Əminəm, ruhu bizimlə idi, bizimlədir.

Toğrul şəhid olduğu gün cəmi bir neçə saat öncə mənə evə getmək üçün icazə verdi. Evə çatdığım an gələn zənglə Toğrulun şəhid olduğu xəbərini aldım. Elə həmin an Sarıcalı hospitalına üz tutdum. Mən çatdıqdan qısa müddət sonra Toğrulun nəşini gətirdilər. Hər zaman şux qaməti ilə göz oxşayan, gülüşü ilə qəlb oxşayan Toğrulun o sükutu ürəyimə dağ çəkdi.

*Dil açıb sanki danışan şəkildə yer alanlardan biri də Əvəz Hüseynovdur. Əvəz müəllimin də Toğruldan danışacaq sözləri çox idi.*

**Toğrulun silahdaşı kiçik çavuş MAHHXHQ Hüseynov Əvəz İmamverdi oğlu:**

– Şəkil var, səni aldadır. Şəkil də var, necə görürsənsə, elədir. Gördüyünüz şəkildə Toğrul necədirsə, həyatda da elə idi. Hər zaman varlığı ilə gücümüzə güc qatardı. Onun kitabında

"Edə bilmərəm" sözü yazılmazdı. Edə bilmək üçün son ana qədər mücadilə aparardı.

Mən 2014-cü il mayın 31-də Toğrulun tabeliyində kiçik çavuş ( MAHHXHQ) kimi xidmətə başlamışam. Onun komandir olmaqla yanaşı, bir ailə başçısı kimi qeydimizə qalması bağlarımızın daha da möhkəmlənməsinə səbəb oldu. Çox güclü təşkilatçılıq qabiliyyəti var idi. Bir bayram olan zaman əsgərlərə evdən uzaqda olduqlarını hiss etdirməzdi. 2016-cı ilin gəlişini hərbi hissədə çox təmtəraqlı şəkildə qeyd etmişdik. Toğrulun əvəzsiz dostu Savalanov Nəcməddin də həmin vaxt bizim hərbi hissəyə qonaq gəlmişdi. Hər ikisi o qədər sevincli idilər ki, sanki ən böyük arzularına çatacaqları bəlli idi. Qarabağın azad olunacağı günün yaxında olduğunu dilə gətirən dostlar olacaqları sanki hiss etmişdilər.

Toğrul şəhadət arzusuna çatdı amma çatmadığı arzuları da çox oldu. Onun qəlbimə dağ çəkən bir arzusunu hər dəfə xatırlayanda sanki iliyim də sızlayır. Hər dəfə atışma olan zaman yanında kim olsa özünü onun üstünə atıb həmin şəxsi atəşdən qoruyardı. Hər dəfə də ***"Allahım, möhlət ver, bacımın toyunu görüm. Ondan sonra şəhid olum"*** deyirdi. Ancaq Toğrul o arzusuna çata bilmədi.

Toğrulun bir xüsusiyyəti var idi. Özü kimi qorxusuzları ətrafına cəm edərdi. Ona kimsə "Qorxuram, edə bilmərəm, bacarmaram" desə, o, həmin şəxsdən uzaqlaşardı. Mən və Toğrula yaxın olan hər kəs bunu yaxşı bilirdik. Aprel döyüşləri zamanı mənə ata, anamın təhlükəsizliyini təmin etmək üçün onları evdən çıxmaları üçün razı salmağımı tapşırdı. Əlbəttə ki, mənim üçün çətin qərar idi. Vətənin azadlığı üçün vuruşduğum halda ailəmə evdən uzaqlaşın demək ağır gəlirdi. O zaman Toğrul mənə ***"Bəzən istisnalar olur. Öz canımızı fəda etsək də, doğmalarımızı təhlükədən uzaq tutmalıyıq. Öldürək, ölək"*** dedi.

Öhdəsindən gəldiyimiz çətin anlarımız çox olub. Ən çətin anlardan biri isə Aprel döyüşlərindən sonra neytral zonadan şəhidlərimizi təhvil aldığımız an idi. O an Toğrul düşməni öz qanında boğardı. Ancaq sakitliyi qorumağa məcbur idik. Hər iki tərəfin biri-birinə tərəf addımlayıb ortada təyin olunan yerdə təhvil-təslim işləri aparmalı olduqları halda ermənilər olduqları mövqedən irəli gəlməyə cəsarət etmədilər. Biz onlara tərəf getdikcə onlar yerlərində durmağa belə cəsarət etmirdilər. Toğrul bir ermənini çiyni ilə itələyə-itələyə daha da uzaqlaşdırmışdı. Hər şəhidin nəşi intiqamımızı daha da alovlandırırdı. O gün biz ən çətin tapşırığın öhdəsindən gəlmək üçün özümüzlə mücadilə etdik. Düşmənlə üz-üzə olduğumuz halda onları məhv etmədik...

Aprel döyüşlərindən sonra biz Ağdam istiqamətində mühəndis-istehkam işləri görürdük. Yemək fasiləsi zamanı düşmən atəş açmağa başladı. Toğrulun yanında heç kim silahdan yayınmaq üçün əyilmədi. Toğrul bunu görüb başladı gülməyə. Bizi də gülmək tutdu. Biz atəş altında belə birliyimizi qoruyurduq. Çünki biz səngər dostları idik.

Xidmət tapşırığımı yerinə yetirən zaman mən məftilə ilişib qalmışdım. Düşmən də atəş açırdı. O an Toğrul özünü üstümə atdı. Sözün əsl mənasında, özünü mənə sipər etdi. Onda olan ürək heç kimdə yox idi. Əbəs yerə "Şir ürəkli" ləqəbi deyilməmişdi.

Toğrulun özünəməxsus cəhətlərindən biri də mərhəməti idi. O qamətin arxasında bir kövrək uşaq qəlbi gizlənirdi. Yaxşılığından qalmır, etdiyini də dilə gətirmirdi. Ağdamın Xındırıstan kəndində bir fizikiqüsurlu ailə var idi. Hər dəfə o ailəyə ərzaq və digər yardımlar göndərirdi. Ancaq taksi sürücüsünə adının hallanmamasını tapşırırdı. Çünki Ağdamda, demək olar ki, Toğrulu tanımayan yox idi. Bax Toğrul belə ürək sahibi idi. Toğrul evdən deyil, eldən gedən bir oğul oldu.

Toğrulun şəhid xəbərini kaş ki heç zaman almasaydım. Ürəyimdə hər an qanayan yara kimidir Toğrul dərdim.

Toğruldan mənə xatirələrlə yanaşı, hədiyyə bağışladığı saat və papağı qalıb. Daha dost yolunu yuxularda gözləyirəm.

Hər cümə "Quran" oxuyub bağışlayıram. Əlimdən başqa heç nə gəlmir.

*Şəkildə yer alanlardan biri də Səddam Hüseynovdur. Səddamın da ürəyinin Toğrul həsrətini dinlədim və yazdım.*

**Toğrulun silahdaşı Hüseynov Səddam Ələmdar oğlu:**

– Deyirlər ki, "Həyatda əvəzolunmaz insan yoxdur", ancaq var. Mənim üçün o əvəzolunmaz insan Toğrul Məmmədovdur. Qarabağın düşmən tapdağında olması onun üçün qəbuledilməz idi. Bir qarış torpaq onun üçün əvəzsiz sərvət idi. Belə sevirdi vətəni, torpağı, bayrağı.

Toğruldan nə qədər danışsam da, onun insani keyfiyyətlərini tamlıqla izah edə bilmərəm. Danışmaqla bitməz o insan.

Şəxsi heyətin hər bir üzvünə qarşı diqqətli idi. Bir valideyn kimi qayğımızı çəkirdi. İstəməzdi ki, bir nəfərin belə burnu qanasın. Çox dəqiq və məsuliyyətli idi.

Mən 2016-cı ildə Ağdamda N saylı hərbi hissədə manqa komandiri kimi xidmət edirdim. Toğrul həmin vaxt bizim hərbi hissəyə mühəndis-istehkam bölüyünün rəisi təyin olunmuşdu. İnsanlığı, bilik və bacarığı məni ona yaxınlaşdırdı. Qısa müddətdə bir çox çətin tapşırığın öhdəsindən birlikdə gəldik.

Bizim düşmən xəyanətkardır. Az olmayıb düşmənin öz sözünün üzərində durmamağı. Az olmayıb atəşkəs razılığı əldə edildikdən sonra əlində ağ bayraq tutmasına rəğmən düşmən tərəfdən vurulan hərbçilərimiz. Toğrul da bunları düşünərək hər zaman ağ bayrağı özü qaldırardı. Elə Aprel döyüşlərindən sonra şəhidlərimizin nəşlərini təhvil alan zaman da ağ bayrağı Toğrul götürdü. Zəhmətlə çəkdiyimiz körpünün üstündə duraraq ***"Gəlin burada bir xatirə şəkli çəkdirək"*** dedi. O anı ölümsüzləşdirdik. Hər çətin tapşırığın öhdəsindən gəldiyimiz kimi həmin tapşırığın da öhdəsindən gəldik.

Toğrulun yanında olan zaman özümü güvəndə sanırdım. Toğrul varsa, demək ki, hər şey qaydasındadır – sanırdım. Çünki o işinin peşəkarı idi. Elə həmin gecə də Toğrulla bərabər tapşırığı yerinə yetirmək üçün əraziyə getdik. Toğrul məni ərazi ilə tanış etdi və məsləhətlərini verdi. O an düşmən tərəf atəş açmağa başladı. Yanımızdakı əsgər snayper atəşinə tuş gəldi. Toğrul o an ***"Yaralı əsgəri çıxarın, tez əsgərləri çıxarın"*** dedi və susdu. Mən o an yaralı əsgəri çətinliklə səngərə çəkdim. Onu tibb personalına çatdırmağa çalışdıq. Toğrulun susmasının səbəbinin vurulması olması heç ağlıma gəlmədi. Yaralı əsgəri xəstəxanaya apararkən yolda mənə zəng edib Toğrulun vurulduğunu dedilər. Axı Toğrul vurula bilməzdi... Əsgəri xəstəxanaya çatdırdıqdan az sonra Toğrulu gətirdilər. Elə gözəl yatmışdı ki... Baxan düşünməzdi ki, onun ruhu artıq cənnətə üz tutub. Toğrulu elə görmək...



Toğrul çox böyük şəxsiyyət idi. Mən 2020-ci ilin avqustuna qədər hərbidə işlədim ancaq Toğrul kimi komandir görmədim.

Mən indi də ANAMA-da öz ixtisasım üzrə çalışıram. Bu sahədə Toğruldan çox şey öyrəndim. Hər dəfə işimi icra edəndə gözüm Toğrulu axtarır. Mən əziz dostumu, əvəzsiz komandirimi şəkillərdə axtarıram.

*Bir şəhidin son nəfəsinə şahid olmaq, o nəfəsin son olmaması üçün çarəsizcə çabalamaq qədər böyük çarəsizlik yoxdur bu dünyada. Hələ o son nəfəsi verən Toğruldursa, onun yaşaması üçün öz canından keçməyə hazır olan da oldu. O fədakar insan, sadiq silahdaş Pərviz Həsənovdur.*

**Toğrulun silahdaşı Çavuş (MAHHXHQ) Həsənov Pərviz Çingiz oğlu:**

– Toğrul kimi bir insana çox nadir hallarda rast gəlinir. Bu vətənin qəhrəman oğulları çoxdur. Ancaq Toğrul həm qəhrəman, həm də insan kimi seçilir və sevilirdi.

Mən Xanı dayının qrupunda kəşfiyyatçı idim. Demək olar ki, hər bir çətin tapşırığın öhdəsindən Toğrulun qrupu ilə bərabər gəlirdik. Bir çox döyüş tapşırığını uğurla yerinə yetirmişdik. Cəsarəti qarşısında bəzən təəccübümüzü gizlədə

bilmirdik. Əsgərini riskə atmamaq üçün özünü riskə atmaqdan çəkinmirdi. Heç unutmuram, neytral zonada istifadəsiz işıq dirəkləri var idi. Bəzən düşmənin açdığı atəş o dirəklərə dəyib sonra istiqamət dəyişərək bizim əsgərlərə dəyirdi. O dirəkləri aşırmaq çox təhlükəli olsa da, Toğrul dirəkləri aşırdı. O bizim üçün bir uçmaz qala idi.

Toğrulun ən çox sevdiyi silah PK silahı idi. Elə bil həmin silahı özü icad etmişdi. Düşmənin o silahdan açılan atəşdən yayınması mümkünsüz idi. Bir dəfə gecə vaxtı düşmən yenə də təxribata əl atmağa hazırlaşırdı. Toğrul bundan zamanında xəbər tutdu. PK silahı ilə düşməni susdurdu. Həmin vaxt düşmən tərəf xeyli sayda itki versə də, biz itki vermədik. Ertəsi gün düşmən xəbərlərində onların çoxsaylı qüvvələrimizlə qarşılaşdıqları deyildi. Görünən odur ki, Toğrul bir dəstənin edə biləcəyini tək başına edə bilmişdi. Həmin hadisə nə ilk, nə də son deyildi. Toğrul dəfələrlə düşmənin texnikasını və canlı qüvvəsini zərərsizləşdirmişdi. Toğrul qəhrəmanlığın bariz nümunəsidir.

Heç düşünməzdim ki, o gecə Toğrulla getdiyimiz sonuncu tapşırıqdır. Toğrul öz qrupu ilə növbəti tapşırığı yerinə yetirməyə hazırlaşırdı. O zaman kəşfiyyat bölüyünün komandiri, eləcə də mənim komandirim Vətən müharibəsində qəhrəmancasına şəhid olan Əkbərov Orxan Nadir oğlu idi. Toğrul mənim də onunla əraziyə getməyim üçün dostu və silahdaşı olan Orxan Əkbərovdan icazə aldı. Birlikdə işin icrasına başladıq. O anda düşmən tərəfi mövqelərimizi atəşə tutdu. Açılan atəşə tuş gələnlərdən biri əsgər oldu. Toğrul üçün əsgərin yaralanması qəbuledilməz idi. O an Toğrul silahına sarıldı. Ortalıq toz-duman idi. Səddamla bərabər yaralı əsgəri uzaqlaşdırarkən komandirin ortalıqda olmadığının fərqinə vardım. Geri dönmək istəyən zaman ətrafımdakılar bu addımın mənim üçün həyati təhlükəsi olduğunu dedilər. Ancaq heç nə məni durdura bilməzdi. Mən Toğrul Məmmədova yaxınlaşanda o hələ son nəfəsini verməmişdi. Başından vurulan



qəhrəmanın ürəyi yaşamaq üçün çırpınırdı. Ancaq o çırpınış son çırpınış oldu. Çox çalışdım ki, Toğrula kömək edim. Nə qədər "Rəis" deyə səslədim ancaq Toğrul səsimə səs vermədi. Toğrulun axan qanının istisi, bəlkə, həyata tutuna bilər deyə ümid yaratsa da, o ümid puç oldu. Gözlərimin önündə bir qəhrəmanlıq əsərinin son nidası qoyuldu.

*Toğrulun şəhid xəbərini almaq onu tanıyan hər kəs üçün ağır idi. Ancaq o itki ən çox Toğrulun Firdovsi Bəyov kimi silahdaşlarına təsir etdi. Çünki onlar dost, Azərbaycan ordusu bir qəhrəman itirdi.*

**Toğrulun silahdaşı, dostu polkovnik-leytenant Bəyov Firdovsi Feyzulla oğlu:**

– Toğrul ilə birlikdə illərimiz ötməsə də, illərə bərabər aylarımız, günlərimiz keçdi. Mən 2016-cı ilin yanvar ayında Toğrul xidmət etdiyi hərbi hissəyə hərbi hissə komandirinin müavini təyin olundum. Həmin vaxt Toğrul hərbi hissədə mühəndis-istehkam bölüyünün rəisi idi. İlk gəldiyim gündən Toğrulun səriştəli və məsuliyyətli bir komandir olduğu nəzərimdən yayınmadı.

Hərb peşəsi elə peşədir ki, yanında güvənə biləcəyin birinin olması səni yenilməz edir. Bu düşüncənin səbəbi odur ki, sən bilirsən ki, can versən belə, səni düşmən əlində qoymayacaq silahdaşın var. Toğrulun fədakar olmağı o addımı atacağının əyani sübutu idi.

Mən Toğrulun cəsarətinə daha çox Aprel döyüşlərində şahid oldum. O qərargahda olması gərəkdiyi halda öndə şəxsi heyətin yanında olardı. Ən təhlükəli yerlərə Toğrul özü gedərdi. Bəzən bunu ona irad tutardım. Bu iradlar onun xoşuna gəlmirdi. ***"Şəxsi heyətim haradadırsa, mən onların yanında olmalıyam."*** Bu cümlə onun fikrindən və yolundan dönməzliyini sübut edirdi.

Aprel bizə həm Zəfər sevinci, həm də dostlarımızın itkisinin acısını yaşatdı. Vətən qurbansız olmaz. O qurbanlardan 13-nün nəşini aprelin 10-da düşmənin 18 meyitini

verərək aldıq. Pilotlarımızın, Murad Mirzəyevin, Vaqif Bayramovun, Cavid Dədəkişiyevin, Adil Adilzadənin, Qabil Orucəliyevin və digər şəhidlərimizin nəşlərini təhvil alarkən o oğulların intiqamını alacağımıza and içdik. Həmin vaxt mən Toğrul və digər üç silahdaşımızın şəklini çəkdim. Heç bilməzdim, o şəkil tarix olar. Daha sonra Toğrul andını Nəcməddin Savalanovun dəfnində təzələdi. Andına sadiq qalan dost qısa zaman sonra şəhidlərin qisasını alıb şəhadətə ucaldı.

Həmin gecə sanki Toğrul tələsirdi. Dedi ***"Gedirəm, iş icra edəcəm."*** Dedim, biraz gözlə, birlikdə gedək. Məni gözləmədən getdi. Qısa müddət sonra Toğrulun vurulduğunu eşitdim. Hadisə yerinə gedən zaman yolda Toğrulun olduğu maşınla qarşılaşdım. Toğrul artıq canını tapşırmışdı. Sonradan məlum oldu ki, əslində, Toğrul həmin vaxt irəli atılaraq 10-dan çox şəxsi heyəti xilas edib. O, olacaqları bilərək həmin addımı atıb. Çünki Toğrul şəhid olmağa hər an hazır və razı idi. Mən isə Toğrulu itirməyə, onun dəfnindən sonra məzarı başında tabutunun üzərinə sərilən üçrəngli şanlı bayrağı qardaşı Üzeyirə təqdim etməyə hazır deyildim...





## BİR XATİRƏ QALDI SƏNDƏN...

*...Bir gün hər şey yaxşı olacaq ümidi ilə yaşadılar. Bir gün uşaqlıqdakı kimi üzləri deyil, qəlbləri güləcəkdi. Ancaq olmadı. O gün gəlmədi. Bir tutam ümidləri qalmışdı onu da itirdilər. Ümidlərindən əl üzdükləri gün boşda qalan əllərindən yapışdılar. Axı o əlləri tutacaq başqa bir kimsə qalmamışdı. Nə ata, nə ana, nə də dayaqları olan Toğrul.*

*Heç bilmirəm, özümü daha çox hansının yerinə qoyum. Gənc yaşında həyatın bütün yükünü çiyninə yığıb bacısına dayaq olan Üzeyirinmi, yoxsa kədərə qərq olduğu halda Üzeyirin əllərindən tutub yaşamağa məcbur qalan Şəbnəminmi.*

*"Yaxşı bacı anasızlığı da hiss etdirməz qardaşa" deyiblər. Anaları dünyadan köçəndən sonra Şəbnəm həm bacı, həm də ana kimi qayğılarını çəkirdi Toğrul və Üzeyirin. Yaşı az olsa da, böyük dərdi onu böyütmüşdü. Toğrulu hər istədiyi zaman görə bilməmək onun həsrətini daha da böyüdürdü. Toğruldan zəng gələndə isə Şəbnəmin sevincini görməyə dəyərdi. Bəzən bacı-qardaş saatlarla danışar, bütün duyğularını bölüşərdilər. Yalnız çətinliklərindən başqa. Bu bacı-qardaşların bir xüsusiyyətləri vardı ki, həm çətinliklərini, həm də göz yaşlarını biri-birindən gizlədərdilər. Elə Şəbnəm son zamanlarda Toğrulla bağlı gördüyü yuxuların acısını çəksə də, o bu barədə nə Toğrula, nə də Üzeyirə heç nə demirdi.*

– Mənim yuxularım hər zaman çin çıxır. Olacaqları hər zaman öncədən yuxumda görürəm. Elə Toğrul şəhid olmazdan bir müddət öncə də bir yuxu gördüm. Kaş ki o yuxum çin olmazdı. Yuxuda gördüm ki, şüşəli bir evdəyəm. Atamla anam gəlib mənə "Toğrul şəhid olacaq" dedilər. Hara getdimsə, atamla anam mənə o sözü dedilər. Tez pəncərənin

önünə qaçdım. Gördüm ki, Toğrul həyətdə beş əsgərlə bərabər marş çalır. Toğrulu görüb çox sevindim. O an yuxudan "Toğrul" deyə səsləyişimə oyandım. Saat dörd idi. Dəfələrlə Toğrula mesaj yazsam da, onu narahat etməmək üçün göndərmədən sildim. Ancaq necə olmuşdusa mesajlardan biri Toğrula getmişdi. O an Toğrul mənə cavab yazdı. Qardaşımdan gələn cavab mənim ürəyimi rahatlatdı. Yenidən yuxuya getdim və həmin yuxunun bənzərini təkrar gördüm. Səhər sosial şəbəkələrdə Toğrulun dostu Nəcməddinin dəfnindəki görüntülərini gördüm. Mən o yuxunu Nəcmədinin şəhid olmasının xəbərçisi kimi bildim. Sən demə, yuxum çin olacaqmış. Atam-anam yuxuda dedikləri kimi "Toğrul şəhid olacaq"mış.

Toğrul son dəfə mayın 29-da evimizə gəlmişdi. Çox dəyişmişdi. Sanki gülüşü itmişdi. İftar vaxtı idi. Əl açıb Allahdan özünə ürəkdən elə şəhadət dilədi ki, damarda qanım dondu. Nəcməddin şəhid olduqdan sonra Toğrul bu dünyada qala bilmirdi. Hələ Nəcməddin xəstəxanada olanda Toğrul zəng edib onun yerinə özünün yaralanmağını arzulamış, Nəcməddinin qardaşı isə Toğrula təsəlli vermişdi. Biz o danışıqları Toğrulun şəhadətindən sonra dinlədiyimiz zaman "Yəqin ki, Toğrulun ürəyi daha rahatlıq tapıb" deyə düşündük.

Toğrul Aprel döyüşlərindən sonra çox dəyişmişdi. Müharibənin acımasızlığı qardaşımın sabaha olan ümidlərinə kölgə salmışdı. Heç olmadığı kimi idi. Heç baxmadığı kimi baxırdı. Üzeyirə bir baxmağı vardı ki, sanki son dəfə baxırmış kimi. Biraz həsrətli, biraz qayğılı, biraz ümidli. O baxışı ilə sanki ***"Üzeyir, daha böyümüsən, sənə arxayınam"*** deyirdi. Ancaq nə Üzeyir, nə də mən şəhid qardaş dərdi çəkəcək qədər böyüməmişdik.

Toğrul 2014-cü ildə məzuniyyətə gəldiyində çiynində açıq yara var idi. Mən ondan həmin yaranın nə yarası olduğunu soruşduğumda o mənə bəhanələr gətirsə də, o yaranın nə



yarası olduğunun fərqində idim. Qardaşımın düşmən atəşinə tuş gəlməsi o zamandan sonra məni daha çox qorxudurdu. Elə Aprel döyüşləri zamanı da mənim gecəm gündüzlə yer dəyişdi. Toğrul bizdən harada olduğunu gizlətsə də, onun öndə ola biləcəyinə şübhəmiz yox idi. Elə ona görə də o döyüşlərdən sonra evə son dəfə gəlişində onu ovxalamaq bəhanəsi ilə cismində yara olub-olmadığını yoxlamaq istədim. Ürəyində dost yarası olan qardaşım ayağından yaralanmışdı. Lakin həmişəki kimi bu dəfə də cisminin yarasını hər kəsdən gizlətmişdi. Lakin ürəyinin yarasını bütün Azərbaycan xalqı görmüşdü.



Toğrulun son dəfə evdən çıxdığı gün bilsəydim ki, əbədi vidamızdı, qoxusunu daha da çox içimə çəkərdim. Qardaşımın papağını qoyub şəkil çəkirdimki, o an qardaşım məni möhkəmcə qucaqladı. Sanki o hiss edirdi bu vidanın son vida olduğunu. Dərdini gülüşünün ardında gizləyən Toğrul yenə güldü. Son görüşünü, son gülüşünü son şəkildə əbədiləşdirərək xatirələrimizə yazıb getdi. O gün sanki Allah bizi ayırmaq istəmirdi. Unutduğu əşyanın ardınca qayıtdı. Əşyasını götürüb son dəfə evimizdən çıxdı. Atasız-anasız evimizdən...

Toğrul şəhid olmazdan on gün öncə "çin olan" yuxularımdan daha birini gördüm. Gördüm ki, iki hündür dağ var. Bir dağın başında Toğrul durub, digər dağın başında isə bir qadın yanında canavarla durub. Qadın canavarı Toğrulun üstünə buraxdı. O an yuxudan sıçradım. Sən demə, on gün sonra o qadın qardaşımın əcəli olacaqmış. Həmişə olduğu kimi bu yuxu barəsində də heç kimə demədim. İyulun 10-da isə daha bir yuxu Toğrulun gedişinin xəbərçisi oldu. Bu dəfə isə yuxunu görən mən yox, Toğrul özü idi. Həmin gün Toğrul mənə zəng edib bir yuxu gördüyünü və o yuxunu yozmağımı istədi.

***– Bacı, yuxumda görürəm ki, başımdan torpaq tökürlər. Bax gör bu nə anlama gəlir.***

Yuxunu eşidəndə ürəyim əsdi. Lakin yuxuyozmalardan bu yuxunu fərqli yozmağa çalışdım. Səfərə çıxacağına işarə olduğunu dedim. Qardaşım səfərə çıxdı. Uzaq bir səfərə. Gedişi olub, dönüşü olmayan səfərə.

Bir gün öncə danışdığımız zaman səsində bir təlatüm var idi. Mənə dedi ***"Şəbi, (qardaşlarım məni çox zaman elə çağırardılar) məsciddə hər zaman dua edəndə Allaha yalvarıram ki, mənim ömrümdən alıb bacı-qardaşımın ömrünə yazsın."*** O an göz yaşlarıma hakim ola bilmədim. Dedim, ömrüm ömrünə qurban, bizim dayağımız sənsən. Cəmi bir gün sonra qardaşım ömrünü ömrümüzə, vətənimizə qurban elədi.



*Bu həyatda elə yüklər var ki, insanın nə cisminin, nə ürəyinin, nə də ruhunun o yükü daşımağa gücü yetmir. 30 yaşı olmağına baxmayaraq ürəyi 100 illik ömrə sığacaq dərdi daşıyan Şəhid qardaşı Üzeyir Məmmədovun illərdi, susduğu dərdini dinləmək qədər yazmaq da çətindir. O, həsrətini illərdi, ürəyinin ən dərinində gizlətmişdi. Çünki...*

– Mən heç vaxt inanmazdım ki, qardaşım vətəndə daşa, gözümdə yaşa dönər. Evimizdən torpağa iki can pay verdiyimiz üçün düşünürdüm ki, Allah bizdən Toğrulu da almaz. Axı o bizim həyatda tutunduğumuz dal idi. Biz nə bilək o dal-şaxə də qırılacaq.

Həyat hansı dərdi yükləmədi ki, ürəyimə? Ancaq bu dərdlərin məlhəmi Toğrul idi. O mənim dayağım, məsləhət verənim, böyüyüm idi. Yeri gələrdi ata, yeri gələrdi ana kimi məsləhət verərdi. Son dönəmlərdə isə ən çox mənə ailə qurmağımı məsləhət verərdi. İstəyirdi ki, həm mənim, həm də Şəbnəmin isti yuvası olsun. Özü isə soyuq vətən səngərini isti yuva bilirdi.

Toğrul bizim narahat olmağımıza tab etməzdi. Heç vaxt çətinliyini büruzə verməz, hətta döyüşdə olduğunu belə gizləyərdi. Heç unutmuram, o illərlə Ağdamda xidmət etdiyini belə bizdən gizlətmiş, Bakıda xidmət etdiyini demişdi. Bilirdi ki, həm Şəbnəm, həm də mən onun ön cəbhədə olduğunu bilsək, narahat qalacağıq. Sonra təsadüf nəticəsində mən onun Ağdamda xidmət etdiyini öyrəndim.

Ata-ananın valideynlik borcu heç zaman ödənə bilməz. Lakin bizim o borcdan daha böyük borcumuz Toğruladır. Çünki o qardaş olsa da, bizə valideynlik etdi. Qardaşın valideynlik borcunun haqqı heç zaman ödənə bilməz. Mən də o borcu ömrüm boyu ödəyə bilmərəm. Öz ömrünü, arzularını bizim üçün fəda edən qardaşın haqqını ödəmək mümkün deyil.

Valideynlərimizi itirdikdən sonra Toğrul o yoxluqdan acı çəksə də, bizim o yoxluqdan acı çəkməməyiz üçün çalışırdı. 2014-cü ildə mən hərbi xidmətə getdiyim zaman Toğrul bir

valideyn kimi məni yola saldı. Həyatimizdə ata-anamdan sonra ilk dəfə musiqi sədası duyuldu. Toğrul qolunu boynuma salıb oynayan zaman gözləri doldu. Toğrulu üçüncü dəfə onda ağlayan gördüm. Məni hərbi xidmətə yola salan qardaşım Şəbnəmin tək qalmamağı üçün də addımlar atdı. Həmin dönəmlərdə təyinatla Bakıda xidmət edən Toğrul Şəbnəmi də yanına apardı. O dönəmdə mən Naxçıvanda xidmət etdim, Toğrul və Şəbnəm Bakıda oldular. Heç bir-birimizi görə bilmədik. O qədər ağır gəlirdi ki. Bəzən ürəyim kimsəsizlikdən sıxılırdı. O an torpağı qoxlayırdım. Axı ata-anam torpaq olmuşdu. Elə Toğrul da bütün gün səngərdə sürünməkdən torpaq qoxurdu. Qardaşım o dönəmlərdə işindən ayrılıb Naxçıvana – mənim yanıma gələ bilməsə də, bir zəngi yetərli idi ki, çətin olan işimi asan etsin. O mənim hər şeyim idi. Atam, anam, qardaşım...

Heç bilmirəm, bu günə qədər mən bu dərdə necə tab gətirmişəm. Heç bilmirəm, mən Toğrulun şəhid xəbərini aldığımda ürəyim necə dözdü. Yəqin ki, ürəyim artıq acılarla sınana-sınana daşlaşıb.

Kaş ki o səhər heç açılmasaydı. Öncəki gecə həm Şəbnəm, həm də mən çox narahat idik. Hər ikimiz narahatlığımızı gizlətməyə çalışırdıq. Ancaq bu narahatlıq o narahatlıqdan deyildi. Sən demə, o gecə qardaşımın şəhid xəbəri Naxçıvan camaatına çatıbmış. Xəbəri duyan insanlar yolboyu var-gəl etsələr də, xəbəri bizə deməyə cəsarət etməyib, günün aydınlanmağını gözləyiblər. Bizim günümüz o gün heç aydın olmadı. O gün günəş bizim üçün şəfəq deyil, zülmət saçdı. Səhərin lap erkən çağında Şəbnəm məni səsləyib əmim oğlu Röyalın məni çağırdığını dedi. Açığı o dönəmlərdə Röyalın mənə işlə bağlı cavabı olacağını bildiyim üçün ilk ağlıma o gəldi. Röyal ilə görüşdüyüm zaman Sevdin əmini gördüyümdə bu gəlişin xeyrə əlamət olmadığını anladım. Röyaldan nə olduğunu soruşdum. "Toğrul yaralanıb, gətirirlər" sözləri qulaqlarımda əks-səda qopardı. "Axı yaralını evə gətirmirlər.



Toğrul Toğrul... Yoxsa... Düzün deyin. Toğrula nə olub?" Heç hazır deyildim o cavabı duymağa. Heç Şəbnəm də hazır deyildi. "Toğrul şəhid olub" sözlərini duyduğumda Şəbnəmin fəryadı yanan ürəyimə sanki benzin tökdü. O fəryadın bənzərini bacımdan daha öncə də duymuşdum. Ancaq bu dəfə Toğrulla bərabər sanki öncə itirdiklərimizi təkrar itirdik. Bilmədim, bacımı necə sakitləşdirim. Onu qucaqlayıb saxlamaqdan başqa heçnə edə bilmədim. Qəlbinin necə yandığını anlayırdım. Çünki qəlbim qəlbi kimi yanırdı. Axı Toğrul bizə həm qardaş, həm də ata-ana idi. Ah qardaş... Ah Toğrul...

Cəmi bir neçə saat sonra hər zaman sevinclə gəldiyini gözlədiyimiz o təyyarə səmada göründü. Bu dəfə fərqli idi. Bu dəfə Toğrulun gələn yollarına göz yaşı çilənirdi. Qardaşım yenə şanlı-şöhrətli gəldi. Ancaq çiyinlər üstə. Qürurla daşıdığı bayrağı yenə qürurla daşıyırdı. Ancaq tabutu üstə. Qardaşımın dostları da gəlmişdilər. Ancaq ahəstə-ahəstə...



Ata-anamın tikib başa çatdıra bilmədiyi evimizi zəhmətlə tikən qardaşım evimizin son dəfə qonağı oldu. Cəmi 5–10 dəqiqə qaldıqdan sonra qardaşımla son dəfə yola çıxdım. O yol tanış yol idi. Elə çiynimdəki o tabut da tanış idi. Mən ana tabutu, ata tabutu çiynimdə getdiyim yolu bu dəfə qardaş tabutu çiynimdə getdim. Bu dəfə yüküm daha ağır idi. Çünki o yükü mənimlə bərabər daşıyacaq qardaşım yox idi.

Mən əllərimlə əzizlərimin üzərinə ilk torpağı atan zaman ruhumu da onlarla bərabər gömürdüm. Toğrulun üzərinə ilk torpaq atdığım an isə ümidlərimi, xəyallarımı da qardaş məzarında dəfn etdim. Qardaşımın şərəf bildiyi, canı bahasına enməyə qoymadığı şanlı Azərbaycan bayrağını təhvil almaq mənim üçün dözülməz idi. Bayraq mənə qardaşımın əmanəti, torpaq isə qardaşımın son mənzili oldu. Toğrulun əziz dostu, silahdaşı Firdovsi Bəyov üçün bayrağı vermək, mənimçün də almaq çətin oldu.







Atamın illərlə yolunu gözlədiyi ilk övlad payı, anamın ilk göz nuru onların dünyasına tələsdi. Yəqin, əbədiyyətdə ilk atam və anam qarşıladı Toğrulu. Biz isə bu dünyada kimsəsiz qaldıq. Bir Şəbnəm, bir də mən.

O qədər çətin oldu ki, Toğruldan sonra yaşamaq. Biz yaşamadıq, yaşamağa məcbur qaldıq. İllərlə acımızda boğulduq, sükuta qərq olduq. Bilirdik ki, gedənlərimizin ruhları bizim üçün narahatdır. Elə o narahatlığı yuxularda hiss etdirirdilər. Bir dəfə Toğrul bir qohumun yuxusuna girib ***"Mənim yerim çox rahatdı. Şəbnəmə və Üzeyirə denən mən hər gecə onları qucaqlayıram"*** deyib. Dəfələrlə həyətin qapısının səbəbsiz açılması və başqa nüanslarla Toğrul varlığını bizə hiss etdirdi. Biz də Toğrulun bizi görmək istədiyi kimi olmaq üçün özümüzdə güc tapdıq. Toğrulun bizimlə bağlı arzularını həyata keçirməyə qərar verdik. İlk olaraq 2018-ci ildə Toğrulun arzusunda olduğu kirvəliyi yerinə yetirdik. Toğrulun dostu Röyalın övladı Zəkəriyyə balanın kirvəsi oldum. Sonra Toğrulun hər zaman dilə gətirdiyi ***"Bacımın və qardaşımın ailə***

***qurduqlarını görsəm, dərdim olmazdı"*** arzusunu gerçək etmək üçün addımlar atdıq. Bizim üçün çox çətin qərar idi. Ancaq biz o qərarı verməli idik.

Mən bilmirdim, bir qızın ocaqdan köçməsi nə demək idi. Həm ata olmağa çalışdım, həm qardaş. Ürəyim nə qədər yansa da, Şəbnəmin toy günü onun üçün güclü görünməyə çalışdım. Elə Şəbnəm də mən üzülməyim deyə güclü görünmək üçün çalışırdı. Ta ki "Qardaş" mahnısına qədər. Bizim qardaş adlı yaramız qapanmamışdı, qapanmayacaq...

Daha evimiz biraz da soyumuşdu. Şəbnəm də öz yuvasını isitməyə məcbur idi. Bacı nəvazişini heç zaman kəsməsə də, evimiz gecələr daha soyuq olurdu. Gündüzlər başımı bir yerlərdə qatsam da, gecələr gedənlərin xəyalları ilə baş-başa qalırdım. Son dəfə Toğrul gəldiyi zaman yuxusunu bölən atəş səsləri kimi, mənim də yuxumu duyduğum fəryad səsləri bölürdü.

Mənim həyatda yaşamaq üçün təkcə bir amalım var idi. Toğrulun arzularını gerçək etmək, adını yaşatmaq. 2019-cu il martın 17-də Toğrulun daha bir arzusunu Toğrulsuz yerinə yetirdim. O qədər çətin idi ki, özümün özümə toy etməyi. Hələ dəvətnaməni adına yazacaq bir atamın, anamın qardaşımın olmamağı mənə daha çox acı verirdi. Ancaq mən acımı içimə gömüb Toğrulun görmək istədiyi kimi olmağa çalışdım.

Məni acılarımla birgə qəbul edən, boşda qalan əllərimi sevgi ilə tutan Nərmin bu izdivacın məsuliyyətini gözəl bilirdi. O buza dönən ocağımızı yenidən isitməyin çətin olacağının fərqində idi. Hər şeyə rəğmən o mənim əllərimi tutdu. Toğrul görmək istədiyi kimi bir isti ocağım oldu. O ocağı indi iki övlad nəfəsi isidir. Biri anamın adını daşıyan övladım, digəri qardaşımın adını daşıyan övladım. Qız övladım dünyaya gələndə heç tərəddüd etmədən anamın adını ona əmanət edərək Nazilə adlandırdıq.





Oğul övladım dünyaya gələndə isə daha çox düşündüm. *(O günü heç unutmuram. Şəhid Emin Sadiqovun anası Gülşad ana həmin xəstəxanada işlədiyi üçün mütəmadi əlaqə saxlayıb məlumat öyrənirdim. Elə Gülşad ana ilk olaraq balaca Toğrulun şəklini mənə göndərib "Bibisi, qəhrəman Toğrulun davamçısı doğuldu" dedi. O an sevincdən göz yaşlarıma hakim ola bilmədim. O an balaca Toğrula ilk şeirimi həsr edib Üzeyir qardaşa göndərdim. Əlbəttə ki, Üzeyir qardaş ondan öncə Toğrulun şəklinin mənə gəlməsinə təəccüblənməyə bilməzdi.)*

*Bir igid doğuldu bu gün dünyaya,*
*Şəhid davamçısı Toğrul adında.*
*Arzumdur bir həsrət izi olmasın*
*Balaca Toğrulun şən həyatında.*

*Atası əmanət etdi adına*
*Şəhid qardaşının müqəddəs adın.*
*Bu gün bir övladı bağrına basdı*
*Mələyə tay olan dəyərli qadın.*

*Həsrətin bitməsi necə gözəldir,*
*Sevincdən süzüldü gözlərin yaşı.*
*Üzeyir bir oğul atası oldu,*
*Övladla canlandı şəhid qardaşı.*

*Dünyada kimsəsiz qalan birinə*
*Övladdan, ailədən dəyərli nə var?*
*Qəlbin daşıdığı həsrət yükünü,*
*Üzeyir, qəlbindən sökər övladlar.*





Toğrul hər zaman oğlu olarsa, adına atam Səyyadın adını verəcəyini deyərdi. Mən qardaşımın o arzusuna toxuna bilmədim. Oğluma şəhid qardaşımın adını əmanət edib Toğrul adlandırdım. İndi həyatdan nakam köçənlərimin adını daşıyan övladlarıma tutunmuşam. Onların adlarına layiq böyümələri üçün çalışıram. Toğrulun əmisi kimi dəyərli bir şəxsiyyət olması mənim ən böyük arzumdur.

Toğrul şəhid olduqdan sonra biz nə qədər acı çəksək də, bir o qədər qürurluyuq. İstər mənim ailəm, istərsə də Şəbnəmin ailəsi Toğrulun adını qürurla daşıyırıq. Toğrul heç zaman üzlərini görmədiyi İsmayıla, Cavidə, Naziləyə və Toğrula bitməyən qürur əmanət edib. Toğrulsuz yaşamaq nə qədər çətin olsa da, onun Şəhid adından, yaşatdığı iftixardan güc alırıq. Toğrul bizim qəlbimizdə və əməllərimizdə əbədi yaşayacaq.




Manya xanım, mən sonda bir şey etiraf etmək istəyirəm. Bu günə qədər mən bu duyğularımı ilk sizinlə bölüşdüm. Toğrulun xatirələrinin əbədiləşdirilməsi ən böyük arzumdur.

# AĞDAMDAN CƏNNƏTƏ ÇƏKİLƏN YOL

Bu dünyada bəzən elə yol olur ki, şərəf yolu, qeyrət yolu, zəfər yolu, vətən yolu hesab olunur. Bu yolda can verənlər Allah tərəfindən ən böyük mükafata layiq görülərək, şəhid adını qazanaraq cənnətə yol alırlar. Toğrul da şəhid kimi cənnətə yol alanlardan biridir. Ömür yolu Naxçıvanda başlayan qəhrəmanımızın şəhadət yolu Ağdamdan başladı. Özü də yol çəkən zaman.

Ağdamın Baş Qərvənd, Çıraqlı və Mirəşilli kəndlərinin camaatı illərlə düşmənlə üz-üzə yaşayan vətəndaşlarımız idilər. Kənd camaatı bütün təhlükəni gözə alaraq ata-baba yurdlarından çıxmırdılar. Sakinlərin ən çox əziyyət çəkdiyi məqam da elə ata-babalarının məzarlarını ürəkləri istəyən zaman ziyarət edə bilməmək, əzizlərini düşmən atəşindən yayınmaq üçün gecələr dəfn etmək idi. Toğrul həm yerli camaatın bu əziyyətinə, həm də maşınla təminat aparan hərbçilərin rahatlığı üçün bir yolun çəkilməsinə və o yolun ətrafında səddin çəkilməsinə qərar verənlərdən biri idi. Əlbəttə ki, bu qərarın icrasına briqada komandiri Raquf Orucovun razılığı ilə başladı. Lakin Raquf Orucov Aprel döyüşlərində şəhid olduğu gündən sonra Toğrulun məsuliyyəti daha da artdı. Toğrul və tabeliyində olan hərbçilər çox böyük zəhmətlərlə Ağdam rayonunun cəbhəboyunun təxminən 70-80 faizini əhatə edən val və sədd çəkdilər. Yolun ən çətin yerləri, demək olar ki, çəkildi. Yolun sonuna az qalmış Toğrul şəhid oldu. Başladığı yolun sonuna az qalmış Toğrul daha bir yola qədəm qoydu. Cismi ilə deyil ruhu ilə. O yol şəhadət yoludur. Toğrulun vətən yolu şəhadət yolu ilə can bağı ilə bağlandığı Ağdam torpağında kəsişdi.



Daha Ağdam camaatı Toğrulun sayəsində doğmalarının məzarını gündüzlər də qorxusuz ziyarət edə bilirlər. Ancaq doğmalarından öncə məzarlıqdan bir qədər uzaqda Toğrulun şəhid olduğu yeri ziyarət edirlər. O məzarlıqda uyuyan neçə-neçə şəhid məzarının üstə dalğalanan bayrağın kölgəsi Toğrul şəhid olduğu həmin o yola düşür. Ağdamdan cənnətə çəkilən yola...

Bir qardaş üçün qardaşının şəhid olduğu yeri ziyarət etmək asan deyil. O an Üzeyirin qəlbindən ucalan fəryadını, yəqin ki, Toğrul cənnətində duyub.





## ŞƏHADƏT YOLU

*Elə bil min igid qüvvəti vardı*
*Sənin ürəyində, sənin qolunda.*
*Sən sipər elədin aziz canını*
*Vətənin, bayrağın, xalqın yolunda.*

*Qorxusuz qəhrəman, mücadilərdən*
*Vətənin başına zəfər ələndi.*
*Sənin qədəminlə sevinən yola,*
*Şəhidim, müqəddəs qanın çiləndi.*

*Ağdamda başlayan o şərəf yolu*
*Şəhadət yoluyla kəsişdi bir an.*
*Qolunun üstündə can verənlərtək,*
*Toğrul, vətən üçün sən də verdin can.*

*Kim bilir nə keçdi xəyallarından*
*Ruhunun cismini tərk etdiyi vaxt?*
*Cismiylə torpağa qarışan, şəhid,*
*Hər kəsin qəlbində sən qurmusan taxt.*

*Aylar illər ilə yer dəyişsə də,*
*Nə sən unuduldun, nə əməllərin.*
*Haqları heç zaman ödənə bilməz,*
*Toğrul, sənin kimi mərd ərənlərin.*

*02.11.2022*

# ŞƏKİLLƏRDƏN SEVDİYİM ADAM

Bəlkə, bir gün qovuşarıq bu dünyada deyil, əbədiyyətdə...

Heç bilmirəm, səni necə izah edim? Sənsizliyim qədər sonsuzdur sənlə bağlı duyğularım. Bir ilin min ilə bərabər xatirəsini birikdirmişəm səninlə şəkillərdən, səsindən, sevdiyim adam. Heç vaxt düşünməzdim ki, mən bir insanı şəkildən sevə bilərəm. Nə yalan deyim, mən qəlbimin qapısını kiməsə açmağı düşünmürdüm. Çünki sevgi mənim üçün ali bir duyğu idi. Ancaq xalanın istəyi ilə anam şəklini mənə göstərdiyi an özümdən biixtiyar çöhrəmə təbəssüm qondu, ürəyim heç zaman döyünmədiyi kimi döyündü. Ürəyimdə "bax sevəcəyim insan budur" desəm də, anama heçnə demədim. Ancaq anam artıq çöhrəmə yansıyan təbəssümdən qəlbimə yatdığını hiss etmişdi. Bilirəm, sən də məni şəkillərdən sevmişdin. Mən bilməzdim ki, elə şəkillərdən sevdiyim olaraq qalacaqsan.

Səkkiz ay zənginlə xoşbəxtliyin nə demək olduğunu anladım. Artıq mənim də xəyallarım kəpənək kimi uçuşurdu. Ancaq bilməzdim ki, o xəyalların ömrü də elə kəpənək ömrü qədər qısa olacaq. Səkkiz ay sonra səni görəcəyimin həyəcanı bürüdü ürəyimi. Sənin Naxçıvana gələcəyini öyrəndiyimdə dünyanın ən xoşbəxti mən oldum. Nəhayət ki, o baxışlarını şəkillərdən deyil canlı görəcəkdim.

Heç bilmirəm, niyə ilk görüşə geyinmək üçün qara libas aldım. Yəqin ki, ömürlük qaraya bürünəcəyimi hiss edirmişəm. Ancaq son anda mən o qara libası geyinmək fikrindən daşındım. Və o gün...

Dayanacaqda sənin gəlişini gözlədiyim anda həyəcandan əllərim buza dönmüşdü. Ürəyimin də döyüntüsü artmışdı. Bir anda ***"Salam, xanım"*** deyən bir nəfərin səsini eşitdim. Hələ üzünə baxmadan kölgəni üzərimdə hiss etdim. O an ürəyim köksümdən çıxacaq sandım. Bəli, əsl hərbçi olduğun qamətindən hiss olunurdu. Və bu məni çox sevindirdi. Çünki mənim sevdiyim adam elə sən ola bilərdin.



O gün yaşadığımız hər anın xatirəsi yaddaşıma həkk olunub. O dayanacaqdan başlayaraq saatlarla birlikdə atdığımız hər addım mənim üçün unudulmazdır. İlk görüşün həyəcanı, sevinci o günə qədər yaşamadığım bir duyğu idi. Bilməzdim ki, o ilk görüş son görüş olar. Bilməzdim ki, o duyğuları bir daha yaşaya bilməyəcəm. Bilməzdim...

Nə qədər xəyallar qurduq, arzular dilə gətirdik. İsti ocağımız olacaqdı. Ana-ata nəfəsinə möhtac Şəbnəm və Üzeyirin xoşbəxtliyi üçün birlikdə addımlar atacaqdıq. Söz vermişdim sənə, onlara ana ola bilməsəm də, bacı olacaqdım. Sözümü tuturam sevdiyim...

Bilirsən, daha heç vaxt tut ağacının altında durmuram. Yağan yağışdan gizlənməyə də çalışmıram. Daha çaxan şimşək ürəyim, yağan yağış göz yaşlarımdır.

***"Ağdama gedirəm"*** – o etirafınla ürəyimdə fırtına başladı. O an ağlamağa bəhanə gəzən ərköyün uşağa döndüm. Həmin gecə yuxum ərşə çəkildi. Mən açılan səhərin mənə sənsizlik gətirəcəyini sanki hiss edirdim. Elə bil Allah bu xəbəri eşitməməyim üçün o gün məni telefondan ayrı saldı. Evə gəldiyim an bacım Nazirə telefonumu məndən gizlətməyə çalışdı. Artıq nələrinsə olduğunu hiss edirdim. Ancaq sənə nə isə olduğu gerçəyini qəbul etmək istəmirdim. Bacımın "Toğrul" deyib susması ilə mən yenə sənə nə isə olmağına inanmadım. Ta ki "Bacı, Toğrul şəhid olub" sözləri ürəyimə xəncər kimi saplanana qədər.

Mən heç dil deyib ağlaya bilməzdim. O gün mən səni, sevgimizi ağladım, şəkildən sevdiyim yarım. Elə hey ağladım. Hər kəsdən mənə əngəl olmamaqlarını xahiş etdim. İlk görüşdə geyinmək üçün aldığım qara libasımı geyinib yola düşdüm. Yollar məni Şıxmahmud kənd məscidinə gətirdi. Məscidin önündə xoşbəxtliyi üçün çalışdığın Üzeyiri çarəsiz

vəziyyətdə gördüm. O an ona yaxınlaşa bilmədim. Ətrafdakılardan məzarlığın yerini soruşdum. Mən səni məzarda gördüyüm an...

Həmin an iyulun istisini mən hiss edə bilmirdim. Ürəyim elə yanırdı ki, başqa heç bir şey mənə təsir edə bilməzdi. Məzarını qucaqladım. Heç boynuna sarılmamışdım sənin. Ancaq məzarına sarıldım, torpağını öpüb, qoxladım. O an mənim bütün xoşbəxtliyimin, arzularımın sonu oldu. "Gələcəm, Toğrul" dedim. Ancaq Allah yaşatdı və yaşadır.

Mən arzuladığımız kimi gəlinliklə sizin evə gəlmədim. Qara libasımı geyinib gəldim. Bizim toy mağarımızın qurulacağı yerdə yas mağarın qurulmuşdu. Adını tutub gələnlərin sayı-hesabı yox idi. Sən hər kəsin hörmət etdiyi biri idin, mənimsə sevdiyim idin. O gündən isə mənim vətənim sənsən. Yaşamağımın tək səbəbi də elə budur. Sən şəhid kimi əbədiyaşarlıq qazandın. Sən vətən kimi müqəddəsləşdin.

Daha sənsiz həyatda sənin əmanətlərin olan Şəbnəm və Üzeyirə tutunmuşam. Mən bildirdim ki, sən bu həyatda onlar üçün yaşayırsan.

Əbədiyyətdə görüşərik, şəkillərdən sevdiyim adam.



## SƏN GEDƏNDƏN...

*Sən gedəndən taleyin də çarxı sanki tərs dönüb,*
*Sevgin ilə yandırdığın ümid işığı sönüb.*
*Heç bir zaman gənc ömrümə qara yaraşdırmazdım,*
*Sən gedəndən ruhum, cismim qara rəngə bürünüb.*

*Axı belə danışmadıq ilk və son görüş vaxtı,*
*Bilməzdim ki, qara yazıb yazan mənə bu bəxti.*
*Xəyalımın üstə çökdü əbədilik qaranlıq,*
*Axtarıb tapa bilmirəm onları gündüz vaxtı.*

*Sən gedəndən sevinc qapım açılmayır üzümə,*
*Hər addımda görünürsən, ay sevdiyim, gözümə.*
*Mən ölərəm, söyləmişdim sən dünyadan köçəndə,*
*Mən ölmədim məəttələm özümdəki dözümə.*

*Bilməzdim ki, həyatımın baharında qış olar,*
*Ürəyimə dolan adam torpaq köksünə dolar.*
*Baxışının izi qalan dən düşən tellərimi,*
*Sərt əsən həsrət küləyi məzarın üstə yolar.*

*27.10.2022*



# VƏTƏNİN BƏTNİNƏ KÖÇƏN OĞULLAR

Bir ana düşünün, həyatda ürəyini ümidlə isidən yeganə övladını vətənə qurban edən ana. Bir də bir şəhid düşünün, gəncliyin ilk astanasında anası ilə əbədi vidalaşan şəhid. Mən bu iki müqəddəs insanın həyat hekayəsində biri-birini gördüm. Hər kəsə oğul olan şəhid Toğrul, hər kəsə ana olan Şəhid anası Gülşad ana. İllər öncə Toğrulun şəhid xəbəri gələndə Gülşad ananın ürəyi bir ana ürəyi kimi yanmışdı. Həmin vaxtda Gülşad ananın övladı Emin kursant idi. Gülşad ana Toğrulu Eminin yerinə qoymuşdu. Tək bir fərq var idi, Toğrulun ardınca çeşmə olan gözlər Toğrul şəhid olduqdan sonra onu oğul bilən ananın gözləri idi. Gülşad ana Toğrul şəhid olduqdan sonra ona can bağı ilə doğmalaşan analardan biri idi. Cəmi dörd il sonra isə qan bağı ilə bağlandığı, öz bətnində can verdiyi Emini vətənə qurban edəcəyindən xəbərsiz idi. Şəhid oğullar ana bətnindən dünyaya köçüb, dünyadan da torpağın bətninə əbədi var olmaq üçün köçənlərdi. Torpaq min oğuldan birinə ana kimi qucaq açar. Elə Şəhid analarının da tək təsəllisi övladlarının ana vətənə oğul olmasıdı. Yoxsa yeganə övladını vətənə qurban edən Gülşad ana Eminsizliyə dözə bilərdimi? "Bu vətən bizə əmanətdir" sözlərini dilə gətirəndə, duyanda ürəyimiz köksümüzə sığmır. Çünki bu əmanətə sahib çıxmağın necə məsuliyyətli olduğunu bilirik. Elə Sadiqov Emin Rəşadət oğlu da Məmmədov Toğrul Səyyad oğlunun əmanəti olan vətənə sahib çıxanlardan biri oldu. Dörd il öncə Ağdamdan Qarabağa cığır açan Toğrulun izi ilə gedənlərdən biri də Emin oldu. 27 sentyabr 2020-ci ildə düşmənin növbəti genişmiqyaslı təxribatı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İrəli!" əmrini verməsi ilə nəticələndi. Emin Vətən müharibəsi zamanı Füzulidə düşmənin illərlə möhkəmləndirdiyi səddin aşılmasında rəşadət göstərdi. Atasının adını qürurla daşıyan oğul böyük rəşadət göstərərək şəhadət zirvəsinə ucaldı. Anasına qüruru və azad vətəni miras buraxan Emin cismani olaraq vətənin bətninə köçsə də, adı ürəklərə həkk olundu. Toğrullar, Rasimlər, Qabillər, Tağılar, Aminlər, Şəhriyarlar, Bağırlar sırasında Eminin də adı yazıldı. Vətən müharibəsində vətənə azadlıq bəxş edən bir qəhrəman kimi...






## HƏR ŞƏHİD BİR BALANDIR

*Nədir gözlərində bu qüssə, bu qəm?*
*Telindən həsrətin qoxusu gəlir.*
*Anasız, dünyadan köçən şəhidin,*
*Gedişi hər kəsin qəlbini dəlir.*

*Bir ovuc torpağı köksünə sıxıb,*
*Göz yaşı tökərək lay-lay deyirsən.*
*Ay ana, şəhidtək köçən Toğrula,*
*Hərdən "Əziz balam Emin" deyirsən.*

*Belə çox sevdinmi vətən oğlunu,*
*Övladın yerinə qoyacaq qədər?*
*Gizləmə gözünü mənim gözümdən,*
*Mənim də qəlbimi zəbt edib qəhər.*

*Hər dəfə bir şəhid xəbəri duymaq*
*Artırır düşmənə olan qisası.*
*Bəlkə, bir gün mənim qismətim olar*
*Toğrulun getdiyi cənnət dünyası.*

*Bax o gün boynunu sən önə əymə,*
*Məğrur vətənimdə qürurla dolan.*
*Tək şəhid Eminin olmayacaq ki,*
*Hər şəhid sayılır bir şəhid balan.*

*10.11.2022*

# YAZDIM Kİ, İZİ QALSIN

Gözlərimin yaşı bəzən ürəyimə, bəzən də çöhrəmə damırdı. Hər gün şəhid xəbəri almaq o qədər ağır gəlirdi ki, bəzən cismim dərdin ağırlığına dözə bilmirdi. Nakamömürlülərin zamansız gedişinə heç ürəyim də tab gətirmirdi. Bütün gün şəhid şəkillərinə baxıb onları sətirlərimdə vəsf etməyə çalışırdım. Elə bil yaz deyil, şaxtalı bir qış fəsli idi. Kirpiklərim nəm olan vətən torpağına bənzəyirdi. Elə hey nəmli idi. Hər şəhidə bir doğmam kimi yanırdı ürəyim. Hələ Aprel döyüşlərində itirdiyimiz oğulların torpaqda qanı qurumamış daha bir şəhid xəbəri ilə sarsıldım. Onun taleyi o qədər ağrılı idi ki, oxuduqca sanki canımdan can getmişdi kimi hiss etdim. Ötən zaman mənim Toğrul həsrətimi də böyütməyə başladı. Sətirlərimlə o həsrəti izah etməyə çalışsam da, bacarmırdım. Çünki bir qəhrəmanın nə şücaətini, nə də həsrətini izah etmək mümkün deyil. Heç bilmirəm, bu günə qədər Toğrul Məmmədova neçə şeir, neçə məqalə həsr etmişəm. Bircə onu bilirəm ki, çox kitabımda bu qəhrəmanın adını yazaraq yaşatmağa çalışmışam. Ancaq əminliklə deyə bilərəm ki, mən Toğrulun qəhrəmanlıqlarını daha dərindən "QEYRƏT TƏCƏSSÜMÜ" kitabını yazdığım zaman öyrəndim. Bu zamana qədər mən bu qəhrəmanın göstərdiyi qəhrəmanlıqların çoxundan xəbərsiz idim. Əminəm ki, sizlər də bu kitabı oxuduğunuz zaman Toğrul Məmmədovu vətən naminə yaşayan bir qəhrəman kimi tanıyacaqsınız. 14 iyul 2022-ci il Toğrul Məmmədovun şəhadətə ucaldığı günün 6-cı ildönümündə Üzeyir Məmmədov mənə zəng edərək Toğrulun həyatından bəhs olunan bir kitab ərsəyə gətirməyimi dedi. Cavabım "yazdığım "Vətən Fədailəri: İmişli şəhidləri" və "ŞAHMARIN EŞQ ƏSƏRİ" kitablarını bitirdikdən sonra Toğrul



Məmmədov haqqında yazacam" oldu. Həmin müddətdə Allah mənə Naxçıvanda bir çox şəhidlərimizin məzarı ilə yanaşı, Toğrul Məmmədovun da məzarını ziyarət etməyi nəsib etdi. O ziyarətim zamanı şəhidimə bir söz verdim. "Növbəti gəlişimdə sənin qəhrəmanlığını əks etdirən kitabla gələcəm" dedim. 18 sentyabr 2022-ci il tarixində Toğrul Məmmədovun qardaşı Üzeyir Məmmədovun dəstəyi ilə bu kitabı yazmağa başlamaq qərarına gəldim. "Vətən Fədailəri" layihəsi çərçivəsində ərsəyə gələn kitab Azərbaycanın qəhrəman oğlu Toğrul Məmmədova həsr olunmuş "QEYRƏT TƏCƏSSÜMÜ" kitabıdır. Tarixin tozlu səhifələrini qanları ilə yuyan qəhrəmanların adlarını yazaraq əbədiləşdirmək çətin, məsuliyyətli və şərəflidir. "QEYRƏT TƏCƏSSÜMÜ" ümumilikdə 9-cu, şəhidlərimizə həsr etdiyim 7-ci, "Vətən Fədailəri" layihəsi çərçivəsində işıq üzü görən 4-cü kitabımdır. Qeyd edim ki, kitabın maliyyə xərcləri Üzeyir Məmmədov tərəfindən qarşılanıb. Mən şəhid qardaşı adını layiqli daşıyan Üzeyir Məmmədova bu məsuliyyətli kitabı ərsəyə gətirməyi mənə həvalə etdiyi üçün təşəkkür edirəm. İllərdi, "Vətən Fədailəri" layihəsinin dəstəkçisi qazi oğlu, şəhid qardaşı Şahin Məmmədovla birlikdə vətənə fəda olanların adlarını yaşatmaq üçün çalışırıq. Amalımız odur ki, vətəndə izi qalan hər şəhidin kitablarda da izi qalsın, Yazdım ki, izi qalsın.








# YUXUMA GƏL ARADA

*Sevgi kimisən, şəhid,*
*Vətən sevgisi kimi...*
*Oğul, qardaş bilirəm*
*Mən də özümə səni.*

*Kədərindən pay düşüb*
*Qəlbimə, tellərimə.*
*Məzardan qoxun hopub*
*Elə bil əllərimə.*

*Yuxuma gəl arada,*
*Səndən sənə danışım.*
*Bitmir, şəhidim, bitmir*
*Qəlbim ilə savaşım.*

*Bilirsən, neçə dəfə*
*Sənə doğru gəlmişəm?!*
*Səni soraqlayanda*
*Milyon dəfə ölmüşəm.*

*Bəlkə, qəlbim çarəsiz*
*Köksümdə çırpınanda,*
*Ruhunla sarılmısan*
*Toğrul, mənə o anda.*

*Yoxsa necə dözərdim,*
*Qalaq-qalaq hicrana?*
*Ömrüm fəda, şəhidim,*
*Yurda fəda olana.*

*01.11.2022*

# QEYRƏT TƏCƏSSÜMÜ

Toğrul gizli qəhrəmanlar sırasındadır. O etdikləri haqqında danışmayıb. Çünki o etdiklərini vətən və xalq üçün edib. Toğrulun şəhid olmasından altı ildən çox zaman ötsə də, deyərdim ki, Azərbaycan xalqı hələ də bu qəhrəmanın etdikləri barəsində çox da məlumatlı deyil. Bu kitabı yazarkən hər məlumat aldığım şəxslə mən Toğrulu kəşf etdim. Əminliklə deyə bilərəm ki, Toğrulun Azərbaycan Ordusunun qazandığı qələbədə böyük əməyi var. Bir zamanlar Toğrulun və dəstəsinin gördüyü işlər, çəkdiyi yollar Qarabağa gedən Zəfər yolunun başlanğıcı idi. Toğrul o yolun təməlini qanı ilə çəkdi və kürəyini Qarabağa gedən yolda körpü elədi. O Zəfər yolunda ruhu ilə qürurla addımlayanlardan biri də Toğrul Məmmədovdur. O Toğrul Məmmədov ki, vətəni, xalqı, bayrağı qeyrət bildi və qeyrətli olduğu üçün də bu dəyərlər uğrunda canını fəda etdi. Cəmi 28 illik ömür yaşayan Məmmədov Toğrul Səyyad oğlu bu xalqın "Qeyrət Təcəssümü"dür.



# QEYRƏT TƏCƏSSÜMÜ

*Sən qeyrət təcəssümü,*
*Sən tarixin özüsən.*
*Bu millətin bitməyən*
*Söhbətisən, sözüsən.*

*Toğrul, adını duyan*
*Səni fərəhlə anır,*
*Bu millət şəhidini*
*Hər zaman yaşar sanır.*

*Silinməz iz qoymusan,*
*Tarixin yaddaşında,*
*Səninlə qürur duyur,*
*Bacın da, qardaşın da.*

*Döyüşdə ön cəbhədə*
*Döyüşərdin hər zaman.*
*Düşmənə qan uddurub,*
*Oldun vətənə hayan.*

*Döyüş meydanlarında*
*Nərə çəkib, kükrədin,*
*Aprel döyüşlərində*
*Böyük hünər göstərdin.*

*Əmanətdir bizlərə*
*Şərəfli döyüş yolun.*
*Xalq unutmaz heç zaman*
*Qeyrətli şəhid oğlun.*



# TOĞRUL MƏMMƏDOVUN RÜTBƏ VƏ MEDALLARI

Bir qəhrəman yaşadı bu vətəndə. Səngəri ev-eşik bildi, hərbi formanı kəfən. Yolu şərəf yolu olan qəhrəman Məmmədov Toğrul Səyyad oğlunun ömrü leytenant (2009-cu il 26 iyun), baş leytenant (2012-ci il 26 iyun) hərbi rütbələrində bir çox addımlar atmağa yetsə də, kapitan rütbəsi aldığı gün o rütbəni daşımaq, sevincini yaşamaq qismət olmadan ən böyük məqam sayılan şəhidlik məqamına ucaldı. Hər zaman daşıdığı rütbədən böyük işlər icra edən Toğrul Məmmədov atasının və özünün arzusunda olduğu general rütbəsinə yüksələ bilməsə də, xalq onu qəhrəman kimi tanıyır. Bir gün Toğrulun medalları sırasında "Azərbaycanın Milli Qəhrəmanı", "Azərbaycan Bayrağı" ordeni kimi medal və ordenlərin yer alacağına heç şübhə etmirəm. Çünki Toğrul Məmmədov azadlığın təməlini qanı ilə qoyub.

Məmmədov Toğrul Səyyad oğlu Azərbaycan Ali Hərbi Məktəbində oxuyan zaman "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)" yubiley medalı ilə təltif olunmuşdur. Ağdamda xidmət etdiyi zaman isə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)" yubiley medalı ilə təltif olunmuşdur.

14 iyul 2016-cı ildə şəhadətə ucalan Məmmədov Toğrul Səyyad oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra 29 iyul 2016-cı ildə "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.





# AĞDAM HƏSRƏTİM

*"Ağdam" deyəndə yandı*
*Mənim bağrımın başı,*
*Yanan qəlbimə axdı*
*Ruhumun kədər yaşı.*

*Hər dəfə boylananda*
*O həsrətli torpağa,*
*İstəyirdim, azadlıq*
*Ağdama güntək doğa.*

*O həsrətə, hicrana*
*Dözə bilmirdim, vallah.*
*Ruhumdan ucalırdı*
*Susmayan nalə və ah.*

*Ağdamda şəhid ruhu*
*Dolanırdı nigaran.*
*Vətənin yaraşığı*
*Olmuşdu talan, viran.*

*Bütün dərdlər ayrıdır,*
*Vətən dərdi tam ayrı.*
*Sanki yoxdur bir dərdim,*
*Vətən dərdindən qeyri.*

*Tək amalım Ağdamın*
*Əllərini tutmaqdır.*
*Vətənin göz yaşını*
*Əbədi qurutmaqdır.*

## HƏSRƏT

Mənim ürəyimdə həsrət adında
Çağlayan bir ümman əbədi çoşdu.
Qəlbim həsrət ilə neçə bayatı,
Neçə qəm qoxulu şeirlər qoşdu.

Vətən qoxusuydu yaralarımın
Məlhəmi, dərmanı, loğmanı, vallah.
Çün ana torpaqda ata-anamın
Qəbrinə düşürdü şəfəq hər sabah.

Mən bölə bilmədim sevinclərimi,
Nə ata, nə də ki əziz anamla.
Hər kəsin dərdini duya bilirdim,
Baş edə bilmirdim öz qəlb yaramla.

Ata həsrətinə, ana dərdinə
Tab edib dözürdüm mən lap birtəhər.
Ancaq vətənimin ayrılıq dərdi
Mənə yaşamağı etmişdi zəhər.

Yaşamaq? Yaşamaq deyildi axı
Vətən həsrətiylə ömür-gün sürmək.
Vətənin dərdiylə hər gün ölməkdən
Yaxşıdır şəhidtək canından keçmək.

01.12.2022



## MƏNİ GÜLƏN XATIRLAYIN...

*Məni gülən xatırlayın,*
*Cənnətimdə üzüm gülür.*
*Siz də gözəl bilirsiniz,*
*Şəhidlər heç zaman ölmür.*

*Nakam qalan arzularım*
*Dərd verməsin daha sizə.*
*Cənnətdə şahid oluram*
*Sizin şəhid sevginizə.*

*Sevin vətəni, şəhidi,*
*Vətəni sevdiyim qədər.*
*Qürurlanın ki, ömrümü*
*Yaşamadım boşa, hədər.*

*Gülüşümü xəyallardan*
*Siz heç bir zaman silməyin.*
*Şəhid ömrün vərəqləyib,*
*Kədərlənib, üzülməyin.*

*Hər bəndənin qismətinə*
*Allah yazmaz şəhadəti.*
*Allaha şükür edirəm,*
*Mənə yazdı bu qisməti.*

*18.11.2022*



# KİTABIN İÇİNDƏKİLƏR

Ana vətənin şəhid oğlu ....... 5
Cənnətdə bitən həsrət ....... 7
Ümid işığı ....... 9
"Qəhrəmanlıq" əsərinin oxucusu və yazıçısı ....... 11
Oxunur ömür kitabın ....... 14
Şəbnəmin əbədi həsrəti ....... 15
Fəxarətimsən ....... 19
Qardaş adlı dayağım ....... 20
Qəlbin həsrət savaşı ....... 23
Anaya tən xala ....... 24
Qalmış yana-yana ....... 28
Qəhrəmanın davamçısı ....... 29
Qəhrəman şəhidlər ....... 32
Qardaş yadigarı ....... 33
Əzmli Toğrul ....... 35
"Anasını sevən vətənini də sevir" ....... 36
Sevincə həsrət öykü ....... 40
Qazinin şəhid həsrəti ....... 42
Qazi ....... 45
Uşaqlığın izi ilə ....... 46
Əziz dost ....... 49
Dost gedişin qəbul etməyən dost ....... 50
Adaş dostlar ....... 53
Dostun dost iztirabı ....... 54
Dostluğun izahı ....... 56
Vətən sevgisinin zərgəri ....... 58
Heykəl qoyun analara ....... 60
Anatək doğma müəllimə ....... 61
Şəhid şagirdim ....... 63
Yoxluğunda varlığı aranan şəhid ....... 64
Heyranıq hünərinə ....... 66
Mən də öz sözümü deyəcəm ....... 67
Min oğuldan biriyəm ....... 68

## Azərbaycan Ali Hərbi Məktəbin kursantı

Dostluğa çevrilən müəllim və kursant münasibəti ....... 71
Vətən sipəri ....... 73
Müəllimin əsəri ....... 75
And yerimizsən, şəhid ....... 79

## SİLAHDAŞLAR

Birlikdə ötən 15 il ....... 81
Səndən sonra ....... 87
Dost qisasın alan dost ....... 91
Əvəzsiz dost ....... 95
Silahdaşının adını yaşadan dost ....... 97
Dönülməz şəhadət yolu ....... 100
Peşəsindən böyük işin icraçısı ....... 102
Etibarlı dostlar ....... 105
Toğrul adı təsəllidir ....... 108
Adı yaşayan dostum ....... 112
Peşəsinin peşəkarları ....... 113
Hünəri ilə zəfərə yol açan qəhrəman ....... 115
Səngər qəhrəmanı ....... 119
Qurbanın olum, Vətən ....... 123
Avqust döyüşləri ....... 126
Vətən xilaskarı ....... 128
Avqust döyüşlərinin şahidi ....... 130
Canlı şəhidin əlil arzuları ....... 133
Dost dərdi ....... 137
Şəhidləşən Vətənin vətənləşən şəhidi ....... 138
İki ilin iyirmiillik xatirəsi ....... 143

## İKİ DÜNYANIN AYRILMAZLARI

Qisas alan, qisası alınan dost ....... 146
Qisasın alındı ....... 150
Üç dost ....... 151
Vətənə canımız fəda ....... 153
Qisasın andım idi ....... 156
Vətəni yaşadanlar ....... 157
Daşına döndük, vətən ....... 159
Naxçıvanın yetirdiyi qəhrəmanlar ....... 160
Əzəmətli Naxçıvanım ....... 163
Toğrulun Ağdam, ağdamlıların Toğrul sevgisi ....... 164
Aprel döyüşləri ....... 171
Tarix yazan qəhrəman ....... 174
Son şəhidlər ....... 175
Bir xatirə qaldı səndən ....... 187
Ağdamdan cənnətə çəkilən yol ....... 200
Şəhadət yolu ....... 203
Şəkillərdən sevdiyim adam ....... 204
Sən gedəndən ....... 208
Vətənin bətninə köçən oğullar ....... 210
Hər şəhid bir balandır ....... 213
Yazdım ki, izi qalsın ....... 214
Yuxuma gəl arada ....... 217
Qeyrət təcəssümü ....... 218
Qeyrət təcəssümü ....... 220
Toğrul Məmmədovun rütbə və medalları ....... 221
Ağdam həsrətim ....... 223
Həsrət ....... 224
Qisasım alındı ....... 227
Məni gülən xatırlayın ....... 228

**Manya Səxavət qızı**

QEYRƏT TƏCƏSSÜMÜ

Bakı, "Təhsil", 2022.

Kompüterçi dizayner: ***Səbinə Məmmədova***
Üzqabığının dizaynı: ***Mirəziz Sadıqzadə***
Korrektor: ***Günel Məmmədova***

Çapa imzalanmışdır 08.12.2022. Kağız formatı 60x90 $^{1}/_{16}$.
Fiziki çap vərəqi 14,5. Sifariş 246. Tiraj 350.

"Təhsil Nəşriyyat-Poliqrafiya"
müəssisəsinin mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.: (994 12) 567 81 28/29
Faks: (994 12) 567 82 68
e-mail: tahsil_az@yahoo.com

122090
00000000274757










Manya Səxavətqızı 1 sentyabr 1988-ci ildə İmişli rayonunda anadan olub. "Yazılmayan sətirlər darıxır", "On üç yarpaq", "Fədailər" adlı kitabların müəllifi, "Vətən Mücahidləri" layihəsinin həmrəhbəri, "Vətən Fədailəri" layihəsinin rəhbəri, "Vətən Fədailəri: Naxçıvan şəhidləri", "Vətən Fədailəri: İmişli şəhidləri", "Şahmarın eşq əsəri" kitablarının müəllifidir. "Qeyrət Təcəssümü" kitabı müəllifin növbəti kitabıdır.

"Qızıl Qələm", "Simurq 2021", "Dünya Qadın" mükafatlarına layiq görülüb. Şeirləri müntəzəm olaraq dövrü mətbuatda dərc edilir. Yaradıcılığında əsasən vətənpərvərliyin təbliğatına, şəhidlərimizin tanıdılmasına geniş yer verir.

Ailəlidir, 2 övladı var.

Təhsil